RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 30 (10050) 17 fevral 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran ölkədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına səfəri çərçivəsində dövlət başçısı fevralın 14-də Münxendə Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşet, Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas, Ukrayna Prezidenti Volodimir Zelenski və "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşü olub.

Həmin gün Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələr keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva müzakirələrdə iştirak ediblər.

2-3

# Serbiya və Azərbaycan - iki dost ölkə daim bir-birinin yanındadır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Serbiya Respublikasına rəsmi səfərə gedib. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qarşılayıb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiyanın paytaxtı Belqradda rəsmi qarşılanma mərasimi olub.

Serbiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevin Serbiya Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan-Serbiya sənədlərinin mübadiləsi mərasimi olub, hər iki ölkə prezidentinin iştirakı ilə Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası keçirilib.

Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qeyri-rəsmi səhər yeməyində iştirak ediblər.

Prezident İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri fevralın 16-da başa çatıb.

4-6

## Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində görüşləri ilə bağlı paylaşım edilib




## Prezident İlham Əliyevin Almaniyaya səfəri ilə bağlı paylaşım edilib



"Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasına səfəri (13-15.02.2026)".

## Azərbaycan ilə Litvanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir

### Litva Respublikasının Prezidenti zati-aliləri cənab Gitanas Nausedaya



Hörmətli cənab Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Litvanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, xoş ənənələrə malik ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Litva xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2026-cı il*

## Serbiya ilə münasibətlərimizin hazırkı səviyyəsi məmnunluq doğurur

### Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə



Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Dost ölkə və etibarlı strateji tərəfdaşımız olan Serbiya ilə münasibətlərimizin hazırkı səviyyəsi məmnunluq doğurur. Bu gün qarşılıqlı dəstək və etimad kimi sağlam təməllər üzərində qurulmuş dostluq və əməkdaşlıq münasibətlərimiz hərtərəfli inkişaf edir və yeni məzmunla zənginləşir. Şübhəsiz, ali səviyyəli müntəzəm qarşılıqlı səfərlər, fəal siyasi dialoqumuz bu əlaqələrin daha sürətlə inkişafına və strateji tərəfdaşlığımızın möhkəmlənməsinə şərait yaradır. Bu yaxınlarda Davosda Sizinlə görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, birgə səylərimizlə Azərbaycan-Serbiya ənənəvi dostluq münasibətlərinin, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlığın xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da genişlənməsinə, strateji tərəfdaşlığın daha da dərinləşməsinə nail olacağıq.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Serbiya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2026-cı il*

## Nüfuzlu dövlət, etibarlı tərəfdaş





Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində çoxşaxəli fəaliyyəti, müsahibəsi, panel müzakirələrindəki çıxışları müasir beynəlxalq münasibətlər sistemində əsl diplomatik ustad dərsi kimi xarakterizə olunur. Azərbaycanın suveren iradəsini dünyaya qəbul etdirən dövlətimizin başçısı regional sülhün şərtlərini müəyyən etməklə yanaşı, həm də qlobal təhlükəsizlik arxitekturasında ölkəmizin yerini möhkəmləndirib.

8

## Qarşılıqlı etimad nümunəsi



Serbiya şirkətləri Azərbaycan bazarını Cənubi Qafqaza açılan qapı kimi qiymətləndirir, Azərbaycan iş adamları isə Serbiyanı Balkan və Mərkəzi Avropa bazarlarına çıxış imkanı kimi görürlər. Bu qarşılıqlı maraq iqtisadi əlaqələrin coğrafiyasını genişləndirir və tərəfdaşlığı strateji baxımdan daha da zənginləşdirir.



10

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri

# Azərbaycan transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran ölkədir

## Münxendə Bundestaqın xarici siyasət komitəsinin sədri ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşetlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Armin Laşetlə görüşləri məmnunluqla xatırlandı.

Armin Laşet Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi, sülhün əldə olunmasının bütövlükdə regionun inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini dedi.

Görüşdə Azərbaycanın regional sülh və əməkdaşlıq təşəbbüsləri barədə söhbət açıldı.

Azərbaycanla Almaniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi-ticari, enerji və digər sahələrdə inkişaf etdiyi vurğulandı.

Avropanın enerji təhlükəsizliyində Azərbaycanın oynadığı mühüm rola toxunuldu, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqda oynadığı rol vurğulandı, bu təcrübənin beynəlxalq çərçivədə bölüşülməsinin əhəmiyyəti qeyd edildi.

## Prezident İlham Əliyev Münxendə Bolqarıstan Prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanda keçirilmiş Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etdiyini vurğulayan Bolqarıstan Prezidenti mədəniyyətimizlə yaxından tanış olduğunu, Novruz bayramı adət-ənənəmizin və muğam musiqimizin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

İliyana Yotova Heydər Əliyev Fondunun Bolqarıstanda "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasına göstərdiyi dəstəyi xatırladaraq, buna görə minnətdarlığını ifadə etdi.

O, Azərbaycanın ali təhsil müəssisələrində bolqar dilinin tədrisi və bolqar mədəniyyətinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Söhbət zamanı bir neçə gün əvvəl Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında Bolqarıstanın Veliko Tırnovo şəhərində "Şuşa" parkının salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında sazişin imzalanması məmnunluqla qeyd olundu.

Ölkələrimiz arasında enerji, elektrik enerjisinin ixracı, kənd təsərrüfatı, turizm və digər sahələrdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Bolqarıstanın Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına verdiyi dəstək yüksək qiymətləndirildi.

Bu ilin mayında Azərbaycanın Dünya Şəhərsalma Forumuna evsahibliyi edəcəyi vurğulanaraq, Bolqarıstanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağı bildirildi.

## Prezident İlham Əliyev Münxendə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Kaya Kallasın ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı.

Avropa İttifaqının Azərbaycanla münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğu bildirildi.

Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanaraq, bu xüsusda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi mühüm töhfələrə toxunuldu.

Ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsi ilə yanaşı, nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Münxendə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Münxendə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyə, xüsusilə ukraynalı uşaqlara olan diqqət və qayğıya görə minnətdarlığını ifadə etdi.

Azərbaycan və Ukrayna prezidentləri ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyev Münxendə panel müzakirələrdə iştirak edib






**Fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələr keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva müzakirələrdə iştirak ediblər.

**Moderator Helqa Mariya ŞMİD:** *- Mən üç il əvvəl Sizinlə birgə panel sessiyasında iştirak şərəfinə nail oldum. O vaxt mən ticarət marşrutlarının rəqəmsallaşması yolu bağlantılarını təşviq edən ATƏT-in baş katibi idim. Ölkəniz Orta dəhlizə xeyli sərmayə yatırıb. İcazənizlə bir sual verim: Rusiya ərazisi ilə Şimal marşrutu kimi alternativ marşrutlarla müqayisədə Avropa ilə Asiya arasında gələcəkdə ticarəti nəzərə alsaq, dayanıqlılıq və şaxələndirmə baxımından nə kimi imkanlar var?*

**Prezident İlham ƏLİYEV:** - Çox sağ olun. Sonuncu dəfə panel sessiyasında görüşdükdən sonra regionumuzda dəhlizlər və bağlantılar baxımından xeyli dəyişikliklər olub. Həmin dövrdə Azərbaycan fiziki infrastruktura, o cümlədən dəniz limanları, dəmir yolları, magistral və hava yolları ilə yüklərin daşınmasına böyük sərmayələr yatırıb. Birmənalı olaraq, regional daşımalar qovşağına çevrilmək üçün sizin qonşularınızla yaxşı münasibətləriniz olmalıdır və Azərbaycanda həm Qərb, həm də Şərq istiqamətlərində belədir.

Avropa ilə Asiya arasında yerləşən Azərbaycanın coğrafi mövqeyi üstünlükdür, lakin fiziki infrastruktursuz onun mənası çox deyil. Ötən il biz Azərbaycan vasitəsilə daşınan yüklərin 100 mindən artıq nəqliyyat vahidi üzrə rekord göstərici əldə etdik. Bir neçə ildən sonra həmin göstərici 200 min və hətta 300 min nəqliyyat vahidinə çatacaq. Hədəf 500 min nəqliyyat vahididir. Biz bu məqsədlə artıq dəniz limanımızın genişləndirilməsinə başlamışıq və hazırda orada sərmayələr yatırılır.

Regional bağlantı layihələri. Söhbət təkcə dəmir yollarından getmir, həmçinin fiber-optik kabellər də nəzərdə tutulur. Hazırda Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi üzərində Mərkəzi Asiyadakı tərəfdaşlarımızla sıx işləyirik. O, bu il hazır olmalıdır və Ermənistanla sülh qurulduqdan sonra yeni imkanlar əldə olunub. Azərbaycandan Ermənistana və oradan Avropa istiqamətində gedən dəhlizin yük həcmi baxımından böyük potensialı var. Azərbaycan hazırda öz ərazisində dəmir yolunun çəkilməsinə sərmayə yatırır. Azərbaycan ərazisində - ölkəmizin əsas hissəsi və eksklav Naxçıvanda çəkiləcək və bərpa olunacaq dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistanda həmin yolun uzunluğu 40 kilometrdən bir az çoxdur. Çəkilən kimi biz Azərbaycan vasitəsilə Orta dəhlizin iki hissəsinə malik olacağıq. Bu, Qərb ilə Şərq üçün faydalı olacaq və təbii ki, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcək.

❖ ❖ ❖

Ermənistan və Azərbaycanla qlobal bir marşrut yaranması istiqamətində əməkdaşlıq əlaqələri qurulduğunu diqqətə çatdıran Avropa Komissiyasının Genişlənmə üzrə komissarı **Marta KOS** deyib: "Ermənistan ilə Azərbaycan arasında sülh prosesi yeni qapılar açır və əvvəlcə icrası inanılmaz olan bunlara indi artıq bizdə inam yaranır. Prezident Əliyevə təşəkkürümüzü bildiririk ki, o, Avropa İttifaqının da bununla bağlı planlarına həmişə öz dəstəyini vermişdir".

*Ardı 3-cü səh.*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri

# Azərbaycan transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran ölkədir

## Prezident İlham Əliyev Münxendə panel müzakirələrdə iştirak edib

*Əvvəli 2-ci səh.*

**Marta KOS** əlavə edib: "Çindən Avropaya gedən istiqamətə gəldikdə, biz istərdik ki, bu, şaxələndirilmiş formada olsun. Özəl şirkətlər qısa müddət ərzində daha çox yük çatdıra bilmələri üçün seçim etmək istəyirlər. Yekun nəticədə 2030-cu ilə qədər Trans-Xəzər marşrutu ilə daşımalarda üç dəfə artım ola bilər. Bu, artıq böyük yüklərin daşınması deməkdir ki, o da bizneslər üçün cəlbedicidir".

"Çinin Azərbaycanla, Mərkəzi Asiya ilə və həmin bölgədəki digər ölkələrlə münasibətləri hər zaman vacib olubdur" deyən Çin və Qloballaşma Mərkəzinin təsisçisi və prezidenti, Çin Xalq Respublikasının keçmiş dövlət müşaviri **Vanq HUİYAO** "Bir kəmər, bir yol" təşəbbüsündən danışaraq deyib: "Bu strategiya elə bir məqsədə yönəlib ki, həmin marşrutla həyata keçirilən daşımalar sadələşsin. Əlbəttə ki, Çin yeni dəhlizlərin genişləndirilməsinə töhfə verməyi, yeni layihələrin olmasını istəyir".

Vanq Huiyao bildirib ki, "Bir kəmər, bir yol" təşəbbüsü, əslində, Trans-Xəzər regionuna aid ölkələri də əhatə edir. "Trans-Xəzər marşrutu da vacibdir", - deyə o əlavə edib.

Çin və Qloballaşma Mərkəzinin təsisçisi və prezidenti deyib: "Bildiyiniz kimi, Çin çox yaxşı addımlar atır ki, maneələr azalsın, bağlantılar mümkün olsun. Ona görə bütün bu yaxşı nailiyyətlərin hamısı faydalıdır. Azərbaycan dost ölkədir. Mən Bakı forumlarında dəfələrlə iştirak etmişəm və əlbəttə ki, biz həmişə Azərbaycanın "yumşaq gücü"nə heyran olmuşuq".

**Moderator:** ***- Ötən ilin avqust ayında Siz Ermənistanın Baş naziri və ABŞ Prezidenti ilə Birgə Bəyannaməyə imza atdınız. Orada "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" qeyd olunur. Bu, "TRIPP layihəsi" adlanır. Beləliklə, istərdim Sizdən soruşum, bu layihə geniş Trans-Xəzər əməkdaşlıq çərçivəsinə necə uyğundur? Bu məqamda həmçinin Ermənistanla sülh prosesinin mərhələsi ilə bağlı sual verməyə bilmərəm. Bağlantı layihəsi etimadın qurulması tədbiri kimi hansı rol oynayır? Daha sadə desək, bu il Siz sülh sazişini imzalayacaqsınızmı?***

**Prezident İlham ƏLİYEV:** - Ümid edirəm ki, biz bu il sülh müqaviləsini imzalayacağıq. Mən bu haqda artıq dəfələrlə danışmışam və bildirmişəm ki, sülh sazişinin Ağ Evdə ABŞ Prezidentinin iştirakı ilə paraflanması, Ermənistanın Baş naziri və öz tərəfimdən, Prezident Trampın da şahid qismində bəyannamənin imzalanması söyləməyə əsas verir ki, sülh artıq əldə olunub. Avqustdan bəri biz nəinki sərhədimizdə tamamilə yeni vəziyyət yaratmışıq, o cümlədən orada artıq nə atışma, nə ölənlər, nə yaralananlar, nə də ki, problemlər müşahidə olunur. Bununla bərabər, biz Ermənistanla fiziki əməkdaşlığa da başlamışıq. Azərbaycandan keçən yüklərin daşınmasında bütün məhdudiyyətləri götürmüşük. Biz gürcü dostlarımıza minnətdarıq ki, onlar Azərbaycana daxil olan yüklərin Gürcüstan vasitəsilə çox mühüm tranzitini təmin edirlər. Biz həmçinin Ermənistan üçün çox mühüm olan neft məhsullarının təchizatına başlamışıq.

Beləliklə, qarşılıqlı ticarət, əslində, başlayıb. Yəni imzalanacaq rəsmi sülh sazişi baxımından hər şey Azərbaycana qarşı üç onillik ərzində mövcud olan ərazi iddiasının Ermənistan konstitusiyasından çıxarılmasını nəzərdə tutan dəyişiklikdən asılıdır. O, baş verdikdən sonra növbəti gün sülh sazişi rəsmən imzalanacaq. Bununla belə, yeni bağlantıların yaradılmasında mühüm rol oynayacaq Trampın "Beynəlxalq Sülh və Rifah Marşrutu" tamamilə yeni vəziyyət yaradacaq. Çünki qeyd etdiyim kimi, Çindən başlayan daşımalar Mərkəzi Asiya, Trans-Xəzər regionu, Azərbaycan, Ermənistan, eksklav Naxçıvan, Türkiyə və sonra Avropanı əhatə edəcək. Bu, bütün ölkələr üçün faydalı olacaq. Marşrut boyunca bütün ölkələr həm siyasi, həm iqtisadi baxımdan daha sıx inteqrasiya olunacaq və həmin addım Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və əbədi sülhə növbəti töhfə olacaq. Çünki sülh həqiqi sülh prosesi getdikdə əldə oluna bilər. Sənədin imzalanması vacibdir. O bünövrədir. Lakin sonra gördüyünüz işlərin də əhəmiyyəti heç də az deyil.

Azərbaycan ilə Ermənistan arasında sonuncu qanlı toqquşmadan Vaşinqton sammitinə qədər çəkən müddət iki ildən az olub. Düşünürəm ki, bütün münaqişələri, xüsusən də üç onillik çəkən münaqişələri götürsək, bu, rekord göstəricidir. Bir sözlə, hər iki tərəf güclü siyasi iradə göstərdi ki, toqquşmaya son qoyulsun və sülh səhifəsi açılsın. Biz cəmi altı aydır ki, sülh içində yaşayırıq və inanın ki, bu, çox xüsusi hissdir, çox yaxşı hissdir və Azərbaycan əhalisi bunları bölüşür. Əminəm ki, Ermənistan əhalisi də. Bağlantı layihələri və dəhlizləri bizi daha sıx birləşdirəcək, bir-birimizdən daha asılı edəcək, Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaradacaq və bu halda Azərbaycan, Gürcüstan və Ermənistan üçtərəfli qaydada, nəhayət, qarşılıqlı fəaliyyətə başlayacaqlar.

❖❖❖

Növbəti suala cavab verən Avropa Komissiyasının Genişlənmə üzrə komissarı **Marta KOS deyib:** "Bizim Azərbaycan, Ermənistan və Türkiyə üçün gündəlikdə olan konkret layihələrimiz tərtib edilib. Siz TRIPP layihəsi haqqında danışdınız, onu da prioritet hesab edirik. O, cəmi 42 kilometri əhatə edir və nəinki TRIPP layihəsini həyata keçirmək, həmçinin digər layihələri də həyata keçirərik. Belə olmasa onun əhəmiyyəti olmaz. Məsələn, Naxçıvandan dəmir yolu vasitəsilə yeni çıxışın əldə edilməsi, həmçinin bu da bütün təsisatları maraqlandıran bir məsələdir. Hesab edirəm ki, özəl sektor da bu əsaslar üzrə təkliflərlə çıxış edə biləcək".

"Bilirsiniz, bəzi hallarda Avropa İttifaqında qərarların qəbul edilməsi prosesi o qədər də asan deyil. Lakin bu dövrdə Naxçıvan istiqamətində TRIPP layihəsinin həyata keçirilməsi bütövlükdə şəraiti dəyişəcək, daha sonra isə Türkiyəyə çıxış əldə olunacaq", - deyə o vurğulayıb.

Moderatorun 15 il sonra yüklərin həcm baxımından Orta dəhlizin Şimal marşrutunu üstələyə biləcəyi ilə bağlı sualına cavabında **Vanq HUİYAO deyib:** "Mənə elə gəlir ki, bütün tərəflər rifah əldə edəcəkdir. Mərkəzi Asiyadakı ölkələr də çox sürətlə inkişaf edir. Çin isə onların bir qonşusu olaraq ümumi daxili məhsulu da artırmaqdadır. Ticarət daha da arta bilər. Düşünürəm ki, yeni dəhlizlər əlavə fəaliyyətlərə təkan verəcək. Ona görə düşünürəm ki, bu dəyərlidir, səmərəlidir və bəlkə də növbəti orta bir dəhliz layihəsi meydana çıxacaq. Mən kifayət qədər nikbin baxıram. Ticarət, iqtisadi əlaqələr və turizm - bütün bu sahələr çox zəruri hesab ediləcək. Əslində, biz turizmi daha yeni marşrutlar vasitəsilə inkişaf etdirə bilərik. Tutaq ki, siz Çinə səfər etdikdə müxtəlif marşrutlardan istifadə edə bilərsiniz. Burada dəmir yolu bağlantısı nəzərdə tutula bilər. Düşünürəm ki, bu, bizə daha çox imkanlar yaradacaq və cənab Prezidentin söylədiyi kimi, bizə sabitlik və dayanıqlı sülh lazımdır. Belə olan halda daha çox iqtisadi təmaslar qurulacaq. İstənilən bu və ya digər marşrut faydalı olacaq. Ən vacibi odur ki, iqtisadi baxımdan təcrübə toplansın".



❖❖❖

Sonra panel iştirakçıları sualları cavablandırıblar.

**Sual:** - *Təşəkkür edirəm. Belə bir maraqlı söhbətə görə minnətdaram. Mən Türkiyənin millət vəkiliyəm və həmçinin gənc liderlər sırasındayam. Orta dəhlizin gələcəyi daha çox ABŞ-nin maraqlarından asılıdır. Biz ötən ildən etibarən görürük ki, ABŞ-nin maraqları yeni administrasiya vasitəsilə xeyli dəyişir. Birincisi, bu Orta dəhliz hansı dəyişikliklər gətirəcəkdir və İranın gələcəkdə buna təsiri necə ola bilər?*

**Prezident İlham ƏLİYEV:** - Düşünürəm ki, TRIPP-ın Prezident Trampın adını daşıması faktı o deməkdir ki, bu dəhliz bu administrasiya üçün və bəlkə də bu administrasiyanın müddətindən sonra da vacib olacaq. Əks halda Prezident öz adını verməzdi. Adın verilməsi onun həyata keçiriləcəyi deməkdir və ad təsdiqləndikdən sonra biz tamamilə əminik ki, Birləşmiş Ştatlar bunun bir hissəsi olacaq.

Hazırda əlimizdə olan məlumata görə, ABŞ ilə Ermənistan fiziki tikinti və investisiya hüququna malik olacaq şirkətin fəaliyyət parametrlərini müzakirə edirlər. Bu, artıq açıq mənbələrdən götürülüb. Biz bilirik ki, şirkətin 76 faizi ilk 49 il ərzində ABŞ-yə, 24 faizi isə Ermənistana məxsus olacaq, sonra isə daha 49 il olacaq. Başqa sözlə, bu format bir əsr ərzində işlək olacaq.

İkincisi, düzgün qeyd etdiyiniz kimi, Amerika administrasiyasından regionumuzdakı bağlantı layihələrinə fərqli yanaşmalar olub və yalnız Prezident Tramp hakimiyyətə gələndə biz böyük bir maraq görməyə başladıq. Başqa sözlə, region ölkələri, Azərbaycan, Gürcüstan, Xəzərin o tayında Mərkəzi Asiyadakı qonşularımız tərəfindən görülən bütün işlər Amerikanın heç bir praktiki iştirakı olmadan həyata keçirilib. Beləliklə, biz bunu Türkiyə ilə birlikdə özümüz etdik. Biz Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçən neft kəmərini, Avropaya uzanan qaz kəmərini, Bakı-Tbilisi-Qars dəmir yolunu qeyd edə bilərik ki, bunların hamısı Amerikanın heç bir praktiki iştirakı olmadan həyata keçirilib. Beləliklə, biz bunu özümüz etdik. Bu gün Prezident Tramp administrasiyasının diqqətini cəmləşdirdiyi böyük bir resursa sahib olduğumuz halda, əlbəttə ki, bu genişmiqyaslı layihələrin həyata keçirilməsi potensialı daha böyükdür.

Bir məqamı da vurğulamaq istəyirəm, biz region ölkələri haqqında danışdıq və Xəzər dənizinin o tayında Mərkəzi Asiyadakı qonşularımızı unutmamalıyıq. Çünki onlar olmadan Çindən Avropaya heç bir yük daşımaq mümkün olmayacaq. Beləliklə, Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Avropa - coğrafiya budur və Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə çox fəal qarşılıqlı əlaqədədir. Ötən ilin noyabrında Azərbaycan rəsmi olaraq Mərkəzi Asiya beşliyinə daxil edildi, Mərkəzi Asiya beşliyi altılığa çevrildi. Bu, misli görünməmiş bir hadisədir, çünki biz Cənubi Qafqaz ölkəsiyik, amma Mərkəzi Asiya Məşvərət Şurasının üzvüyük.

Biz bağlantı sahəsində çox işlər görürük, Mərkəzi Asiya ölkələri ilə Çin arasında da bağlantı sahəsində çox işlər görülür. Xanım Helqanın vurğuladığı mövcud yollarla yanaşı, Çin tərəfindən tikilməkdə olan və maliyyələşdirilən başqa bir yol da var - Xəzərə aparan daha bir yol. Çindən Qazaxıstan vasitəsilə Xəzərə uzanan mövcud yoldan əlavə olaraq. Çin hazırda Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Xəzər yolunu maliyyələşdirir. Yenə də yol Xəzər dənizinə gedir. Bu o deməkdir ki, o, Azərbaycana və sonra Cənubi Qafqazdan keçərək Avropaya çatacaq. Beləliklə, xeyli geosiyasət, xeyli beynəlxalq münasibətlər, xeyli diplomatiya həyata keçirilir. Azərbaycan bir çox ölkələrin marşrutu boyunca keçən, hamısı ilə yaxşı münasibətlər quraraq Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir. Beləliklə, bu, Avrasiyanın çox geniş coğrafiyasında əməkdaşlıq üçün daha bir çox güclü siyasi zəmanət olacaq.

❖❖❖

Şirkətlərin cəlb olunmasının, siyasi iştirakçıların fəal rolunun, tərəfdaşlar arasında etimadın qurulmasının, yeni marşrutların İran istiqamətində açılmasının və Türkiyə tərəfindən dəmir yolu layihələrinə hazırlıq göstərilməsinin bütövlükdə imkanların genişlənməsinə xidmət etdiyini bildirən **Marta KOS** əlavə edib: "Əsrlər keçir, lakin biz bu dəyişikliklər haqqında indidən düşünməliyik. Bəlkə də bizə keçmişdə bu, inanılmaz görünürdü, lakin gələcək üçün yollar açılır və region liderləri bunu anlayırlar ki, biz bundan necə faydalana bilərik, Avropa necə faydalana bilər və bu baxımdan, əlbəttə ki, Azərbaycan üçün də bu faydalıdır. Bu, belə də olmalıdır. Bu, Avropa üçün yaxşıdır, çünki Çinə daha yaxşı çıxış əldə olunacaq. Bu çıxış Mərkəzi Asiya vasitəsilə təmin ediləcək. Bütün bu münaqişələrin və geosiyasi çağırışların həlli asan məsələ deyil".

**Vanq HUİYAO** isə deyib: "Cənab Prezidentin qeyd etdiyi həmin marşruta gəldikdə düşünürəm ki, Çin hazırda Mərkəzi Asiya ölkələrinə yardım göstərir və Qafqaz vasitəsilə Türkiyəyə çıxışın əldə edilməsi planlaşdırılır. Burada sırf həmin marşrut yox, həmçinin energetika sahəsində əməkdaşlıq nəzərdə tutulur. Təbii ki, bunun nəticəsində istehsal daha da inkişaf edə bilər, sərmayələr cəlb olunar. Bir sözlə, bu, yaxşı bir nümunədir. Düşünürük ki, bunun artıq dayanıqlı bir infrastrukturu mövcuddur".

**Sual:** - *Təşəkkür edirəm. Mənim adım Stepan Safaryandır. Mən Ermənistandan gələn Münxen gənc liderlər qrupunun üzvüyəm. Cənab Prezident, sual verməzdən əvvəl qeyd edim ki, haqqında danışdığınız və bəzi narahatlıqlarınızı ifadə etdiyiniz Ermənistanın müstəqillik bəyannaməsinin müddəası effektiv deyil. Sizin administrasiyanız, təkcə administrasiyanız deyil, digər hökumətlər də Konstitusiya Məhkəməsinin bu məsələ ilə bağlı qərarı ilə kifayət qədər yaxşı tanışdırlar. Hazırda Ermənistanda aparılan Konstitusiya dəyişikliklərinin bu iddialar və qorxularla heç bir əlaqəsi yoxdur. Lakin icazə verin, Sizə ötən il avqustun 8-də Vaşinqtonda imzalanmış təşəbbüsdən əvvəl Baydenin administrasiyası dövründə imzalanmış digər mühüm təşəbbüsü xatırladım. Söhbət "Sülh yolu kəsişməsi" təşəbbüsündən gedir və komissar tamamilə haqlıdır. TRIPP təxminən 42 kilometrdir. Lakin bu təşəbbüs - "Sülh yolu kəsişməsi" bütün təşəbbüslərin, bağlantı təşəbbüslərinin nizamlanması baxımından olduqca maraqlı bir təşəbbüsdür. İstər İpək yolu, istər "Bir kəmər və yol", istər Trans-Xəzər dəhlizi, istərsə də Körfəz-Qara dəniz dəhlizi olsun. Buna görə də o, çox inklüzivdir. Gürcüstanı və regiondakı digər ölkələri əhatə edir. Bəs Sizin bu, çox mühüm məqama münasibətiniz necədir? Bu layihəni bu dinamikaya nə gətirir, xüsusən də onun Vaşinqtondakı hər iki administrasiya tərəfindən uzun müddətə, təkcə dördillik müddətə deyil, yüz il və hətta daha çox müddətə dəstəkləndiyini nəzərə alsaq. Təşəkkür edirəm.*

**Prezident İlham ƏLİYEV:** - Ermənistan Konstitusiyasının hüquqi məsələsinə gəldikdə çox təfərrüatlara varmaq istəməzdim. Amma sizin şərhiniz məni, sadəcə, onu deməyə məcbur etdi ki, Azərbaycana birbaşa ərazi iddiasını ehtiva edən Ermənistanın müstəqillik bəyannaməsi sizin Konstitusiyanızın bir hissəsidir və bəli, Konstitusiyanın preambula hissəsindədir. Gəlin indi tədbiri bitirməzdən əvvəl Vikipediyadan yoxlayaq. Konstitusiya Məhkəməsinin heç bir qərarı Konstitusiyadan üstün deyil. Mən hüquqşünas deyiləm, lakin hətta mən də bunu bilirəm. Buna görə də Ermənistan Konstitusiyasından müstəqillik bəyannaməsinin çıxarılması sülh müqaviləsinin imzalanması üçün yeganə qalan ilkin şərtdir. Düşünürəm ki, Ermənistan və Azərbaycan rəhbərlikləri arasında hansı addımların atılması və bunların hansı ardıcıllıqla edilməsi barədə xeyli anlaşma var. "Sülh yolu kəsişməsi"nə gəlincə, bilirsiniz, Prezident Tramp yenidən hakimiyyətə qayıdanda o, TRIPP layihəsinə start verdi. Odur ki, Prezident Bayden qayıdanda sizin "Sülh yolu kəsişməsi" layihəsini yenidən başladar.

❖❖❖

Monqolustanın nümayəndəsinin 14-16 ölkənin sərhədindən keçən marşrutlarda gömrük prosedurlarının sadələşdirilməsi, tranzitin səmərəliliyini artırmaq üçün hansı real addımların atılması və bu prosesdə Dünya Bankı ilə Avropa Yenidənqurma və İnkişaf Bankının oynaya biləcəyi fəal rolla bağlı sualına cavabında **Marta KOS** deyib: "Düşünürəm ki, bütün nazirlər bu istiqamətdə addım atmalıdırlar, hökumətlər işləməlidir və bütün ölkələr, o cümlədən Avropa İttifaqının 27 ölkəsi, Azərbaycan, Ermənistan, Türkiyə, Mərkəzi Asiya dövlətləri düşünməlidir ki, biz həmin maneələri aradan qaldırmaq üçün nə etməliyik? Necə çalışmalıyıq ki, bu işlər beynəlxalq səviyyədə qarşılıqlı şəkildə görülsün. Ona görə belə bir platforma olarsa, biz nəinki hökumət rəsmiləri arasında, o cümlədən biznes strukturları və təsisatlar arasında qarşılıqlı əlaqəni yarada biləcəyik. Əgər biz buna müvəffəq olsaq, işlər daha asan şəkildə gedəcək və beləliklə, biz həmin maneələri çox rahat şəkildə aradan qaldıracağıq".

**Sual:** - ***Rusiya hücumları təkcə Ukraynanın enerji infrastrukturunu hədəfə almır. Eyni zamanda Ukraynada Azərbaycan şirkətlərinə məxsus olan enerji obyektləri hücuma məruz qalır. Beləliklə, mənim sualım belədir, Siz bu məsələni şəxsən Putin qarşısında qaldırmısınız və bu hücumları necə görürsünüz? Bu, Bakı üçün bir siqnaldırmı və ya başqa cür desək, sizin Rusiya ilə münasibətlərinizdə nə baş verir?***

**Prezident İlham ƏLİYEV:** - Əlbəttə ki, bu məsələ Xarici İşlər nazirlikləri və Prezident administrasiyaları səviyyəsində rəsmilərimiz arasında çoxsaylı təmaslar zamanı dəfələrlə qaldırılmışdır. Ukraynada təkcə Azərbaycanın enerji infrastrukturuna hücumlar olmayıb. Eyni zamanda Azərbaycanın Ukraynadakı səfirliyi üç dəfə hücuma məruz qalıb.

Birinci hücumdan sonra biz düşündük ki, bu, təsadüfən baş verib və rusiyalı həmkarlarımıza Azərbaycanın diplomatik nümayəndəliklərinin, o cümlədən konsulluq idarəsinin, mədəniyyət mərkəzlərinin və səfirliyimizin bütün koordinatlarını təqdim etdik. Bütün bunlara baxmayaraq, iki əlavə hücum oldu. Beləliklə, bu, Azərbaycanın diplomatik nümayəndəliyinə qəsdən edilmiş bir hücum idi və biz xüsusi bəyanat yaydıq, Rusiya səfiri dəvət olundu və ona diplomatik nota verildi. Biz yalnız diplomatik yolla hərəkət edirik. Bundan başqa heç nə edə bilmərik. Lakin, əlbəttə ki, bu hərəkətlər Azərbaycana qarşı dostyana hərəkət hesab edilmir. Mən sizin sualınızı başa düşürəm və sadəcə, sizə məlumat vermək istəyirəm ki, Azərbaycan hökuməti tərəfindən bütün zəruri diplomatik addımlar atılıb.

❖❖❖

**Moderator:** - Bununla da biz gəlib sona çatdıq. Düşünürəm ki, çox maraqlı panel sessiyamız oldu, çox maraqlı və güclü mesajlar verildi. İndi bütün auditoriyadan xahiş edərdim ki, iştirakçılarımızı bir daha salamlayaq.

# Prezident İlham Əliyev Münxendə "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkəmizlə şirkət arasında 2010-cu ildən bəri həyata keçirilən uğurlu tərəfdaşlığa toxunuldu, əlaqələrin mövcud vəziyyəti müzakirə olundu.

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə ölkəmizlə "The Goldman Sachs Group Inc." arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "The Goldman Sachs Group Inc." şirkətinin uğurlu tərəfdaşlığının əhəmiyyəti vurğulandı.

Qeyd edək ki, mənzil-qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən "The Goldman Sachs Group Inc." 1869-cu ildə təsis edilib. Şirkət investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində çalışan dünyanın aparıcı qlobal maliyyə institutlarından biridir və hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. O, müxtəlif siniflər üzrə 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.



◆ Azərbaycan Prezidenti
İlham Əliyevin Serbiyaya rəsmi səfəri

# Serbiya və Azərbaycan - iki dost ölkə daim bir-birinin yanındadır

## Belqradın Nikola Tesla Hava Limanında qarşılanma





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Serbiya Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Belqrad şəhərinin Nikola Tesla Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qarşıladı.

## Prezident İlham Əliyevin Belqradda rəsmi qarşılanma mərasimi olub



**Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiyanın paytaxtı Belqradda rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Serbiyanın Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Serbiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycanın dövlət və hökumət nümayəndələri isə Prezident Aleksandar Vuçiçə təqdim edildi.



## Azərbaycan və Serbiya prezidentlərinin Belqradda təkbətək görüşü

Fevralın 15-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü keçirilib.



## Prezident İlham Əliyev Belqradda Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət edib










Serbiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 15-də Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı abidələrin önünə əklil qoydu.

## Belqradda Azərbaycan və Serbiya arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası keçirilib

**Fevralın 15-də Belqradda Azərbaycan Prezidenti İlham Əliyevin və Serbiya Prezidenti Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Serbiya Respublikasının Prezidenti çıxış etdi.

### Prezident Aleksandar Vuçiçin çıxışı

- Hörmətli Prezident, əziz dostum, cənab İlham Əliyev!

Hörmətli Azərbaycan hökumətinin nazirləri və Serbiya hökumətinin nazirləri!

Xanımlar və cənablar, əziz dostlar!

Serbiya Respublikası və Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının ilk iclasını açmaqdan şərəf hissi duyuram. Bu gün keçirilən görüşün və şura iclasının xüsusi rəmzi əhəmiyyəti var. Çünki o, Serbiya Respublikasının ən mühüm milli bayramı günündə - Dövlətçilik Günündə keçirilir və bu tarixi biz ən yaxın dostlarımızla - Prezident İlham Əliyevlə və Azərbaycandan gəlmiş qonaqlarımızla qeyd edirik.

Bu iclas ikitərəfli münasibətlərimizdə dönüş nöqtəsidir və ölkələrimiz arasında münasibətlərin ən yüksək strateji səviyyəyə qaldırılması üçün birgə siyasi iradənin bariz nümunəsidir. İcazənizlə xatırladım ki, bu şura əziz dostum, Prezident İlham Əliyevlə formalaşdırdığımız birgə mövqedən və razılaşmadan qaynaqlanır. Serbiya Respublikası yalnız az sayda ölkələrlə bu cür formatda görüşlər keçirir.

İcazə verin, xüsusi olaraq bildirim ki, Prezident Əliyevin, o cümlədən Azərbaycan Respublikası və Serbiya Respublikası hökumətlərinin yüksəksəviyyəli rəsmilərinin və nazirlərin burada olması bu şuraya hər iki tərəfin verdiyi əhəmiyyəti aydın şəkildə göstərir. Əminəm ki, bu gün gördüyümüz iş konkret nəticələrə, aydın razılaşmalara və uzunmüddətli əməkdaşlığa aid mövqeyə əsaslanır. Mən giriş nitqimi çox qısa edəcəyəm və xahiş edirəm ki, Serbiyanın nazirləri də eyni yanaşma göstərsinlər, çünki biz mətbuata bəyanat mərasiminə yubana bilmərik. Xahiş edirəm, həmin reqlamentə uyğun olaq. Mən, sadəcə, bir neçə məsələni əlavə etmək istərdim.

Əziz dostum cənab Prezident və Azərbaycandan gəlmiş hörmətli dostlar, biz dost ölkə Azərbaycanla ən yaxşı strateji tərəfdaşlığı inkişaf etdirməkdə olduqca israrlıyıq. Biz bu məqsədə doğru gedəcəyik. Bu o deməkdir ki, biz müxtəlif sahələrdə münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün ürəkdən çalışacağıq. Dostlara gəldikdə, qarşımıza çətinliklər çıxanda, bəzi məsələlərlə üzləşəndə biz hər zaman onları birlikdə həll edə bilirik. Bu, hər zaman belə olacaq. Arzu edirik ki, dostluq, daha yaxşı münasibətlərin qurulması, qarşılıqlı əlaqələr daha sürətlə və intensiv inkişaf etsin.

Yaxın zamanlarda Belqrad və Bakı arasında birbaşa uçuşları açacağıq və aramızdakı təmaslar əvvəlki dövrlə müqayisədə daha sıx olacaq. Eyni zamanda mədəniyyət, idman, iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, hərbi-texniki əməkdaşlıq kimi müxtəlif sahələrə gəldikdə, tam əminəm ki, bizim əlaqələr dünyanın istənilən iki ölkəsi arasında mümkün münasibətlərlə müqayisədə daha genişdir. Sadəcə, bir məsələni də əlavə etmək istəyirəm, mən əziz dostum İlham Əliyevdən çox şeyi öyrənirəm, nəinki bu gün, həmçinin digər vaxtlarda. Elə bu səbəbdən bu gün həmin məqsədlə daha çox vaxt sərf etdim. Mən gələcəkdə də belə edəcəyəm. Bilirəm ki, o, çox sədaqətli dostdur. Bilirəm ki, biz Azərbaycandan çox yaxşı işlər gözləyə bilərik və inanıram ki, Azərbaycan xalqı hər zaman Serbiyadan və Serbiya xalqından yalnız yaxşı işləri gözləyə bilər. Serbiya nazirlərindən xahiş edərdim ki, onlar azərbaycanlı tərəfdaşlarımız kimi ürəkdən çalışsınlar. Sizə işinizdə uğurlar arzu edirəm.

Mən yaxın vaxtlarda Azərbaycana səfər edəcəyəm. Bundan əvvəl biz çox nəticələr əldə etməliyik. Mən və nazir Dubravka Prezident Əliyevlə qazla işləyən elektrik enerjisi stansiyası məsələsini müzakirə etdim. Prezidentdən xahiş edirəm ki, bu məsələ ilə şəxsən məşğul olsun, çünki mən edə biləcəyimiz və bilməyəcəyimiz işlər barədə çox səmimi danışdım. Prezident Əliyevdən zəmanət aldım ki, o, şəxsən bu məsələdə bizə böyük kömək göstərəcək. Texniki əsaslandırma işləri başa çatdıqdan sonra biz bütün digər prosesləri sürətləndirməliyik.

Azərbaycandan gəlmiş əziz dostlar, Serbiyada özünüzü evdəki kimi hiss edin. Xoş gəlmisiniz. Hörmətli Prezident, mən Sizə, ailənizə, xalqınıza ən xoş arzularımı çatdırıram. Ümidvaram ki, Sizi yenidən mümkün qədər tez qəbul edəcəyəm. Daha çox görüşlər olmalıdır. Çox sağ olun və Serbiyaya xoş gəlmisiniz. Sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycan Respublikasının Prezidenti çıxış etdi.

*Ardı 5-ci səh.*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri

# Serbiya və Azərbaycan - iki dost ölkə daim bir-birinin yanındadır

## Belqradda Azərbaycan və Serbiya arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası keçirilib

Əvvəli 4-cü səh.

### Prezident İlham Əliyevin çıxışı

- Təşəkkür edirəm. Hörmətli cənab Prezident, əziz dostlar. İlk növbədə dəvətə görə təşəkkür edirəm. Yenidən Serbiyada olmaqdan çox şadam. Həmçinin təkcə bazar günü deyil, həm də milli bayram günündə mənə vaxt ayırdığına görə dostum Aleksandara minnətdaram. Yeri gəlmişkən, Dövlətçilik Gününüzü təbrik edirəm.

Bunun özü də aramızdakı səmimiyyətin səviyyəsini nümayiş etdirir ki, dostluğumuz haqqında və əməkdaşlığımızı necə gücləndirəcəyimiz barədə danışarkən heç bir sərhədimiz, vaxt məhdudiyyətimiz, heç bir şübhəmiz yoxdur.

Dostum Prezidentlə geniş müzakirələr apardım. Həmişə olduğu kimi, onun bugünkü geosiyasi hadisələrin inkişafının müxtəlif aspektləri ilə bağlı baxışı, bilik və təcrübəsi məndə güclü təəssürat yaratdı. Balkanlarda, Cənubi Qafqazda və daha geniş regionda vəziyyət çox sürətlə inkişaf edir, bir çox gözlənilməz ssenarilər mövcuddur. Ona görə də fikir mübadiləsi, məlumat mübadiləsi aparmaq, baş verənlərlə bağlı müəyyən təhlillər etmək üçün hazır və daimi əlaqədə olmalıyıq ki, hədəfimizə maksimum dərəcədə çataq.

Yeri gəlmişkən, bu gün Dövlətçilik Günüdür, dövlətçilik haqqında düşündüyümüz bir gündür. Serbiya xalqını və Prezidentini Serbiya dövlətçiliyinin möhkəmləndirilməsindəki nailiyyətləri münasibətilə təbrik etmək istəyirəm. Ölkə Prezidentin rəhbərliyi ilə uğurla inkişaf edir, dövlətçiliyini, dövlət qurumlarını gücləndirir. Biz bunu müşahidə etməkdən çox şadıq, çünki Azərbaycan və Serbiya çox dost ölkələrdir. Strateji Şuranın bugünkü ilk iclası da qərar verilmiş və razılaşdırılmış məsələlərin həyata keçirildiyinin bariz bir nümunəsidir. Bu gün hökumət üzvlərinin demək olar ki, yarısı məni müşayiət edir. Bu özü də onu göstərir ki, nümayəndə heyətlərinin üzvləri arasında, hamımızın arasında müzakirə ediləcək çoxlu məsələlər var. Dostum Aleksandarın Azərbaycana bu il tezliklə baş tutacaq səfərindən əvvəl bugünkü səfərin nəticələrini artıq əldə etməliyik. Mən Azərbaycan nümayəndə heyətinin bütün üzvlərindən xahiş edirəm, buna maksimum dərəcədə ciddi yanaşsınlar ki, həmişə olduğu kimi, razılaşdıqlarımızı nisbətən qısa müddət ərzində həyata keçirək.



Aleksandar artıq tərəfdaşlıq sahələrini müəyyən etdi. Gündəliyə və bugünkü iclasımızın gündəliyinə və müvafiq nazirlər tərəfindən təqdimatlara baxsaq görərik ki, gündəlik genişlənir. Biz təkcə siyasi istiqamətdə, beynəlxalq arenada sıx işləmirik, eyni zamanda iqtisadiyyatlarımız, sənayelərimiz üçün vacib layihələr icra edirik. Prezident Vuçiç elektrik stansiyasının tikintisini qeyd etdi. Hesab edirəm ki, bu, bizim enerji sektorunda əməkdaşlığımızı necə şaxələndirdiyimizin vacib göstəricisidir. Biz qaz əməkdaşlığından başladıq, indi isə növbəti mərhələyə - bu qazın yekun məhsul olan elektrik enerjisinə çevrilməsi məqsədilə hər iki tərəf üçün maksimal səmərəliliklə necə istifadə olunmasına keçid edirik. Bu, Azərbaycanın son illərdə Avropaya əsas investisiya qoyuluşlarından biri olacaq. Bu, həmçinin yüksəksəviyyəli qarşılıqlı etimadı nümayiş etdirir. Çünki siz yalnız yaxşı münasibətlərinizin olduğu ölkəyə və tərəfdaşlarınıza etibar etdikdə investisiya yatırırsınız. Siz Aleksandar Vuçiçin müdrik rəhbərliyi ilə Serbiyada sabitliyin və inkişafın uzun müddət ərzində vacib amil olacağını bilirsiniz. Mətbuata bəyanatla çıxış etmək üçün orada vaxtında olmağımızı nəzərə alaraq, mən də qeydlərimi artıq dediklərimlə məhdudlaşdırmaq istəyirəm. Həmçinin heyətlərimizə öz təqdimatları ilə çıxış etmək imkanını da vermək istəyirəm. Qonaqpərvərliyiniz və dəvətiniz üçün bir daha çox sağ olun.

❖ ❖ ❖

İclasda hökumətlərarası komissiyaların sədrləri və digər aidiyyəti nazirlər məruzələrlə çıxış etdilər.

Azərbaycanla Serbiya arasında energetika, investisiyalar, bərpaolunan enerji, turizm, kənd təsərrüfatı, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlət başçıları bu istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi, konkret layihələrin təqdim olunması ilə əlaqədar tapşırıqlar verdilər.

Bakı-Belqrad aviareyslərinin bu ilin mayından başlayacağı məmnunluqla qeyd olundu, bunun ölkələrimiz arasında humanitar təmasların və turizmin inkişafına töhfə verəcəyinə ümidvarlıq bildirildi.

Sonra prezidentlər İlham Əliyev və Aleksandar Vuçiç Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının qərarını imzaladılar.

## Azərbaycan-Serbiya sənədləri mübadilə olunub





**Fevralın 15-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan-Serbiya sənədlərinin mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın maliyyə naziri Sahil Babayev və Serbiyanın kənd təsərrüfatı, meşəçilik və su təsərrüfatı naziri Draqan Qlamoçiç mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz-turbin elektrik stansiyasının layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Serbiyanın mədən və energetika naziri xanım Dubravka Djedoviç mübadilə etdilər.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Serbiya Respublikasının İqtisadiyyat Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Serbiya Baş nazirinin birinci müavini, iqtisadiyyat naziri xanım Adriyana Mesaroviç mübadilə etdilər.

"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Serbiya Respublikasının İnformasiya və Telekommunikasiya Nazirliyi arasında media və kommunikasiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın maliyyə naziri Sahil Babayev və Serbiyanın informasiya və telekommunikasiya naziri Boris Bratina mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Serbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2026-2030-cu illər üçün mədəniyyət sahəsində Əməkdaşlıq Memorandumu"nu Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Serbiyanın mədəniyyət naziri Nikola Selakoviç mübadilə etdilər.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Serbiya Respublikasının İdman Nazirliyi arasında idman sahəsində Anlaşma Memorandumu"nu Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov və Serbiyanın idman naziri Zoran Qayiç mübadilə etdilər.

"Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Serbiya Respublikasının Milli Tibbi Sığorta Fondu arasında tibbi sığorta sistemləri sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasıyev və Serbiya Milli Tibbi Sığorta Fondunun direktoru xanım Saniyya Radojeviç mübadilə etdilər.

## Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər



**Fevralın 15-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Serbiya Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Aleksandar Vuçiçin bəyanatı

- Hörmətli Prezident Əliyev, əziz dostum!

Bu səfərə görə Sizə təşəkkür edirəm. Sizin iş qrafikinizin nə qədər vacib və sıx olduğunu bilirəm. Sizdən özünüzü evinizdəki kimi hiss etməyinizi rica edirəm.

Çinli dostlarımız deyirlər ki, belə yağış olanda, bu, böyük bir işin başlanılmasına hər zaman yaxşı işarədir. Ümidvaram ki, pis hava şəraitinə baxmayaraq, biz bu hadisəni özümüz üçün mümkün olan ən yaxşı şəkildə qəbul edəcəyik və həm Serbiyanın, həm də Azərbaycanın qarşısında necə parlaq gələcəyin olduğunu görəcəyik. Ən azından ikitərəfli münasibətlərimizdən söz açdıqda.

Mən Azərbaycan xalqına, şəxsən Sizə möhtərəm cənab Prezident, böyük ehtiramımı ifadə etmək istəyirəm. Həmçinin Serbiya xalqı qarşısında və əlbəttə, Azərbaycan xalqı qarşısında söyləmək istəyirəm ki, hər dəfə Sizinlə danışanda çox şey öyrənirəm, bir çox məsələləri təcrübəli dövlət xadimi, həqiqi liderin fərqli baxış bucağından müşahidə etməyə müvəffəq oluram. Buna görə hər zaman öz biliyinizi mənimlə paylaşdığınıza, mənim ölkəmin, rəhbərlik etdiyim ölkənin çox yaxşı mətləblər öyrənməli olduğu bizimlə belə əlaqələr qurduğunuza görə Sizə təşəkkür edirəm.

Bu gün Prezident Əliyevlə dünyadakı və Avropadakı bütün mühüm məsələlərlə bağlı danışdım. Biz bir-birimizlə məsləhətləşdik, mən ondan öyrəndim. Bəzi prosesləri özüm müşahidə etdiyimdən daha yaxşı, daha dərindən dərk etdim. Bizim elə əlaqələrimiz var ki, nə vaxt böhran baş versə, bir-birimizə açığıq və bir-birimizlə danışırıq. Bizim əməkdaşlığımız həyatın hər bir sahəsində inkişaf edir. 2012-ci illə müqayisədə xidmətlər sahəsində ticarət dövriyyəmiz əvvəlkindən 16 dəfə, 16 faiz deyil, 16 dəfə çoxdur. Həmçinin strateji tərəfdaşlıq sayəsində biz Azərbaycanla yeni əlaqələr, mümkün olan ən yaxın əlaqələr qurmuşuq. Mən hesab edirəm ki, bu, Serbiya Respublikası və onun vətəndaşları üçün olduqca vacibdir.



Bizim sosial həyatın müxtəlif sahələrində əməkdaşlığımız daha mühüm və daha böyük ola bilər və olmalıdır. Mən hesab edirəm ki, daha çox iş və səylərlə, bizim tərəfimizdən daha çalışqan yanaşma ilə gələcəkdə hətta daha yaxşı nəticələrə nail olacağıq. Bu vaxtadək biz 57 sənəd imzalamışıq və bunun üstünə bu gün imzalanmış onlarla digər sənədi də əlavə edə bilərik. Həmin sənədlər sosial həyatın bütün sahələrində münasibətlərimizin yaxşılaşdırılması üçün möhkəm zəmin rolunu oynamalıdır.

Biz sentyabr ayında Azərbaycanda keçiriləcək investisiya forumunda iştirakı müzakirə etdik və bundan əvvəl mən Azərbaycana səfər edəcəyəm. İnanıram ki, bu, bizim biznes dairələrimiz, bankçılarımız və nümayəndələrimiz üçün Azərbaycanı ziyarət etmək fürsətidir və bu da ölkəmiz üçün EXPO-nu təqdim etmək imkanı olacaq. Çünki həmin ərəfədə EXPO-nun keçirilməsinə bir neçə ay qalacaq. Bu tədbir Serbiyada 2027-ci ildə keçiriləcək ən böyük tədbirdir və bizim üçün ən önəmli tədbirdir. Biz "EXPO 2027"də iştirakını təsdiqlədiyi üçün Azərbaycana minnətdarıq və mən əminəm ki, onlar öz gözəl ölkələrini mümkün olan ən yaxşı şəkildə 2027-ci ildə burada - Belqradda təqdim edəcəklər.

Eyni zamanda diqqətinizi bəzi faktlara da yönəltmək istəyirəm. İki ölkə arasında turizmin artması və mayın 3-də Belqrad və Bakı arasında "Air Serbia" vasitəsilə həyata keçiriləcək birbaşa reysin açılması buna xüsusi töhfə verəcək. Mən Serbiyanın bütün vətəndaşlarına şəxsən deyə bilərəm ki, Bakı gözəl şəhərdir. Onlar orada bir çox yeniliklər görə bilərlər. Şəhər Xəzər dənizinin sahilində yerləşir. O, təmiz, səliqəli şəhərdir. Mən nə zaman Bakıya səfər edirəm, yeni möcüzələr görürəm, Prezident Əliyevin Azərbaycan hökuməti ilə bir yerdə inşa etdiyi yeni və gözəl yerləri görürəm. Orada möhtəşəm muzeylər var. Bulvarlar, mehriban insanlar, təhlükəsizlik mümkün olan ən yüksək səviyyədədir. Beləliklə, bu, Serbiya vətəndaşlarına Azərbaycana səfər etmək üçün açıq bir dəvətdir. Mən Azərbaycan vətəndaşlarını Serbiyanı ziyarət etməyə, bu ölkəni sevməyə dəvət etmək istəyirəm. Serbiya Avropa qitəsində təhlükəsizliyi ən yüksək səviyyədə olan ölkələr sırasındadır. Bizim Azərbaycan xalqı ilə qardaş və dost münasibətlərimiz var. Düşünürəm ki, ölkəmizdə ziyarət edə biləcəyiniz çox yer var. Mən təkcə Belqradı yox, digər şəhərləri, dağ istirahət mərkəzlərini, gölləri və digər yerləri nəzərdə tuturam.

Biz iqtisadi əməkdaşlıq, kənd təsərrüfatı, eləcə də kənd təsərrüfatı məhsullarının mübadiləsi haqqında danışdıq. Azərbaycanın Zirə kəndində yetişdirilmiş pomidor və xiyarı ilk dəfə dadanda və hətta bundan öncə Azərbaycanın xüsusi bölgəsi olan Naxçıvandan da məhsulların dadına baxanda onlar mənim çox xoşuma gəldi. Mən onları çox xoşlayıram və eşitmişəm ki, digər mənbələrdən daxil olan məhsulların qiyməti ilə müqayisədə Azərbaycan xeyli endirimlə təchiz edir. Mənə maraqlıdır, xalqımıza həmin məhsulları bu qədər aşağı qiymətlə təqdim etmək mümkündürmü?! Əgər hökumətdə əyləşən şəxslər bu haqda düşünməyiblərsə, düşünsünlər. Mən sizə müraciət edərək deyirəm ki, vətəndaşlara azərbaycanlı dostlarımızdan daha münasib qiymətlə keyfiyyətli malların təchiz olması məsələsini həll etsinlər. Eyni zamanda biz də öz mallarımızı beləcə təqdim etməliyik. Hələ ki, bu, baş vermir. Əminəm ki, biz, həmçinin Azərbaycana çox məhsullar təqdim edə bilərik. Lakin bunu hələ etməmişik və diqqətlə yanaşmamışıq. Münasibət belədir. Vaxt keçir, biz isə heç nə haqqında düşünmürük.

Ən mühüm mövzulardan biri də o faktla bağlıdır ki, qarşımızda elektrik enerjisi dövrü başlayıb. Mən Prezident Əliyevdən xahiş etdim ki, bu layihədə bizə yardım göstərmək üçün şəxsən iştirak etsin. Belə olarsa, biz işləri daha sürətlə bitirə bilərik. Burada insanlar düşünə bilər ki, elektrik enerjisi hələ 20 il əvvəl də var idi. Amma həmin vaxtlar siz qablarda yanacaq alırdınız. O zaman 6 saat ərzində elektrik enerjisi verilirdi, sonrakı 6 saatda enerji məhdudiyyətlərlə verilirdi. Bugünkü vəziyyətə gəldikdə, ölkəmizdə heç zaman olmadığı nizam-intizam yaranıb. Lakin eyni vəziyyət sabah olmaya da bilər. Elektrik enerjisi dövrü başlayır və bizə elektrik enerjisinin çox sayda mənbələri lazımdır. Daha çox elektrik enerjisi istehsal etməliyik. Azərbaycanın giqavatlarla ölçülən elektrik enerjisi olacaq. Lakin məsələ belədir ki, onun idxalı üçün lazımi ötürücü xətlər olacaqmı?! Biz Azərbaycan tərəfi ilə mühüm məsələlər üzərində razılığa gəldik. Bu gün Serbiyanın qaz şirkəti və SOCAR bu mövzuda söhbət aparıblar və əməkdaşlıq sazişi imzalanıb. Çalışacağıq hər bir məsələni iki və ya üç ay ərzində həll edək ki, dərhal sonra layihə sənədləri hazırlansın və tikinti başlanılsın. Tikinti iki ildən artıq çəkəcək. İnanırıq ki, biz 2029-cu ilə qədər qazla işləyən elektrik enerjisi stansiyasını açacağıq. Niş şəhərinin ətrafında üç yer seçilib.

Ardı 6-cı səh.

◆ Azərbaycan Prezidenti
İlham Əliyevin Serbiyaya rəsmi səfəri

# Serbiya və Azərbaycan - iki dost ölkə daim bir-birinin yanındadır

## Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər

*Əvvəli 5-ci səh.*





Söhbət təmiz enerjidən gedir. Avropa İttifaqı da bunu etiraf edir. Bir sözlə, tikintinin ya Tripale, Kruşti, ya da Nişka Banyada aparılması gözlənilir. Lakin düşünürəm ki, Kruşti ən münasibdir. Stansiyanın 500 meqavatlıq enerji istehsalı gücü olacaq. Prezident Əliyev mənə söz verdi ki, şəxsən həmin məsələ ilə məşğul olacaq. Bəlkə inanmayacaqsınız, lakin ikiillik müddətdə onlar 1890 meqavatlıq ümumi enerji istehsalı gücünü yarada biliblər.

Bəlkə də Azərbaycan xalqı bunu bilmir, həmin güclər mümkün qədər qısa müddətdə yaradılıb. Azərbaycan şirkətləri burada nəzarət işlərini həyata keçirəcək. Serbiya şirkətləri işlərə qoşulacaq. Hər iki tərəf 50 faizlə işləyəcək. Qazla işləyən 500 meqavatlıq elektrik enerjisi stansiyası tikiləcək. Bu, yaxşı nümunə olacaq. Gələcəkdə biz daha çox qazla işləyən elektrik enerjisi stansiyalarını tikməliyik. Kiçik modul tipli reaktorlar quraşdırılacaqdır. Məlumat mərkəzləri olacaq və digər məsələlər həll ediləcək. Mən amerikalılarla müzakirəyə başlamışam və əgər onlar Monteneqronun Bar limanından başlayaraq, neft və qaz kəmərlərini çəksələr, məlumat mərkəzlərini tiksələr, Priyepoledən Zlatibor dağlarından keçərək Belqrada qədər bu işləri icra etsələr, yaxşı olar. Məlumat mərkəzləri yaradılmalıdır. Süni intellektin imkanlarından istifadə etməsək, biz bir ölkə olaraq geridə qalacağıq. İlon Mask deyir ki, iki aydan sonra hər şey kəskin dəyişəcək. Sadəcə, insanlar bunu hələ görmür və bilmir. Bu səbəbdən, işlər sürətləndirilməlidir və biz azərbaycanlı dostlarımıza dəstəyə görə minnətdarıq.

Vaxtınızı çox aldıq. Biz hərbi-texniki əməkdaşlığı müzakirə etdik. Əməkdaşlıq yaxşı gedir. Xarici İşlər nazirliklərimiz səviyyəsində məsləhətləşmələr aparılır. Razılaşmalar və daimi dəstək göz qabağındadır. Hətta ən çətin məsələlərdə Serbiya Azərbaycanın tərəfində olub və onlar da bizə dəstək veriblər. Gələcəkdə də bu, belə olacaq. Biz çox ağır məsələləri həll etmişik. Biz Prezident Əliyevin sözlərinə tam inanırıq. Düşünürəm ki, o, həmçinin bizim ölkəyə eyni hisslərlə səmimi yanaşır. Biz bu münasibəti olduğu kimi davam etdirəcəyik. Bu gün və sabah əlavə müzakirələrimiz üçün imkan olacaq. Sabah işçi səhər yeməyimiz gözlənilir və çox məmnunam ki, dostum və Serbiyanın dostu Prezident Əliyevlə bu qədər vaxt keçirə bildik. Görürsünüz ki, bizim çeviklik məni hər zaman qane etmir. Biz daha ürəkdən çalışmalıyıq, hər şeyi sürətləndirməliyik. Əvvəlki dövrlə müqayisədə daha çox iş görə bilmişik və yaxşı nəticələr əldə etmişik. Mən Dövlətçilik Günü münasibətilə Serbiyanın hər bir vətəndaşını təbrik etmək istəyirəm. Bu gün Serbiya təqvimdəki ən vacib bayramlardan birini qeyd edir. Bu, bizim üçün böyük bayramdır. Sizin təbriklərə görə minnətdaram.

Hörmətli cənab Prezident, təşəkkür edirəm və səfərinizlə bizi şərəfləndirdiniz. İnanıram ki, birgə işimizlə Azərbaycan və Serbiya xalqlarının maraqları naminə ən yaxşı nəticələri əldə edəcəyik. Çox sağ olun. Yaşasın Serbiya-Azərbaycan dostluğu!

Hörmətli cənab Prezident, Sizə minnətdaram, evinizə xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, əziz dostum!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu gün Sizin milli bayramınızdır, Dövlətçilik Bayramıdır. Buna baxmayaraq, Siz Azərbaycan nümayəndə heyətini qəbul edirsiniz. Biz bunu yüksək münasibətlərin təzahürü kimi qiymətləndiririk. Serbiya və Azərbaycan - iki dost ölkə daim bir-birinin yanındadır.

Fürsətdən istifadə edərək, bir daha Sizi və bütün dost Serbiya xalqını Dövlətçilik Günü münasibətilə təbrik etmək istəyirəm. Bu bayramın belə adlandırılması təsadüfi deyil. Çünki bilirəm ki, Serbiya xalqı bütün dövrlərdə öz dövlət suverenliyinin qorunması və möhkəmləndirilməsi istiqamətində böyük səylər göstərmişdir, qurbanlar vermişdir. Siz də əziz dostum, Serbiyanın Prezidenti kimi dövlətçiliyi, dövlət maraqlarını hər şeydən üstün tutursunuz. Məhz buna görə Sizin rəhbərliyinizlə Serbiya uğurla inkişaf edir, həm beynəlxalq müstəvidə böyük hörmət qazanmışdır, eyni zamanda iqtisadi və sosial sahədə böyük islahatlar aparılmışdır. Bunun nəticəsində bu gün Serbiya - təbii sərvətləri olmayan bir ölkə, buna baxmayaraq, iqtisadi cəhətdən uğurla inkişaf edir, öz gücünə arxalanır, heç bir yerdən heç bir yardım almır. Bugünkü şəraitdə, xüsusilə Avropa məkanında yerləşən ölkə üçün bu, xüsusi amil kimi qiymətləndirilməlidir. Burada mən Prezident Vuçiçin çox yüksək liderlik keyfiyyətlərini qeyd etmək istərdim. Bildiyiniz kimi, bizim təmaslarımız uzun illərdir ki, davam edir. Biz bir-birimizi yaxından tanıyırıq, səmimi söhbətlər aparırıq və dostluq münasibətlərimiz var. Bilirəm ki, Prezident Vuçiç Serbiya xalqına, dövlətinə, dövlət maraqlarına nə qədər bağlı olan insandır və hər bir ölkənin uğurunun arxasında məhz bu amillər dayanır. Biz, əlbəttə ki, Serbiyanın dostları kimi bunu yüksək qiymətləndiririk və buna görə sevinirik.

Əziz dostum bizim müzakirə etdiyimiz məsələlərə toxundu. Mən bunu təkrar etmək istəmirəm. Həqiqətən, bu gün Serbiya-Azərbaycan Strateji Şurasının birinci iclasında bir çox məsələlər müzakirə edildi. Ondan əvvəl biz təkbətək görüşümüzdə məsələlərin geniş spektrinə toxunduq. Bizim gələcək üçün də açıq-aydın planlarımız var. Həm siyasi, həm iqtisadi, həm də energetika sahəsində əlaqələrimizi daha da gücləndirmək, beynəlxalq platformalarda, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmək, birgə sərmayə layihələrini həyata keçirmək, energetika və nəqliyyat sahələrində yeni yaranmış imkanlardan yararlanaraq, daha irəliyə baxaraq çox güclü bir sinergiya yaratmaqdır.

Prezident Vuçiç artıq birgə inşa ediləcək elektrik stansiyasının gələcəyinə toxundu. Prezident qeyd etdiyi kimi, biz qərara gəldik ki, bu məsələni nəzarət altında saxlayacağıq. Bu elektrik stansiyasının yaradılması prosesi məhz Serbiyada mövcud olan investisiya - sərmayə imkanlarına söykənir. Çünki əgər investisiya iqlimi müsbət olmasaydı, Serbiya xarici investorlar üçün o qədər də cəlbedici olmazdı. Məhz aparılan islahatlar nəticəsində bir çox ölkələr, o cümlədən Azərbaycan Serbiyaya böyük həcmdə sərmayə qoymağa hazırdır.

Elektrik stansiyalarının tikintisi və yenidən qurulması, onların reabilitasiyası hər bir ölkənin gələcək inkişafını təmin edir. Xüsusilə təbii resursları olmayan ölkələr bir çox hallarda asılı vəziyyətə düşürlər. Ona görə daxili enerji, istehsalat gücünün mövcudluğu hər bir ölkənin enerji təhlükəsizliyini təmin edir və bu layihənin həyata keçirilməsində mən Prezident Vuçiçin xüsusi rolunu qeyd etmək istərdim.

Bütövlükdə energetika sahəsində bizim əlaqələrimiz indi çoxşaxəli formatda inkişaf edir. Bir müddət bundan əvvəl biz Serbiyaya təbii qazın ixracına başlamışıq və bu gün qərara gəldik ki, ixracın həcmini artıracağıq. İndi Serbiya ixrac ediləcək qazı da elektrik enerjisinə çevirərək, artıq təmiz elektrikin əldə edilməsinə də nail olacaq. Bu, həm Serbiya bazarı üçün və gələcəkdə ixrac üçün də imkanlar yaradacaq. Bu gün Azərbaycanın energetika sahəsində ixrac potensialı 2 giqavata bərabərdir. Bu rəqəm artacaq. Çünki biz indi bir çox bərpaolunan enerji stansiyalarının tikintisi ilə məşğuluq və bu sahədə də Serbiya ilə əməkdaşlıq etməyə hazırıq.

Biz 2032-ci ilə qədər əlavə 8 giqavat enerji gücünü əldə edəcəyik və bunun böyük hissəsi ixraca gedəcək. Bunun üçün bizim yeni və daha genişhəcmli transmissiya imkanlarımız olmalıdır. Çünki bizim əsas ixrac istiqamətimiz Avropa məkanıdır.

Digər məsələlərə gəldikdə, yenə də deyirəm, mənim dostum artıq bu barədə danışdı. Vaxtınızı çox almaq istəmirəm. Hesab edirəm ki, mənim rəsmi səfərimin nəticələri özünü çox gözlətməyəcək. Biz yaxın gələcəkdə yenə də bir-birimizlə görüşəcəyik. Mən Prezident Vuçiçi və Serbiya nümayəndə heyətinin üzvlərini Azərbaycana dəvət etmişəm. Əminəm ki, biz bu il bir neçə dəfə görüşəcəyik - həm Azərbaycanda, həm də ola bilər, mən yenə Serbiyaya gəlim. Çünki mən və əminəm ki, Azərbaycan nümayəndə heyəti burada özlərini evindəki kimi hiss edirlər. Mən dəfələrlə Serbiyada olmuşam və Prezident Vuçiçin rəhbərliyi ilə Serbiyada gedən inkişafı öz gözlərimlə görürəm. Buna görə bir daha serbiyalı dostlarımızı ürəkdən təbrik etmək istəyirəm və Prezident Vuçiçin şüarına da qoşuluram. Yaşasın Serbiya! Yaşasın Azərbaycan! Yaşasın Serbiya-Azərbaycan dostluğu!

## Azərbaycan və Serbiya prezidentləri qeyri-rəsmi səhər yeməyində iştirak ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qeyri-rəsmi səhər yeməyində iştirak ediblər. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin sosial media hesablarında paylaşım edilib.

## Səfər başa çatıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri fevralın 16-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, Belqrad şəhərinin Nikola Tesla Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Serbiya Prezidenti Aleksandar Vuçiç yola saldı.

# Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının iclası keçirilib

**Fevralın 16-da Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, komissiyanın sədri Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə 2025-ci il ərzində görülmüş işlər, o cümlədən həyata keçirilən korrupsiya ilə mübarizə tədbirlərinin əsas istiqamətləri barədə məlumat verib. Eyni zamanda qanunvericiliyə edilmiş dəyişikliklərin qısa mahiyyəti və onların ictimai münasibətlərə təsiri iclas iştirakçılarının diqqətinə çatdırılıb.









Komissiya sədri bildirib ki, 2025-ci il ərzində korrupsiya risklərinin idarə edilməsinə dair yeni mexanizm qanunvericilikdə təsbit edilib, korrupsiya barədə məlumat verən şəxslərin hüquqlarının müdafiəsi istiqamətində müvafiq normalar qanunvericiliyə əlavə olunub. Həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin korrupsiya ilə mübarizə fəaliyyətində iştirakçılıqları təmin olunmaqla qeyri-hökumət təşkilatlarının nümayəndələri və müstəqil ekspertlər işçi qrupların fəaliyyətinə cəlb ediliblər.

Bununla yanaşı, 2025-ci il ərzində korrupsiya ilə mübarizə sahəsində dövlət proqramlarının qiymətləndirilməsi üzrə nəticə-əsaslı monitorinq mexanizminin əsasları müəyyənləşdirilib. Belə ki, keçən dövr ərzində eomissiyanın katibliyi tərəfindən vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə "Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın monitorinqi və qiymətləndirilməsi Metodologiyası" hazırlanıb. Bu mexanizm korrupsiya ilə mübarizə tədbirlərinin dəqiq meyarlar əsasında qiymətləndirilməsinə şərait yaradacaq.

İclasda korrupsiya ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə edilib. Bu əməkdaşlıq çərçivəsində Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin (ACN) 5-ci dəyərləndirmə raundu çərçivəsində Azərbaycan Respublikası üzrə verdiyi tövsiyələrin icra vəziyyətinə dair qəbul edilmiş hesabatların nəticələri də müzakirə olunub. Bu istiqamətdə görülmüş işlər qənaətbəxş hesab olunaraq tövsiyələrin icrası ilə bağlı tədbirlərin davam etdirilməsi qərara alınıb.

Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşəbbüslərdə iştirakı, korrupsiya ilə mübarizədə vəkilliyin rolu və bu istiqamətdə aparılan son islahatlar barədə məruzələr dinlənilib. Eləcə də şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün verilən təkliflər müzakirə edilib.

Həmçinin komissiyanın katibliyi tərəfindən hazırlanmış korrupsiya risklərinin idarə edilməsi qaydalarının layihəsi məqsədəmüvafiq hesab olunub, növbəti dövr üçün iş planı təsdiqlənib.

# Ötən ay narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı 793 cinayət faktı aşkarlanıb

**Bu ilin yanvar ayı ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.**

**2025/2026-ci illərin yanvar ayı ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar və qanunsuz dövriyyədən götürülən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları barədə müqayisəli məlumat**

| | 2025-ci ilin yanvar ayı | 2026-cı ilin yanvar ayı | Fakt | %-lə |
|---|---|---|---|---|
| Cəmi | 685 | 793 | +108 | +15,8 |
| Satış | 179 | 162 | -17 | -9,5 |
| Saxlama | 505 | 630 | +125 | +24,8 |
| Əkin | - | - | sabit | sabit |
| Digərləri | 1 | 1 | sabit | sabit |

**Götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının miqdarı**

| | 2025-ci ilin yanvar ayı | 2026-cı ilin yanvar ayı | Fərq | %-lə |
|---|---|---|---|---|
| Cəmi | 750 kq 328,026 qr | 893 kq 456,646 qr | +143 kq 128,62 qr | +19,1 |
| Marixuana | 681 kq 035,96 qr | 765 kq 086,6 qr | +84 kq 050,64 qr | +12,4 |
| Həşiş | 9 kq 230,5 qr | 20 kq 032,8 qr | +10 kq 802,3 qr | +117 |
| Tiryək | 13 kq 146,382 qr | 23 kq 339 qr | +10 kq 192,618 qr | +77,5 |
| Heroin | 28 kq 335,05 qr | 76 kq 396,846 qr | +48 kq 061,796 qr | +169,6 |
| Kokain | - | - | sabit | sabit |
| Psixotrop maddələr | 14 kq 958,534 qr | 2 kq 557,9 qr | -12 kq 400,634 qr | -83 |
| Digər narkotik vasitələr | 3 kq 621,6 qr | 6 kq 043,5 qr | +2 kq 421,9 qr | +66,9 |

Bu barədə AZƏRTAC-a İşçi qrupundan məlumat verilib.

Bildirilib ki, hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 793 cinayət faktı aşkarlanıb. Onlardan 162-si narkotik vasitələrin qanunsuz satışı, 630-u narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 1-i bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 893 kiloqram 456,646 qram narkotik vasitələrin və psixotrop maddələrin 765 kiloqram 086,6 qramını marixuana, 76 kiloqram 396,846 qramını heroin, 23 kiloqram 339 qramını tiryək, 20 kiloqram 032,8 qramını həşiş, 6 kiloqram 043,5 qramını digər narkotik vasitələr və 2 kiloqram 557,9 qramını psixotrop maddələr təşkil edib.

Qanunsuz dövriyyədən çıxarılmış 893 kiloqram 456, 646 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 22 milyon 795 min manat kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 207 nəfər cəlb edilib, onlardan 199-u kişi, 8-i qadın olub. Məsuliyyətə cəlb edilmiş 3 xarici ölkə vətəndaşından ümumilikdə 48 kiloqram 900,246 qram müxtəlif növ narkotik vasitələr götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 18 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 252 kiloqram 341,549 qram narkotik vasitə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlər 14 qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 162 kiloqram 240,1 qram narkotik vasitə və psixotrop maddə müsadirə edilib. 100 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 59 kiloqram 691,5 qram müxtəlif növ narkotik vasitə müsadirə edilib.

Təhlil göstərir ki, 2025-ci ilin yanvar ayı ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq- mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 108, satış məqsədi olmadan qanunsuz əldə edilib-saxlanılması ilə əlaqədar faktların sayı 125 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 143 kiloqram 128,62 qram artıb, narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 4 fakt, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 28, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı isə 4 nəfər azalıb. Qrup halında olan və bu kateqoriyadan olan digər cinayətlərin sayı isə sabit qalıb.

2025-ci ilin yanvar ayı ilə müqayisədə 2026-cı ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılmış psixotrop maddələrin çəkisi 12 kiloqram 400,634 qram (82,9 faiz) azalıb.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 765 kiloqram 086,6 qramın (85,6 faiz) marixuana təşkil edib. Onun da 648 kiloqram 809,2 qramı (84,8 faiz) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olub. 116 kiloqram 277,4 qramı (15,1 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə qanunsuz kultivasiya edilib.

Dövlət Komissiyasının İşçi qrupunun təşkilatçılığı ilə 2026-cı ilin yanvarın 30-u tarixində qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiya tərəfindən 25 məhkəmə və istintaq qərarları əsasında barəsində məhvetmə qərarı qəbul edilmiş 858 kiloqram 620,899 qram, 22139 ədəd həb, 1056 ampul narkotik vasitə, psixotrop maddə və 4745 ədəd həb, 240 paket güclü təsir maddələr yandırma üsulu ilə məhv edilib.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 283, QİÇS-lə Mübarizə Mərkəzində 299, Sumqayıt Narkoloji Mərkəzində 122 nəfər) 704 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2026-cı ilin yanvar ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 1 (0,01faiz) nəfəri inyeksion narkotik istifadəçisi olub.

2026-cı ilin yanvar ayı ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 65 vətəndaş müraciəti daxil olub ki, onların 5-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 6-sı narkotik asılılıqdan müalicə, 54-ü isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 11 məktub ünvanlanıb.

"802" qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

2026-cı ilin yanvar ayından etibarən Dövlət Komissiyasının İşçi qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 42 tədbir (20 maarifləndirici və təşkilati tədbir, 10 sosial layihə, 12 maarifləndirici aksiya) təşkil edilib.

Maarifləndirmə işinin daha da gücləndirilməsi və genişləndirilməsi, eləcə də görülən işlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Azərbaycan Respublikası Gənclər Fondu və Azərbaycan Milli Antidopinq Agentliyi arasında 2026-cı ilə dair birgə tədbirlər planı imzalanıb.

# "BƏƏ ilə Azərbaycan arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir"



**"Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə Azərbaycan arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. İki ölkə arasındakı münasibətlərdə iqtisadi əlaqələr xüsusi yer tutur. Ölkələrimiz arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq sazişinin imzalanması əlaqələrimizin inkişafının yeni mərhələsi hesab edilə bilər".**

Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı BƏƏ-nin iqlim dəyişikliyi və ətraf mühit naziri Amna bint Abdullah Al Dahak deyib.

Onun sözlərinə görə, ötən il BƏƏ-Azərbaycan qeyri-neft ticarətinin həcmi 2,4 milyard dollara yüksəlib ki, bu da 43 faiz artım deməkdir.

"Eyni zamanda BƏƏ və Azərbaycandan olan investisiyaların ümumi həcmi 1 milyard dollar təşkil edir. Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq sazişi və davam edən danışıqlar sayəsində biz bunu xüsusilə kənd təsərrüfatı və ərzaq sektorunda daha da inkişaf etdirməyi hədəfləyirik. Bu gün BƏƏ müxtəlif maraqlı tərəfləri, o cümlədən, hökumət nümayəndələrini, şirkətləri və özəl sektoru bir araya gətirib. Bu "dəyirmi masa"nın əsas məqsədi müzakirələri başlatmaq, imkanları müəyyənləşdirmək və bu imkanları Azərbaycan, BƏƏ üçün konkret və əhəmiyyətli layihələrə çevirməkdir. Azərbaycan kənd təsərrüfatı sahəsində inkişaf edib. BƏƏ isə yüksək texnologiyalı, "ağıllı kənd təsərrüfatı"na və güclü logistika imkanlarına malikdir. Bugünkü danışıqların başlanğıcını qoyduğumuz tərəfdaşlarla gələcəkdə də əməkdaşlığı davam etdirmək niyyətindəyik", - deyə nazir əlavə edib.

# *BƏƏ şirkət rəhbəri:* "Ümid edirəm ki, Azərbaycandan daha çox kənd təsərrüfatı məhsulları idxal edə biləcəyik"



**"Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Al-Tayeb" şirkəti kənd təsərrüfatı sahəsində ixtisaslaşıb və Azərbaycanla kənd təsərrüfatı məhsulları üzrə əməkdaşlıq imkanlarının genişləndirilməsində maraqlıdır".**

Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı BƏƏ-nin "Al-Tayeb" şirkətinin direktoru Riyad Cabbar deyib.

Onun sözlərinə görə, hazırda Azərbaycan şirkətləri ilə əməkdaşlıq edir, əsasən meyvə, tərəvəz və quş əti məhsullarının tədarükü ilə məşğuldurlar.

"Biz Azərbaycandan hipermarketimizə daha çox məhsul ixracını həyata keçirmək istəyirik. Azərbaycandan meyvə, tərəvəz, ət və quş əti sahəsində imkanlar olduğunu düşünürük. "Al-Tayeb" şirkəti dünya üzrə güclü tədarük ofisinə sahibdir. 25 ölkədə öz tədarük ofislərimiz var, çünki məhsulu birbaşa fermerlərdən və təchizatçılardan alırıq və bütün müştərilərimizə satırıq. Biz güclü e-ticarət platformasına sahibik, gündəlik təxminən 300 min müştəriyə xidmət göstəririk. Bölgəmizdə güclü topdansatış paylama şəbəkəmiz mövcuddur. Ümid edirəm ki, Azərbaycandan daha çox kənd təsərrüfatı məhsulları idxal edə biləcəyik", - deyə R.Cabbar əlavə edib.

# Azərbaycan səfiri etimadnaməsini İƏT baş katibinə təqdim edib

Fevralın 15-də Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfiri, ölkəmizin İƏT yanında daimi nümayəndəsi Mütəllim Mirzəyev etimadnaməsini İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Hüseyn Brahim Tahaya təqdim edib. AZƏRTAC xəbər verir ki, Ciddədə İƏT-in Baş Katibliyinin qərargahında görüşdə Azərbaycan və İƏT arasında əməkdaşlıq məsələləri müzakirə olunub. Diplomat Azərbaycanın İƏT ilə münasibətlərini inkişaf etdirmək, siyasi, iqtisadi və mədəni əlaqələri daha da genişləndirmək əzmində olduğunu qeyd edib.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Münxendə Orta dəhlizin gələcək perspektivləri geniş müzakirə mövzusu oldu

**Münxen Təhlükəsizlik Konfransı qlobal məsələlərin müzakirə edildiyi nüfuzlu qlobal platformadır. Burada təhlükəsizliklə yanaşı, siyasi və iqtisadi məsələlər də geniş müzakirə olunur. Dünyanın 120-dən çox ölkəsindən ümumilikdə 1000-ə yaxın nümayəndənin, o cümlədən 60 dövlət və hökumət başçısının iştirakı bu tədbirin beynəlxalq əhəmiyyətinin göstəricisidir.**

Növbəti konfransda da Azərbaycana xüsusi maraq göstərilirdi. Prezident İlham Əliyevin bir çox hökumət və dövlət başçısı və iri biznes sahibləri ilə görüşləri, nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr zamanı bu maraq daha çox hiss olunurdu. Həmin maraqlar sırasında isə dünyanın ümid yeri kimi baxdığı Orta dəhliz məsələsində Azərbaycanın tutduğu mövqeyin qarşı tərəflər üçün böyük əhəmiyyət kəsb etdiyi aşkar görünürdü. Bu, təsadüfi deyildi - qlobal layihədə əsas söz sahibi və açar ölkənin Azərbaycan olduğu hamıya bəllidir. Gələcəkdə Asiya ilə Avropa arasında aparılacaq və dəyəri trilyonlarla dollar olan ticarət dövriyyəsinin uğurlu olub-olmaması ölkəmizdən asılıdır. Əvvəllər Çin bu layihəyə xüsusi maraq göstərirdi. İndi Avropa Birliyi də özünün iqtisadi inkişaf və ticarət perspektivlərinin Azərbaycanla bağlı olduğunu aydın başa düşür. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Açıq dəniz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşməsi" mövzusunda panel müzakirələrin keçirilməsi də ölkəmizə və regionumuza olan maraqdan irəli gəlirdi.

Prezident İlham Əliyev moderator Helqa Mariya Şmidin sualına cavab verərkən bildirdi ki, ölkəmiz Orta dəhlizin inkişafı üçün lazım olan bütün tədbirləri görür. Regionumuzda dəhlizlər və bağlantılar baxımından xeyli dəyişikliklər olub. Ötən dövr ərzində Azərbaycan fiziki infrastruktura, o cümlədən dəniz limanları, dəmir yolları, magistral və hava yolları ilə yüklərin daşınmasına böyük sərmayələr yatırıb. Dəhlizin işlək olması üçün qonşu və region ölkələrlə səmərəli əməkdaşlıq qurub. Azərbaycan istər Qərb, istəsə də Şərq istiqamətində yüklərin daşınması üçün lazım olan zəruri tədbirləri görməkdə davam edir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Avropa ilə Asiya arasında mühüm ticarət marşrutunda üstün coğrafi mövqeyə malikdir və görülən tədbirlər sayəsində ildən-ilə yükdaşımanın həcmi artır. Ötən il Azərbaycan üzərindən daşınan yüklərin həcmində rekord göstəriciyə nail olunub. Bu göstəricinin qarşıdakı illərdə 200 min və hətta 300 min nəqliyyat vahidinə çatması proqnozlaşdırılır. Dövlət başçısı həmçinin vurğuladı ki, hədəf qarşıdakı illərdə bu rəqəmin 500 min nəqliyyat vahidinə çatdırmaqdır. Bunun üçün də dəniz limanlarının genişləndirilməsi tədbirləri görülür.

44 günlük Vətən müharibəsindən sonra regionumuzda yeni geosiyasi vəziyyət yaranıb. Bölgəmizdə 30 il davam edən münaqişə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə başa çatıb. Bundan sonra ölkəmiz Ermənistana sülh təklifi ilə müraciət edib, eyni zamanda bölgədə nəqliyyat-logistika infrastrukturunun açılması təşəbbüsü ilə də çıxış edib. Uzun müzakirələrdən sonra ötən ilin avqustunda Vaşinqtonda Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanla yerüstü nəqliyyat əlaqələrinin yaradılması barədə sənəd imzalanıb. Bizdə Zəngəzur dəhlizi, Vaşinqton sənədlərində isə "Tramp Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) adlanan layihənin gerçəkləşməsi barədə Ermənistanla razılığa gəlinib. Həmin sənədin imzalanması Orta dəhlizin imkanlarını xeyli genişləndirəcək, daha doğrusu, 42 kilometrlik bu yol Orta dəhlizlə əlavə 5 milyon ton yükün daşınmasına imkan yaradacaq.

Prezident İlham Əliyev bu layihə ilə bağlı bildirdi ki, Çindən başlayan daşımalar Mərkəzi Asiya, Trans-Xəzər regionu, Azərbaycan, Ermənistan, eksklav Naxçıvan, Türkiyə və sonra Avropanı əhatə edəcək. Bu, bütün ölkələr üçün faydalı olacaq. Marşrut boyunca bütün ölkələr həm siyasi, həm iqtisadi baxımdan daha sıx inteqrasiya olunacaq və həmin addım Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və əbədi sülhə növbəti töhfə olacaq. Bünövrə olan bu sənədin imzalanması vacibdir.

Dövlətimizin başçısı mövzu ilə bağlı suallara cavab verərkən bidirdi ki, ölkəmiz Cənubi Qafqazda yerləşsə də, bir çox siyasi və iqtisadi platformada əməkdaşlıq edir. Məqsəd dünya iqtisadiyyatına və ticarətinə töhfə verməkdir. Azərbaycan digər iqtisadi sahələrdə də region ölkələri ilə fəal əməkdaşlıq edir. Prezident keçən il ölkəmizin "5+1" layihəsinə qoşulmasının əhəmiyyətini xüsusi olaraq qeyd etdi. Bildirdi ki, ölkəmiz keçən il Mərkəzi Asiya beşliyinə tamhüquqlu üzv kimi qəbul olundu və beşlik genişlənərək altılığa çevrildi. Baxmayaraq ki, Azərbaycan Cənubi Qafqaz ölkəsidir, Mərkəzi Asiya Məşvərət Şurasında da fəaliyyətini genişləndirəcək.

Bununla bağlı Prezident İlham Əliyev demişdir: "Biz bağlantı sahəsində çox işlər görürük, Mərkəzi Asiya ölkələri ilə Çin arasında da bağlantı sahəsində çox işlər görülür. Xanım Helqanın vurğuladığı mövcud yollarla yanaşı, Çin tərəfindən tikilməkdə olan və maliyyələşdirilən başqa bir yol da var - Xəzərə aparan daha bir yol. Çindən Qazaxıstan vasitəsilə Xəzərə uzanan mövcud yoldan əlavə olaraq. Çin hazırda Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Xəzər yolunu maliyyələşdirir. Yenə də yol Xəzər dənizinə gedir. Bu o deməkdir ki, o, Azərbaycana və sonra Cənubi Qafqazdan keçərək Avropaya çatacaq. Beləliklə, xeyli geosiyasət, xeyli beynəlxalq münasibətlər, xeyli diplomatiya həyata keçirilir. Azərbaycan bir çox ölkənin marşrutu boyunca keçən, hamısı ilə yaxşı münasibətlər quraraq Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir. Beləliklə, bu, Avrasiyanın çox geniş coğrafiyasında əməkdaşlıq üçün daha bir çox güclü siyasi zəmanət olacaq".

Dövlətimizin başçısı Mərkəzi Asiya ölkələrinin Orta dəhlizin inkişafındakı rolunu xüsusi olaraq qeyd etdi. Bildirdi ki, həmin ölkələr olmadan Çindən Avropaya heç bir yük daşımaq mümkün olmayacaq. Orta dəhlizin inkişafında dünyanın bir çox ölkəsi yaxından iştirak edir. Ölkəmiz dəhlizboyu Çinlə, Mərkəzi Asiya ölkələri ilə, Gürcüstanla, Ermənistanla, Türkiyə ilə sıx əməkdaşlıq edərək bu qlobal ticarət marşrutunun imkanlarını ildən-ilə genişləndirir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycan yeni dünya nizamına nüfuzlu aktor kimi daxil olur

### Münxen konfransı bu reallığın növbəti təsdiqi oldu

**Prezident İlham Əliyevin Almaniyaya səfəri və Münxen Təhlükəsizlik Konfransındakı iştirakı qlobal güc mərkəzlərinin transformasiyaya uğradığı, beynəlxalq təhlükəsizlik arxitekturasının yenidən formalaşdığı mürəkkəb bir dövrə təsadüf edir. Müasir geosiyasi şəraitdə yalnız strateji çeviklik nümayiş etdirən və xarici siyasət gündəliyini qətiyyətlə müdafiə edən dövlətlər beynəlxalq arenada əsas oyunçuya çevrilirlər. Bu gün Azərbaycan məhz belə dövlətlərdən biri olduğunu sübut edir.**

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Münxen platformasındakı fəallığı, sadəcə, diplomatik protokol qaydası deyil, ölkəmizin beynəlxalq sistemdə artan siyasi çəkisinin bariz göstəricisidir. Avropa təhlükəsizliyindən tutmuş yeni dünya nizamının qurulmasına qədər ən aktual mövzuların müzakirə olunduğu bu platformada Azərbaycanın səsinin ucalması rəsmi Bakının regional və qlobal proseslərdəki həlledici rolunu təsdiqləyir. Bu uğurun təməlində isə ölkəmizin çoxvektorlu xarici siyasət strategiyası və Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol dayanır. "Eyni zamanda rəsmi Bakı tranzit təşəbbüslərinin təşviqində yüksək fəallıq nümayiş etdirir. Bunun misalı kimi Xəzər regionu vasitəsilə Asiya və Avropanı birləşdirən Orta dəhlizin inkişaf etdirilməsini və Zəngəzur dəhlizi (TRIPP) layihəsinin həyata keçirilməsini göstərmək olar. Bunlar birlikdə Azərbaycanın Şərq və Qərb arasında strateji əhəmiyyətli logistika mərkəzi kimi əhəmiyyətini artırır. Bu kontekstdə qeyd etmək vacibdir ki, Azərbaycan Respublikası qlobal siyasi aktorlar arasında müstəqil qərar qəbul edən mərkəz kimi tanınır ki, bu da ölkəmizin uzun müddətdir davam etmiş münaqişəyə son qoymasından sonra Cənubi Qafqazda bərqərar olunan faktiki sülhün sayəsində mümkün olub", - deyə deputat əlavə edib.



K.Bayramov qeyd edib ki, bununla əlaqədar digər əhəmiyyətli məqam məhz Bakının sülh gündəliyinin regional təhlükəsizliyin əsas amili olması və 2025-ci il avqustun 8-də Vaşinqtonda tarixi razılaşmaların imzalanması üçün əsas yaradıb. Çünki həmin sənədlər məhz Azərbaycan tərəfinin Cənubi Qafqazda açıq kommunikasiya və qarşılıqlı əlaqə üçün ardıcıl olaraq irəli sürdüyü təşəbbüslərə əsaslanır.

Deputat vurğulayıb ki, Azərbaycan özünün regional sülh gündəliyini beynəlxalq nizamlama formatına çevirib: "Bu fakt xarici oyunçular üçün bir siqnala çevrilib: rəsmi Bakı təhlükəsizlik arxitekturasının inkişafında mühüm yer tutub və sübut edib ki, onun iştirakı olmadan regionda heç bir razılaşma həyata keçirilə bilməz. Nəticədə ölkəmiz siyasi bəyannamələri praktiki fəaliyyətə çevirə bilən bir dövlət kimi nüfuzunu möhkəmləndirib ki, bu da müasir diplomatiyada etibarın əsas meyarlarından biridir. Bu fakt bir daha güclü siyasi liderliyin və aydın şəkildə müəyyən edilmiş milli prioritetlərin mövcudluğunu təsdiqləyir. Bunu Azərbaycan liderinin Münxen konfransı çərçivəsində müxtəlif ölkələrin və qlobal korporasiyaların nümayəndələri ilə görüşləri də sübut edir. Eyni zamanda aparıcı beynəlxalq media orqanlarının, xüsusən də "France 24" Agentliyinin dövlət başçısının beynəlxalq və regional siyasət məsələlərində mövqeyinə diqqət yetirməsi ölkəmizə olan böyük marağın göstəricisidir".

K.Bayramov vurğulayıb ki, builki Münxen konfransı bir daha göstərdi ki, ölkəmizin müəyyənləşdirdiyi reallıq qlobal səviyyədə qəbul edilir: "Azərbaycan dövləti yeni dünya nizamına müşahidəçi kimi deyil, aparıcı aktorlar tərəfindən nəzərə alınan fəal və nüfuzlu iştirakçı kimi inamla inteqrasiya olunur. Ümumilikdə, bu, müstəqil şəkildə mühüm strateji qərarlar qəbul etmək, təhlükəsizliyi təmin etmək və mürəkkəb məsələlərə konstruktiv həllər təklif etmək qabiliyyətinə malik bir ölkəyə hörməti nümayiş etdirir. Bunun əsasını isə sözləri ilə əməlləri həmişə üst-üstə düşən Prezident İlham Əliyevin şəxsi nüfuzu təşkil edir".

K.Bayramov əlavə edib ki, Prezident İlham Əliyevin Münxen konfransında iştirakı qlobal proseslərə inteqrasiya olunmuş, əsas güc mərkəzləri ilə bərabər səviyyədə dialoq apara bilən və geniş Avrasiya gündəliyinin inkişafına töhfə verən Azərbaycanın beynəlxalq imicinin formalaşmasında mühüm elementdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Nüfuzlu dövlət, etibarlı tərəfdaş

**Dünyanın 120 ölkəsindən ümumilikdə minə yaxın nümayəndənin, o cümlədən 60 dövlət və hökumət başçısının iştirak etdiyi 62-ci Münxen Təhlükəsizlik Konfransı üçgünlük mühüm müzakirələrdən sonra işini başa çatdırdı. Fevralın 13-dən 15-dək davam edən qlobal əhəmiyyətli konfrans çərçivəsində keçirilən müxtəlif tədbirlərdə dünya nizamını sarsıdan əsas təhdidlər, aktiv müharibə və böhranlara dair müzakirələr aparıldı, beynəlxalq münasibətlər sistemini tənzimləyən qaydaların ciddi təzyiq altında olduğu vurğulandı.**

Qlobal təhlükəsizlik arxitekturasının yenidən qurulduğu bir dövrdə Azərbaycanın diplomatik iradəsi də Münxendə diqqət mərkəzinə çevrildi. Prezident İlham Əliyevin 8-ci dəfə Münxen Təhlükəsizlik Konfransında fəal iştirakı strateji əhəmiyyət kəsb etməklə bərabər, rəsmi Bakının beynəlxalq arenada sahib olduğu xüsusi çəkisini və artan nüfuzunu nümayiş etdirdi. Dövlətimizin başçısının konfrans çərçivəsində müxtəlif tədbirlərdə iştirakı, dövlət başçıları, beynəlxalq təşkilatların və qlobal şirkətlərin rəhbər şəxsləri ilə önəmli görüşləri göstərdi ki, dünya siyasətinə yön verən simaların bir araya gəldiyi məkanda Azərbaycanın özünəməxsus yeri və hörməti var. Cənubi Qafqazda bərqərar olmuş yeni geosiyasi vəziyyət bilavasitə Azərbaycanın qətiyyətli mövqeyi və siyasi iradəsi nəticəsində yaranıb. Otuzillik təcavüzə yekun vuraraq öz torpaqlarında tam hakimliyini təmin edən Azərbaycan hazırda bölgədə davamlı sabitliyin əsas zəmanətçisidir. Ölkə lideri İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu regionu kənar təsirlərdən mühafizə etməklə yanaşı, Cənubi Qafqazı Şərqlə Qərb arasında sarsılmaz qovşağa çevirib.

Prezidentin uzaqgörən diplomatik həmlələri Bakını regional oyunçu statusundan çıxaraq, qlobal miqyaslı aktor səviyyəsinə yüksəldib. Azərbaycan artıq regional səviyyədə fəaliyyət göstərən dövlət deyil, dünyanın müxtəlif bölgələrində fəal tərəfdaşlığı təşviq edən, problemlərin həllində aktiv rol oynayan və sülh təşəbbüslərinə əməli töhfələr verən etibarlı ölkə kimi qəbul olunmaqdadır.

Ölkəmizin xarici siyasətdəki artan çəkisi beynəlxalq platformalarda və konfranslarda Azərbaycan liderinə rəğbətin və ehtiramın artması ilə müşahidə olunur. Dövlət başçısının təmsil olunduğu bütün qlobal sammitlər xüsusi diqqət mərkəzində olur. Azərbaycan Prezidenti İlham Əliyevin konfrans çərçivəsində İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani, Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak, ABŞ-nin "Oracle" korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya, Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşetlə, Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova, Avropa Birliyinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas, Ukrayna Prezidenti Volodimir Zelenski və "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohenlə görüşləri də Azərbaycan liderinə rəğbətin əyani təcəssümüdür.

Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf yolunda olan Azərbaycan dünyada ən etibarlı tərəfdaş kimi qəbul edilir. Coğrafi baxımdan mürəkkəb məkanda qərarlaşmasına rəğmən Azərbaycan həm regional qonşuları ilə, həm də uzaq dövlətlərlə balanslı və səmərəli əlaqələr qura bilən nadir ölkələrdəndir. Dövlət başçısı İlham Əliyevin uğurlu xarici siyasəti ölkəmizin dostlarının sayını artırıb, müttəfiq çevrəsini genişləndirib. Bu gün beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan liderinin bütün bəyanatları dövlət başçısının sözü və imzası qədər etibarlı qəbul edilir.

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində çoxşaxəli fəaliyyəti, müsahibəsi, panel müzakirələrindəki çıxışları müasir beynəlxalq münasibətlər sistemində əsl diplomatik ustad dərsi kimi xarakterizə olunur. Azərbaycanın suveren iradəsini dünyaya qəbul etdirən dövlətimizin başçısı regional sülhün şərtlərini müəyyən etməklə yanaşı, həm də qlobal təhlükəsizlik arxitekturasında ölkəmizin yerini möhkəmləndirib. Dövlət başçısı "France-24" kanalına verdiyi müsahibədə Azərbaycanın regional mövqeyini yeni prizmadan gündəmə gətirdi. Prezident İlham Əliyevin "Azərbaycan bu gün bölgədə sabitlik, etibarlılıq və proqnozlaşdırıla bilən siyasət nümunəsidir" açıqlaması dövlətimizin formalaşdırdığı siyasi-iqtisadi və geostrateji vəziyyəti tamamilə əks etdirir. Bu bəyanat Azərbaycanı yalnız regional aktor kimi deyil, həm də qlobal əlaqələr sistemində iştirak edən bir tərəfdaş kimi göstərir.

Dövlət başçısının tranzit marşrutlarla bağlı qeyd etdiyi müstəqil qərarvermə imkanı ölkənin yükdaşımada və ixracyönümlü infrastrukturlarda asılılıq yaşamadan fəaliyyət göstərdiyini diqqətə çatdırdı. Vurğulandı ki, alternativ marşrutlar formalaşdıran Azərbaycan çoxşaxəli logistika modelinə malikdir. Ölkə başçısı bəyan etdi ki, Azərbaycan yaxın illərdə fiziki, enerji və rəqəmsal dəhlizlərin kəsişdiyi regional mərkəzə çevrilmək imkanına malikdir. Bu yanaşma ölkəni yalnız tranzit coğrafiyası deyil, həm də qlobal enerji-informasiya axınlarının idarə olunması mərkəzi kimi regional strateji aktor olaraq mövqeləndirir.

Azərbaycan Prezidenti beynəlxalq auditoriyanın diqqətinə növbəti dəfə çatdırdı ki, Ermənistanla sülh müqaviləsinin imzalanması üçün, sadəcə, niyyət kifayət deyil, paralel olaraq hüquqi baza təmin olunmalıdır.

Dövlətimizin başçısı müsahibə zamanı Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları və keçmiş separatçı rejimin qondarma "liderləri" ilə bağlı verilən qərəzli sualları hüquqi və siyasi arqumentlərlə cavablandırdı. Aparıcının separatçılara verilən cəza ilə bağlı sualı məqsədyönlü xarakter daşıyırdı. Belə ki, müəyyən dairələr beynəlxalq tribunadan yararlanmaqla diqqəti separatçıların üzərinə yönəltmək niyyəti güdürlər. Azərbaycan lideri Qarabağda çoxsaylı cinayətlər törətmiş separatçılarla bağlı məhkəmə hökmünün dəyişməcəyini birmənalı bəyan etdi. Burada əsas məqam cənab Prezidentin separatçılarla bağlı məhkəmə prosesini nasistlərin mühakimə olunduğu Nürnberq prosesi ilə eyniləşdirməsi, hətta azərbaycanlılara qarşı törədilən cinayətlərin daha dəhşətli olduğunu vurğulamsı idi. Dövlət başçısının müsahibəsindən o da aydın oldu ki, ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vens Bakıda separatçıların azad edilməsi məsələsini qaldırsa da, Azərbaycan lideri rəsmi Bakının prinsipial mövqeyini qonağın diqqətinə çatdırıb. Bununla məsələyə nöqtə qoyulub.

Münxen Təhlükəsizlik Konfransında enerji təhlükəsizliyi də əsas müzakirə mövzuları arasında yer aldı. Konfrans çərçivəsində təşkil olunan "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrdə Azərbaycanın bu sahədə oynadığı mühüm roldan ətraflı söhbət açıldı. Dövlət başçısı Azərbaycanın regional və qlobal strateji hədəflərini bir neçə təməl prinsip üzərində diqqətə çatdırdı, Trans-Xəzər nəqliyyat marşrutunun iqtisadi potensialını və regionun rəqəmsal infrastrukturuna yatırılan investisiyaları ön plana çıxardı. Həmçinin ölkəmizin rəhbəri bəyan etdi ki, Azərbaycan sülh müqaviləsini imzalamağa hazırdır, lakin bunun üçün Ermənistan öz konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını rəsmən çıxarmalıdır: "Bu dəyişiklik edildiyi günün ertəsi biz sülh imzalaya bilərik".

Azərbaycan Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı kimi platformalarda qərəzli dairələrin manipulyativ cəhdlərini də öz hüquqi savadı, dərin intellekti, uzaqgörənliyi və iti zəkası ilə ifşa edərək qarşı tərəfi faktlar qarşısında aciz qoydu. Dövlət başçısının panel iclasında Stepan Safaryan adlı erməni fəalın təxribatçı sualına məntiqli və tutarlı cavabı Ermənistan nümayəndəsini beynəlxalq auditoriya qarşısında mat etdi. Dövlətimizin başçısı erməni fəalın "Ermənistanın müstəqillik bəyannaməsinin müddəası effektiv deyil" iddiasına cavab olaraq bildirdi ki, heç bir məhkəmə qərarı konstitusiyadan üstün ola bilməz. Əgər konstitusiyanın preambulası Müstəqillik Bəyannaməsinə istinad edirsə, bu, Ermənistan dövlətinin hüquqi təməlində Azərbaycana qarşı ərazi iddiasının qalması deməkdir. Azərbaycan liderinin "gəlin Vikipediyadan yoxlayaq" sözü isə Ermənistan təmsilçisinin gətirdiyi arqumentin nə qədər zəif və qeyri-ciddi olduğunu auditoriyaya zərif bir yumorla çatdırmaq üsulu idi.

Dövlətimizin başçısı erməni nümayəndənin İrəvanın təbliğ etdiyi "Sülh yolu kəsişməsi"ndən danışmasına və ABŞ-nin keçmiş administrasiyasına istinad etməsinə də diplomatik incəliklə cavab verdi. Cənab İlham Əliyev Ermənistanın xarici güclərin "təşəbbüslərinə" həddindən artıq bel bağlamasını düzgün hesab etmədi: "Sülh yolu kəsişməsi"nə gəlincə, bilirsiniz, Prezident Tramp yenidən hakimiyyətə qayıdanda o, TRIPP layihəsinə start verdi. Odur ki, prezident Bayden qayıdanda sizin "Sülh yolu kəsişməsi" layihəsini yenidən başladar". Bununla ölkə rəhbəri mesaj verir ki, regionda real bağlantılar kağız üzərindəki bəzəkli adlarla deyil, konkret coğrafi və iqtisadi reallıqlarla, ən əsası isə Azərbaycanın razılığı ilə mümkündür.

Nəticə etibarilə Münxen Təhlükəsizlik Konfransı Azərbaycanın qlobal diplomatiya xəritəsindəki yerini bir daha möhkəmləndirdi. Prezident İlham Əliyevin bu mötəbər platformadakı fəaliyyəti göstərdi ki, Azərbaycan artıq, sadəcə, regional reallıqlarla barışan deyil, yeni geosiyasi nizamı formalaşdıran və sülhün şərtlərini diktə edən strateji gücdür. Bakının "sözü ilə imzası" arasındakı qətiyyətli vəhdəti Azərbaycanın ən etibarlı tərəfdaş olduğunu, qlobal enerji və nəqliyyat memarlığında əvəzolunmazlığını bir daha nümayiş etdirdi.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



# Yeni reallıqlar

## Vaşinqton sammitindən tam sülhə doğru gedən yol davam edir

**ABŞ-nin vitse-prezidenti Cey Di Vensin ölkəmizə səfəri zamanı 10 fevral tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya" iki ölkə arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldərək, müvafiq institusional çərçivə yaratmışdır.**

Enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantıları, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayəni, eləcə də təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı özündə ehtiva edən bu xartiya 2025-ci il avqustun 8-də ABŞ-nin paytaxtı Vaşinqton şəhərində Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində yaradılmış İşçi qrupunun altı ay ərzində həyata keçirdiyi məqsədyönlü fəaliyyətin nəticəsidir. Qarşılıqlı maraq və ortaq məqsədlər əsasında hazırlanmış bu strateji sənəd Azərbaycan-ABŞ münasibətlərinin gələcək illərdə inkişaf etdirilməsinə və dərinləşdirilməsinə töhfə verəcək.

Vaşinqton sammitində imzalanmış digər sənədlər arasında Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramovun və Ararat Mirzoyanın parafladıqları "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş", nazirlərin ATƏT-in Minsk prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair birgə müraciəti və nəhayət, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış Birgə Bəyannamə də var. Bu sənədlərdən hər biri mahiyyət etibarilə böyük önəm kəsb edir.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanması tərəflərin razılaşdırılmış mövqelərini təsbit etməklə yanaşı, hər iki ölkənin sülh prosesinə sadiqliyini və qarşılıqlı inamın güclənməsi istiqamətində iradəsini nümayiş etdirir. Bu sənəd eləcə də müvafiq şərtlər yerinə yetirildikdən sonra imzalanması nəzərdə tutulan sazişin hüquqi əsasını təşkil edir.

Digər tərəfdən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair birgə müraciəti əsasında 2025-ci ilin 1 sentyabr tarixində ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul edilmiş və 2025-ci ilin 30 noyabr tarixində bu qurumlar rəsmi olaraq ləğv edilmişdir. Beləliklə, bu qərarla Ermənistan və Azərbaycan vasitəçilər olmadan birbaşa danışıqlar aparmağa qadir olan dövlətlər kimi yeni bir diplomatik reallıq yaratmışlar.

Nəhayət, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış Birgə Bəyannamədə Azərbaycan, Ermənistan və ABŞ liderləri paraflanmış sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyacın olduğunu qeyd etmişlər. Ermənistan Konstitusiyasının preambula hissəsində birbaşa olaraq 1990-cı il tarixli "Ermənistanın Müstəqilliyi haqqında Bəyannamə"yə istinad edilir. Bu sənəddə isə birbaşa olaraq ölkəmizə qarşı ərazi iddiası qaldırıldığına görə dövlətimiz "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in imzalanması üçün Ermənistan konstitusiyasının dəyişdirilməsini əsas şərt kimi qoymuşdur.

Eyni zamanda Birgə Bəyannamədə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviq edilməsi məqsədilə Ermənistan və Azərbaycan arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmin edilməsi üçün kommunikasiyaların açılmasının əhəmiyyəti qeyd edilir və vurğulanır ki, bu istiqamətə yönəlmiş səylər Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edəcək. Bu məqsədlə Ermənistan Respublikasının ərazisində "Beynəlxalq



Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin həyata keçirilməsi irəli sürülür.

2026-cı il yanvarın 14-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və ABŞ Dövlət katibi Marko Rubionun Vaşinqtonda TRIPP bağlantı layihəsinin həyata keçirilməsi üzrə imzaladıqları saziş kommunikasiyaların açılması istiqamətində atılmış növbəti addımdır. A.Mirzoyan və M.Rubionun birgə bəyanatında bildirilir ki, Ermənistan TRIPP layihəsinin inkişafına cavabdeh olacaq "TRIPP Development Company" şirkətinin yaradılmasını və ona ilkin mərhələdə 49 il müddətinə layihənin icrası hüququnu verəcəyini təsdiqləmişdir. Ermənistan "TRIPP Development Company" səhmlərinin 74 faizini ABŞ-yə təklif etməyi, 26 faizini özündə saxlamağı planlaşdırır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, 2025-ci ilin 21 oktyabr tarixində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən tarixi bir qərar qəbul edilmişdir. O, Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayevlə birgə keçirdiyi mətbuat konfransında Ermənistana Azərbaycan tərəfindən yük daşınmalarına qoyulan bütün məhdudiyyətlərin aradan qaldırılmasını elan etməklə iki ölkə arasında ilk dəfə olaraq tranzit və ticarət üçün yeni imkanlar yaratmışdır. Prezident İlham Əliyevin dediyi kimi, bu, "Azərbaycanla Ermənistan arasında sülhün artıq yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir". Beləliklə, Ermənistana Azərbaycanın və Gürcüstanın ərazisindən keçməklə dəmir yolu vasitəsilə 2025-ci il noyabrın 5-də Rusiya buğdası və noyabrın 8-də Qazaxıstan buğdası daşınmışdır. Bu proses 2026-cı ildə də davam etdirilməkdədir. Eyni zamanda 2025-ci ilin dekabr və 2026-cı ilin yanvar aylarında Azərbaycan Ermənistana neft və neft məhsulları, o cümlədən Aİ-95 markalı avtomobil yanacağı ixrac etmişdir.

Digər tərəfdən 2025-ci ildə Azərbaycan və Ermənistan cəmiyyətləri arasında qarşılıqlı etimadın yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin birbaşa ünsiyyət platforması olan "Sülh körpüsü" təşəbbüsü çərçivəsində 2025-ci il oktyabrın 21-22-də Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup İrəvana, 2025-ci il noyabrın 21-22-də isə Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup Bakıya səfər etmişdir. Bu səfərlər çərçivəsində təşkil edilmiş görüşlərdə hər iki tərəfdən iştirak etmiş qeyri-hökumət təşkilatlarının, beyin mərkəzlərinin və KİV nümayəndələri bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışlar. Bu günlərdə ölkəmizin vətəndaş cəmiyyəti üzvlərinin Ermənistana səfəri olmuşdur. Prosesin bundan sonra da davam etdirilməsi nəzərdə tutulmuşdur.

Bütün bu proseslər Vaşinqton sammitindən sonra bölgədə sülhün və sabitliyin bərqərar olunması istiqamətində həyata keçirilən fəaliyyətin göstəriciləridir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın şərəfinə təsis edilmiş "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi dünya ictimaiyyəti tərəfindən bu yeni reallığın təsdiq edilməsini göstərir. 2026-cı il fevralın 4-də Əbu-Dabi şəhərində keçirilmiş "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimetmə mərasimində çıxış etmiş Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq. Biz sülh şəraitində yaşamağı öyrənirik... Bu, xüsusi bir hissdir.

Beləliklə, hər iki ölkənin cəmiyyətləri sülhün "dividend"lərini tədricən hiss etməyə başlamışdır. Bu özünü silahların susmasında, insan itkilərinin verilməməsində, sabitliyin bərqərar olunmasında göstərir. Bu isə "Zayed mükafatı"nın təbliğ etdiyi "insan qardaşlığı"nın ən ali təzahürüdür.

***Gülşən PAŞAYEVA,***
***Milli Məclisin deputatı***

# Strateji Tərəfdaşlıq haqqında Xartiya iki ölkə arasındakı münasibətlərə mühüm dəstəkdir

**Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya tarixi sənəddir. Bu, ilk növbədə Tramp administrasiyasının Cənubi Qafqaza, Azərbaycana xüsusi yanaşması, ölkəmizin dünyada artan nüfuzuna bir işarədir.**

Milli Məclisin deputatı Vüqar İskəndərov qəzetimizə açıqlamasında bildirib ki, bu həm də ölkəmizin nüfuzunun beynəlxalq aləmdə güc sahibi olan ABŞ tərəfindən qəbul edilməsidir. Strateji sənədin imzalanması ölkəmizin həm regionda, həm də dünyada qlobal aktor olduğunu bir daha sübut edir. "Bu, əsasən postmünaqişə dövründə Azərbaycanın artan nüfuzunun qəbul edilməsi anlamına da gəlməlidir. Ölkəmiz milli maraqlarına söykənən müstəqil və uğurlu siyasət həyata keçirir. Azərbaycanın Türkiyə, Rusiya, Çinlə, ABŞ, İran və İsraillə, ümumilikdə əks qütbdə olan ölkələrlə doğru və faydalı əməkdaşlıq qurması onun beynəxalq nüfuzunu daha da artırır. Bu xartiya da bizim balanslaşdırılmış xarici siyasətimizin uğuruna bir işarədir", - deyə o əlavə edib

Deputat qeyd edib ki, ABŞ həmin sənəddə ərazi bütövlüyümüzü, suverenliyimizi, sərhədlərimizin toxunulmazlığını dəstəklədiyini, həmçinin regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyətini bir daha təsdiqləyir. Xartiyada ABŞ-nin "Cənub qaz dəhlizi"ni dəstəkləməsi, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi niyyəti ifadə olunur.

V.İskəndərov bildirib ki, ABŞ gələcəyin enerjisi - bərpaolunan enerji sahəsində Xəzərin külək enerji, Qarabağ və Naxçıvanın "yaşıl enerji" potensialını görür və bu, Amerika investisiya və texnologiyası üçün yeni sahələrdir. Ümumilikdə enerji təhlükəsizliyində etibarlı tərəfdaş olan Azərbaycanla bu sahədə əməkdaşlığı genişləndirməyi planlaşdırır.

Deputat vurğulayıb ki, Strateji Tərəfdaşlıq haqqında Xartiya iki ölkə arasındakı münasibətlərə dəstək verəcək: "Bu sənəd ötən ilin avqustun 8-də Vaşinqton Sülh Zirvə görüşünün Bəyannaməsinə uyğun olaraq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası



arasında maneəsiz bağlantını təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq layihə - Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətini də bir daha ortaya çıxarır. Bütün bunlar göstərir ki, Azərbaycanın regionda yaratdığı yeni reallıqlar özünün müsbət rolunu oynayır. Sənəd sayəsində NATO ilə tərəfdaşlıq, sərhəd təhlükəsizliyi, terrorra qarşı birgə mübarizə sahəsində əməkdaşlıq daha da genişlənəcək. Ölkəmizin nəqliyyat qovşaqlarının mərkəzində yerləşməsi, bu istiqamətdə həyata keçirdiyi layihələr, Avrasiya nəqliyyat və enerji qovşağı olması, həmçinin Amerika üçün Orta dəhlizin təhlükəsizliyinin strateji məsələ olması iki ölkə arasındakı münasibətlərə də təsir göstərir".

V.İskəndərov diqqətə çatdırıb ki, ABŞ ilə Azərbaycan həmçinin süni intellekt, rəqəmsal texnologiyalar sahəsində də əməkdaşlıq edəcəklər. Bu sahədə ABŞ investisiyalarının ölkəmizə axını da gözlənilir. Rəqəmsal informasiya və təhlükəsizlik, startap sahələrində əməkdaşlığın və təcrübənin vacib olduğu hər kəsə məlumdur. Bununla biz təcrübəli ölkədən yararlana biləcəyik. "Digər mühüm məsələ Azərbaycanın iqtisadi diversifikasiyadır. Belə ki, qeyri-neft sektorunun inkişafı üçün ABŞ kapitalı və təcrübəsi də gələcəkdə mühüm rol oynaya bilər", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, ümumilikdə bu xartiya Azərbaycanı enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları baxımından ABŞ üçün strateji tərəfdaşa çevirir. Zaman ötdükcə münasibətlər ən yüksək səviyyəyə qalxacaq. Azərbaycanın qlobal dünyada artan rolunun region dövlətləri, eyni zamanda ABŞ üçün də önəmli olduğu qabarıq şəkildə üzə çıxacaq. Bu da Azərbaycanın ən böyük uğurlarından biri sayılmalıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Uzunmüddətli inkişafın dayaqlarından biri

**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə bir daha göstərdi ki, rəqəmsallaşma dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu sırada dövlət-vətəndaş münasibətlərinin yeni mərhələyə qədəm qoyması hədəflərdən biri kimi özünü göstərir.**



Milli Məclisin deputatı Aydın Hüseynov qəzetimizə açıqlamasında bildirib ki, müşavirədə vurğulanan əsas məqam dövlət informasiya sistemlərinin vahid arxitektura əsasında qurulması və inteqrasiyası idi. Bu gün müxtəlif qurumlarda formalaşmış məlumat bazalarının paralel və əlaqəsiz fəaliyyəti həm vaxt itkisinə, həm də resursların səmərəsiz istifadəsinə səbəb olur. "Yeni rəqəmsal arxitektura isə məlumatın vahid platformada toplanmasını, sistemlər arasında interoperabelliyin təmin olunmasını və xidmətlərin daha sürətli, şəffaf və əlçatan formada təqdim edilməsini nəzərdə tutur. Bu, vətəndaşın vaxtına qənaət deməkdir, eyni zamanda prosesi avtomatlaşdıran və subyektiv amillərdən qaynaqlanan prosesləri tənzimləməyən modeldir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, rəqəmsal transformasiyanın mühüm istiqamətlərindən biri də süni intellekt və onun idarəetmədə tətbiqidir. Məqsəd effektiv idarəetmə məlumatı toplamaqla yanaşı, həmin məlumatı analiz edərək düzgün qərar verən struktura çevrilməkdir. Bu struktur bir çox data əsaslı yanaşma risklərinin əvvəlcədən müəyyənləşdirilməsinə, resursların daha düzgün bölüşdürülməsinə və strateji planlaşmaya imkan yaradacaq. Bu baxımdan rəqəmsal arxitektura ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm dayaqlarından biri kimi çıxış edir.

Rəqəmsallaşmanın texniki infrastrukturunun qurulması ilə məhdudlaşmadığını deyən A.Hüseynov bildirib ki, bu proses güclü kibertəhlükəsizlik sistemini də tələb edir: "Dövlət informasiya resurslarının təhlükəsizliyi və şəxsi məlumatların müdafiəsi rəqəmsallaşmada etimadın əsas şərtidir. Əks halda texnoloji irəliləyişlər risk faktoruna çevrilə bilər. Ona görə də milli səviyyədə koordinasiyalı və müasir standartlara cavab verən təhlükəsizlik mexanizmlərinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın qarşısında duran vacib məsələlərdən biri də insan kapitalının bu transformasiyaya uyğunlaşdırılmasıdır. Rəqəmsallaşma bu sahədə bacarığı olan kadrlar tələb edir. Təhsil sistemində kodlaşdırma, data analitikası və süni intellekt üzrə biliklərin genişləndirilməsi, dövlət qulluqçularının yeni idarəetmə alətlərinə adaptasiyası strateji zərurətdir".

Deputat vurğulayıb ki, rəqəmsal arxitektura həm də iqtisadi transformasiya deməkdir. Startap ekosisteminin inkişafı, innovativ sahibkarlığın təşviqi, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi ölkənin qeyri-neft sektorunun inkişafına təkan verə bilər. Texnologiyaya əsaslanan iqtisadi model rəqabət qabiliyyətini artırır və Azərbaycanı regional rəqəmsal mərkəzə çevirmək imkanı yaradır. Yeni rəqəmsal arxitektura həm də yeni strateji prosesdir. Əsas məsələ qəbul olunan qərarların ardıcıl icrası, institusional koordinasiya və cəmiyyətin bu prosesə fəal şəkildə cəlb edilməsidir. Rəqəmsallaşma bu gün atılan addımların nəticəsində formalaşır.

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan Serbiyanın güvənli tərəfdaşıdır

### Prezident İlham ƏLİYEV: "Energetika sahəsində əlaqələrimiz çoxşaxəli formatda inkişaf edir"

**Azərbaycan-Serbiya iqtisadi əlaqələrində enerji əməkdaşlığı xüsusi yer tutur. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri çərçivəsində imzalanan sənədlərdən biri də məhz bu sektora aiddir. Belə ki, "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz-turbin elektrik stansiyasının layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş" imzalanıb.**

Əvvəla xatırladaq ki, Serbiya Azərbaycandan qaz alan 16 ölkədən biridir və bu sırada səkkizinci olub. 2023-cü il dekabrın 10-da Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi ilə tərəfdaşlıq münasibətləri daha da möhkəmlənib. Məlum olduğu kimi, bu interkonnektor "Cənub qaz dəhlizi"nə inteqrasiya edilib.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru ixrac infrastrukturunun zənginləşməsi üçün atılan növbəti uğurlu addım idi. Açılış mərasimində Prezident İlham Əliyev də iştirak edirdi. Həmin vaxt Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Niş şəhərində ölkəmizin media nümayəndələrinə müsahibəsində söyləmişdi ki, bu, onlar üçün çox vacib bir layihədir. O, həmçinin qeyd etmişdi: "Bu həm də Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Bizim gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanımız da olacaq ki, bu da Serbiyanın ümumi enerji təhlükəsizliyində mühüm rol oynayacaq".

Bu il fevralın 15-də dövlətimizin başçısının Serbiyaya rəsmi səfəri çərçivəsində hər iki Prezident mətbuata bəyanatla çıxış edib. Aleksandar Vuçiç qarşımızda elektrik enerjisi dövrü başlandığını vurğulayaraq Prezident Əliyevdən bununla bağlı olan layihədə onlara yardım göstərilməsini xahiş etdiyini bildirib: "Belə olarsa, biz işləri daha sürətlə bitirə bilərik. Bizə elektrik enerjisinin çox sayda mənbələri lazımdır. Daha çox elektrik enerjisi istehsal etməliyik. Azərbaycanın giqavatlarla ölçülən elektrik enerjisi olacaq. Lakin məsələ belədir ki, onun idxalı üçün lazımi ötürücü xətlər olacaqmı?! Biz Azərbaycan tərəfi ilə mühüm məsələlər üzərində razılığa gəldik. Bu gün Serbiyanın qaz şirkəti və SOCAR bu mövzuda söhbət aparıblar və əməkdaşlıq sazişi imzalanıb. Çalışacağıq hər bir məsələni iki və ya üç ay ərzində həll edək ki, dərhal sonra layihə sənədləri hazırlansın və tikinti başlanılsın. Tikinti iki ildən artıq çəkəcək. İnanırıq ki, biz 2029-cu ilə qədər qazla işləyən elektrik enerjisi stansiyasını açacağıq".

Stansiya üçün Niş şəhərinin ətrafında üç yer seçilib. Tikintinin ya Tripale, Kruşti, ya da Nişka Banyada aparılması gözlənilir. A.Vuçiç ən münasib yerin Kruşti olacağını düşünür. Yeni stansiyanın 500 meqavatlıq enerji istehsalı gücü olacaq.

Prezident Əliyev bu məsələ ilə məşğul olacağına söz verib. Və Serbiyanın Prezidenti də, xalqı da bilir ki, bu sözün arxasında böyük kömək dayanır. Yeri gəlmişkən, Aleksandar Vuçiç bunu dəfələrlə deyib: "İlham Əliyevin sözünə hər hansı imzadan daha çox inanırıq".

Azərbaycan şirkətləri yeni layihədə nəzarət işlərini həyata keçirəcək. Serbiya şirkətləri də işlərə qoşulacaq. "Hər iki tərəf 50 faizlə işləyəcək. Qazla işləyən 500 meqavatlıq elektrik enerjisi stansiyası tikiləcək. Bu, yaxşı nümunə olacaq. Gələcəkdə biz daha çox qazla işləyən elektrik enerjisi stansiyalarını tikməliyik. Kiçik modul tipli reaktorlar quraşdırılacaqdır. Məlumat mərkəzləri olacaq və digər məsələlər həll ediləcək. Mən amerikalılarla müzakirəyə başlamışam və əgər onlar Monteneqronun Bar limanından başlayaraq, neft və qaz kəmərlərini çəksələr, məlumat mərkəzlərini tiksələr, Priyepoledən Zlatibor dağlarından keçərək Belqrada qədər bu işləri icra etsələr, yaxşı olar. Məlumat mərkəzləri yaradılmalıdır. Süni intellektin imkanlarından istifadə etməsək, biz bir ölkə olaraq geridə qalacağıq. İlon Mask deyir ki, iki aydan sonra hər şey kəskin dəyişəcək. Sadəcə, insanlar bunu hələ görmür və bilmir. Bu səbəbdən işlər sürətləndirilməlidir və biz azərbaycanlı dostlarımıza dəstəyə görə minnətdarıq", - deyə Serbiya Prezidenti layihə haqqında ətraflı məlumat verib.

Bu elektrik stansiyasının yaradılması prosesi Serbiyada mövcud olan sərmayə imkanlarına söykənir. Təbii ki, əgər investisiya iqlimi müsbət olmasaydı, Serbiya xarici investorlar üçün o qədər də cəlbedici olmazdı. Məhz aparılan islahatlar nəticəsində bir çox ölkə, o cümlədən Azərbaycan Serbiyaya böyük həcmdə sərmayə qoymağa hazırdır.

Prezident İlham Əliyev öz bəyanatında elektrik stansiyalarının tikintisinin və yenidən qurulmasının, onların reabilitasiyasının hər bir ölkənin gələcək inkişafını təmin etdiyini bildirib. Çünki daxili enerji, istehsalat gücünün mövcudluğu hər bir ölkənin enerji təhlükəsizliyini təmin edir. Bu baxımdan xüsusilə təbii resursları olmayan ölkələr bir çox halda asılı vəziyyətə düşürlər.

Daha sonra dövlətimizin başçısı Serbiya ilə bütövlükdə energetika sahəsində əlaqələrimizin indi çoxşaxəli formatda inkişaf etdiyini bildirib: "Bir müddət bundan əvvəl biz Serbiyaya təbii qazın ixracına başlamışıq və bu gün qərara gəldik ki, ixracın həcmini artıracağıq. İndi Serbiya ixrac ediləcək qazı da elektrik enerjisinə çevirərək, artıq təmiz elektrikin əldə edilməsinə də nail olacaq. Bu həm Serbiya bazarı üçün və gələcəkdə ixrac üçün də imkanlar yaradacaq. Bu gün Azərbaycanın energetika sahəsində ixrac potensialı 2 giqavata bərabərdir. Bu rəqəm artacaq".

Çünki indi ölkəmizdə bir sıra bərpaolunan enerji stansiyalarının tikintisi davam edir. 2032-ci ilə qədər Azərbaycanda əlavə 8 giqavat enerji gücü əldə olunacaq. İstehsal olunan "yaşıl enerji"nin böyük hissəsi ixraca yönəldiəcək.

"Bunun üçün bizim yeni və daha genişhəcmli transmissiya imkanlarımız olmalıdır. Çünki bizim əsas ixrac istiqamətimiz Avropa məkanıdır", - deyə Pezidentimiz bildirib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Strateji tərəfdaşlar, dost ölkələr

### Azərbaycan-Serbiya əlaqələri intensiv şəkildə inkişaf edir

**Azərbaycan və Serbiya əlaqələri diplomatik münasibətlər baxımından 1997-ci ildən başlayıb. Xüsusilə iki dövlət arasında 2011-2012-ci illərdə daha intensiv əlaqələr formalaşıb, münasibətlər həm iqtisadi, həm diplomatik, həm də digər sahələrdə artan dinamika üzrə inkişaf edib.**



Milli Məclisin deputatı Arzuxan Əlizadə qəzetimizə açıqlamasında bildirib ki, iki ölkə arasında münasibətlər artıq strateji tərəfdaşlıq səviyyəsindədir. Bu dövr ərzində ölkələrimiz arasında 57 sənəd imzalanıb. "Strateji tərəfdaşlıqla bağlı hökumətlərarası komissiya iş aparıb, bir çox sahə üzrə ikitərəfli və çoxtərəfli müqavilələr imzalanıb. Prezident İlham Əliyevin Serbiyaya səfəri çərçivəsində də Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası keçirilib və görüşdə bir çox məsələ müzakirə olunub. Prezident İlham Əliyev və Aleksandar Vuçiç həm təkbətək, həm də geniş tərkibdə görüşlərdə ölkələr arasında münasibətləri diqqətə çəkməklə yanaşı, gələcəkdə həyata keçiriləcək layihələrlə bağlı da fikirlərini bildiriblər", - deyə o bildirib.

Azərbaycanın Serbiyaya qaz tədarük etdiyini xatırladan deputat deyib ki, ixrac olunan mavi qazın həcmi bir az da artırılacaq. Serbiyaya nəql olunan qazdan elektrik enerjisi istehsalına sərf olunacağı barədə qərara gəlinib. Bununla da münasibətlər yeni mərhələyə qədəm qoyacaq. Digər sahələrdə də iki ölkə arasında əlaqələrin daha yüksək səviyyəyə qaldırılması planlaşdırılır.

A.Əlizadə qeyd edib ki, Serbiya-Azərbaycan münasibətləri təkcə iqtisadi deyil, mədəni və digər sahələrdə də inkişaf etməkdədir: "İki dövlət arasında yalnız strateji müttəfiqlik deyil, eyni zamanda dostluq münasibətləri də formalaşıb. Bunun özəyində Prezident İlham Əliyev və Prezident Aleksandar Vuçiçin şəxsi dostluq münasibətləri xüsusi rol oynayır. Serbiya Prezidenti mətbuata bəyanatında xüsusi olaraq qeyd etdi ki, Azərbaycan Prezidentinin siyasi təcrübəsindən yararlanır".

Deputat vurğulayıb ki, Azərbaycan-Serbiya münasibətləri gələcəkdə daha yüksək səviyyədə inkişaf etdiriləcək. Bu, təbii ki, həm Azərbaycan, həm də Serbiya üçün iqtisadi və digər sahələrdə inkişaf baxımından xüsusi əhəmiyyət daşıyır. Xatırladaq ki, iki ölkə arasında əlaqələr əvvəlki dövrdə də yüksək səviyyədə olub. Bütövlükdə bu əlaqələr gələcəkdə hər iki dövlətin müxtəlif sahələrdə dividendlər əldə etməsinə vəsilə olacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qarşılıqlı etimad nümunəsi

**Bu gün Bakı ilə Belqradı yalnız siyasi dialoq deyil, həm də real iqtisadi maraqlar birləşdirir. Hər iki ölkə fərqli coğrafiyada yerləşsə də, qarşılıqlı iqtisadi maraqlar, əməkdaşlıq sahələrinin şaxələndirilməsi istiqamətində atılan addımlar Azərbaycanla Serbiya arasında iqtisadi inteqrasiyanı sürətləndirib. Xüsusilə enerji, tikinti, kənd təsərrüfatı, sənaye və infrastruktur sahələrində əməkdaşlıq imkanları ilbəil genişlənməkdədir.**

Əslində Azərbaycan-Serbiya əlaqələrinin strateji mahiyyəti həm də Prezident İlham Əliyev ilə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç arasında qurulan səmimi münasibətlərlə müəyyən edilir. Uğurlu əməkdaşlıq modeli kimi göstərilə bilən həmin münasibətlərdə liderlərin siyasi iradəsi, qarşılıqlı etimadı və davamlı təmasları mühüm rol oynayır. Dövlət başçıları arasındakı səmimi dostluq münasibətləri əməkdaşlığın müxtəlif sahələrində, o cümlədən strateji layihələrin həyata keçirilməsində əlverişli zəmin yaradaraq əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəldib.

Bu dostluq haqqında Serbiya Prezidenti Aleksandar Vuçiçin fevralın 15-də mətbuata verdiyi bəyanat zamanı dedikləri təbii ki, təsadüfi deyil: "Bu gün Prezident Əliyevlə dünyadakı və Avropadakı bütün mühüm məsələlərlə bağlı danışdım. Biz bir-birimizlə məsləhətləşdik, mən ondan öyrəndim. Bəzi prosesləri özüm müşahidə etdiyimdən daha yaxşı, daha dərindən dərk etdim. Bizim elə əlaqələrimiz var ki, nə vaxt böhran baş versə, bir-birimizə açığıq və bir-birimizlə danışırıq. Bizim əməkdaşlığımız həyatın hər bir sahəsində inkişaf edir".

Ona görə də Azərbaycan-Serbiya iqtisadi əlaqələri yalnız ticarət göstəriciləri ilə məhdudlaşmır. Bu münasibətlər eyni zamanda uzunmüddətli investisiya planlarına və qarşılıqlı etimada əsaslanan möhkəm tərəfdaşlıq modelinə söykənir. İqtisadi münasibətlərin inkişafında dövlət səviyyəsində yaradılmış əməkdaşlıq mexanizmləri də mühüm rol oynayır. Qeyd edək ki, 15 ildir fəaliyyət göstərən hökumətlərarası komissiya çərçivəsində keçirilən görüşlər iqtisadi gündəliyin sistemli şəkildə müzakirəsinə imkan yaradır. Xatırladaq ki, "Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında "Saziş"in icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya 2011-ci ildə yaradılıb. Bu platforma sahibkarların qarşılaşdığı maneələrin aradan qaldırılması, hüquqi bazanın təkmilləşdirilməsi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Biznes-forumlar isə rəsmi dialoqu iqtisadi əməkdaşlığa çevirən əsas körpü rolunu oynayır. İndiyə kimi həm Bakıda, həm də Belqradda təşkil olunan işgüzar görüşlərdə kənd təsərrüfatı məhsullarının ixracı, tikinti sektorunda birgə layihələr, logistika və sənaye parklarında əməkdaşlıq imkanları müzakirə olunub. Xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin bu platformalarda fəal iştirakı yeni tərəfdaşlıqların formalaşmasına təkan verir. Proseslərə siyasi səviyyədə verilən dəstək isə iqtisadi əməkdaşlığı sürətləndirir. İki gün öncə Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Səfər çərçivəsində Belqradda Azərbaycan və Serbiya arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının keçirilməsi münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir.

İclas siyasi dialoqun davamı olmaqla yanaşı, həm də iqtisadi əməkdaşlığın daha sistemli və planlı şəkildə inkişaf etdirilməsi üçün yol xəritəsinin müəyyənləşdirilməsi deməkdir. Dövlət başçıları səviyyəsində aparılan müzakirələr biznes dairələrinə də aydın mesaj verir: Bakı ilə Belqrad arasında tərəfdaşlıq uzunmüddətli və davamlı xarakter daşıyır. Strateji Tərəfdaşlıq Şurasının fəaliyyəti çərçivəsində ticarət dövriyyəsinin artırılması, investisiyaların təşviqi və sahibkarlar üçün daha əlverişli mühitin yaradılması əsas prioritetlər kimi önə çıxır. Bu isə biznes-forumlarda müzakirə olunan təşəbbüslərin real layihələrə çevrilməsi üçün əlavə zəmin formalaşdırır. Serbiya şirkətləri Azərbaycan bazarını Cənubi Qafqaza açılan qapı kimi qiymətləndirir, Azərbaycan iş adamları isə Serbiyanı Balkan və Mərkəzi Avropa bazarlarına çıxış imkanı kimi görürlər. Bu qarşılıqlı maraq iqtisadi əlaqələrin coğrafiyasını genişləndirir və tərəfdaşlığı strateji baxımdan daha da zənginləşdirir.

Məhz bu strateji əməkdaşlıq iqtisadi maraqların genişlənməsinə və ticarət, eləcə də investisiya nəticələrinin əldə olunmasına şərait yaradır. Maliyyə naziri Sahil Babayev səfər çərçivəsində Serbiyanın Dövlət Müstəqilliyi və Silahlı Qüvvələr Günü münasibətilə keçirilən qəbul zamanı qeyd edib ki, Azərbaycanın Serbiyadan idxalı 55 faiz artıb, ikitərəfli ticarət dövriyyəsi isə 2025-ci ildə 135 milyon dollar təşkil edib. "Əminik ki, birgə səylərlə Azərbaycan-Serbiya ticarət əlaqələri daha da genişlənəcək. İnvestisiya sahəsində əməkdaşlıq da artır. Serbiyadan Azərbaycana yönələn investisiyalar qeyri-neft sektorunda təxminən 10 milyon dollara çatıb", - deyə nazir bildirib, son illər iki ölkə arasında əməkdaşlığın geniş sahələrdə - ticarət, investisiya, enerji, sənaye, nəqliyyat, kənd təsərrüfatı, sosial siyasət, mədəniyyət və humanitar sahələrdə əhəmiyyətli şəkildə artdığını vurğulayıb.

Bu statistikanın arxasında isə təbii ki, iş adamlarının fəal iştirakı dayanır. Son illər hər iki ölkənin işgüzar dairələrinin iştirakı ilə keçirilən Hökumətlərarası Komissiyanın iclasları çərçivəsində biznes-forumlar təşkil olunur və bu tədbirlərdə indiyə kimi 30-a yaxın Azərbaycan şirkəti ilə 20-dən çox Serbiya biznes nümayəndəsi bir araya gəliblər. İş adamlarının bu cür təşəbbüslərdə iştirakı iki ölkənin iqtisadi münasibətlərinin yalnız rəsmi statistikadan ibarət olmadığını, real biznesin gündəlik həyatında da canlandığını göstərir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider




## Azərbaycan daha geniş geosiyasi sistemin iştirakçısı olduğunu bir daha sübut etdi

**Münxen Təhlükəsizlik Konfransı artıq uzun illərdir qlobal təhlükəsizlik gündəliyinin formalaşdığı əsas siyasi platformalardan biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu tədbir çərçivəsindəki panel müzakirəsində iştirakı, keçirdiyi görüşlər, verdiyi müsahibələr isə, sadəcə, diplomatik aktivlik deyil, ölkəmizin beynəlxalq sistemdə mövqeyinin necə dəyişdiyini nümayiş etdirən siyasi göstəricilər kimi qiymətləndirilə bilər.**

Konfrans çərçivəsində təşkil edilmiş "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" paneli təkcə iqtisadi marşrutlar və nəqliyyat layihələri barədə texniki müzakirə təsiri bağışlamırdı. Prezident İlham Əliyevin paneldəki çıxışı, suallara verdiyi cavablar Azərbaycanın regiondakı rolu, sülh gündəliyinə yanaşmasını və Avrasiya geosiyasətində özünü necə təqdim etdiyini açıq şəkildə göstərdi.

Paneldən çıxan əsas nəticə ondan ibarətdir ki, Azərbaycan özünü artıq yalnız tranzit ölkə kimi deyil, Avrasiyanın siyasi, iqtisadi və logistika arxitekturasını formalaşdıran güclü subyekt mövqeyində təqdim edir.

### Tranzit ölkədən geosiyasi qovşağa

Prezident İlham Əliyevin suallara ilk cavablarında əsas vurğu Azərbaycanın son illərdə nəqliyyat və logistika infrastrukturuna yatırdığı sərmayələrə yönəldi. Bu, sadəcə, iqtisadi layihələr deyil, ölkənin uzunmüddətli geosiyasi strategiyasının əsas elementidir.

Azərbaycanın liman, dəmir yolu, magistral və hava nəqliyyatı sisteminə yatırdığı investisiyalar tranzit potensialını artırmaqla yanaşı, ölkəmizi Avropa ilə Asiya arasında alternativ və dayanıqlı marşrut kimi möhkəmləndirir. Prezidentin yük həcminin gələcəkdə 500 min nəqliyyat vahidinə çatdırılması barədə açıqlaması rəsmi Bakının logistika sahəsində regional liderlik ambisiyasını aşkar göstərir, Azərbaycanın Orta dəhlizə, sadəcə, iqtisadi layihə kimi deyil, geosiyasi alət kimi yanaşdığını da nümayiş etdirir.

Cənab İlham Əliyev Ermənistanla sülh prosesinə dair suallara cavabları ilə Azərbaycanın regional strategiyasının əsas fəlsəfəsini də ortaya qoydu. Dövlətimizin başçısı sülh müqaviləsinin imzalanmasının hüquqi şərtlərindən danışsa da, əsas mesaj başqa idi: sülh təkcə sənəd deyil, Ermənistanın qonşularına qarşı ərazi iddalarından reallıqda da tam geri çəkilməsi, iqtisadi və nəqliyyat inteqrasiyası ilə möhkəmlənən prosesdir.

Bağlantı layihələrinin etimad quruculuğu vasitəsi kimi təqdim edilməsi Azərbaycanın regionda yeni əməkdaşlıq modelini təşviq etdiyini göstərir. Bu modelin əsas məntiqi belədir ki, iqtisadi qarşılıqlı asılılıq siyasi sabitlik yaradır və sabitlik naminə qarşılıqlı iqtisadi əməkdaşlıq mühiti formalaşdırılmalıdır. Zəngəzur dəhlizinin - başqa sözlə, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin təsviri də bu kontekstdə verildi. Çin-Mərkəzi Asiya-Azərbaycan-Ermənistan-Türkiyə-Avropa xəttinin təqdim olunması isə Azərbaycanın özünü regional körpü deyil, inteqrasiya platforması kimi təqdim etməsi deməkdir. "Marşrut boyunca bütün ölkələr həm siyasi, həm iqtisadi baxımdan daha sıx inteqrasiya olunacaq və həmin addım Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və əbədi sülhə növbəti töhfə olacaq. Çünki sülh, həqiqi sülh prosesi getdikdə əldə oluna bilər. Sənədin imzalanması vacibdir. O, bünövrədir. Lakin sonra gördüyünüz işlərin də əhəmiyyəti heç də az deyil" - deyə Azərbaycan Prezidenti panel çıxışında bildirdi.

Paneldə cənab İlham Əliyevin ABŞ Administrasiyasının layihəyə marağı ilə bağlı bölüşdüyü fikirlər xüsusilə diqqətçəkən mesajlar idi. TRIPP layihəsinin ABŞ rəhbərliyi tərəfindən dəstəklənməsinin vurğulanması bu marşrutun yalnız iqtisadi deyil, siyasi təhlükəsizlik layihəsi kimi də qəbul olunduğunu göstərir.

Azərbaycanın Türkiyə ilə birlikdə əvvəlki enerji və nəqliyyat layihələrini Qərbin praktiki iştirakı olmadan reallaşdırması barədə xatırlatma isə ölkəmizin regionda təşəbbüskar aktor rolunun daha bir təcəssümüdür. Bu mesaj Azərbaycanın müstəqil geosiyasi oyunçu statusunu vurğulayır.

Dövlətimizin başçısının çıxışında Çin, Mərkəzi Asiya və Xəzər regionunun xüsusi vurğulanması rəsmi Bakının Avrasiya inteqrasiyasını geniş perspektivdə gördüyünə dəlalət edir, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə yaxınlaşmasının qeyd olunması da ölkəmizin yalnız Qərb-Şərq deyil, həm də Şimal-Cənub istiqamətində bağlantı siyasəti qurduğunu göstərir. Bu yanaşma Bakının yeni dünya ticarət xəritəsində özünü logistika və enerji mərkəzi kimi yerləşdirmək strategiyasına uyğundur.

Azərbaycan Prezidenti İlham Əliyev dedi: "…Biz region ölkələri haqqında danışdıq və Xəzər dənizinin o tayında Mərkəzi Asiyadakı qonşularımızı unutmamalıyıq. Çünki onlar olmadan Çindən Avropaya heç bir yük daşımaq mümkün olmayacaq. Beləliklə, Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Avropa - coğrafiya budur və Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə çox fəal qarşılıqlı əlaqədədir. Ötən ilin noyabrında Azərbaycan rəsmi olaraq Mərkəzi Asiya beşliyinə daxil edildi, Mərkəzi Asiya beşliyi altılığa çevrildi. Bu, misli görünməmiş bir hadisədir, çünki biz Cənubi Qafqaz ölkəsiyik, amma Mərkəzi Asiya Məşvərət Şurasının üzvüyük".

Paneldə Rusiya ilə bağlı suala verilən cavab Azərbaycanın ənənəvi balans siyasətinə sadiqliyini bir daha nümayiş etdirdi. Cənab İlham Əliyev Ukraynada Azərbaycan obyektlərinə hücumların qəbulolunmazlığını bildirərək, eyni zamanda rəsmi Bakının böyük güclər arasında açıq qarşıdurmalarda tərəf olmaqdan yayınmaq, lakin milli maraqlarımıza zidd məqamlarda öz haqlı mövqeyini də diplomatik yolla müdafiə etmək strategiyasını yüksək peşəkar üslubla bir daha sərgiləmiş oldu.

### Təhlükəsizlik tərəfdaşlığına keçid

Prezident İlham Əliyevin Münxendə keçirdiyi görüşlər isə Azərbaycanın xarici siyasətində dörd əsas istiqaməti üzə çıxardı. Bunlar Avropa ilə strateji tərəfdaşlığın dərinləşdirilməsi, enerji diplomatiyasının möhkəmləndirilməsi, regional təsir dairəsinin genişlənməsi və balanslı beynəlxalq siyasətin qorunmasıdır.

Cənab İlham Əliyevin Slovakiyanın Baş nazirinin müavini və müdafiə naziri ilə görüşü və görüş zamanı hərbi-texniki əməkdaşlığın müzakirəsi Azərbaycanın Avropa ilə münasibətlərinin artıq təkcə enerji sahəsi ilə məhdudlaşmadığını göstərir. Azərbaycanın Avropa təhlükəsizlik sistemində yeni tərəfdaş kimi qəbul olunması ölkənin beynəlxalq mövqeyinin dəyişdiyini nümayiş etdirir. Bu proses Bakının geosiyasi çəkisinin artması ilə paralel gedir.

Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşetlə görüşdə isə sülh prosesi və regional əməkdaşlıq məsələlərinin müzakirəsi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasından sonrakı mərhələdə özünü regional sabitlik təşəbbüskarı kimi təqdim etmək strategiyasının beynəlxalq səviyyədə qəbul olunduğunu göstərir. Bu görüşlər ona dəlalət edir ki, Azərbaycan artıq təkcə regional oyunçu kimi deyil, həm də regional nizamın formalaşmasında iştirak edən güclü dövlət kimi qəbul edilməkdədir.

Bolqarıstan rəhbərliyi və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi ilə görüşlər, aparılan müzakirələr Azərbaycanın Avropa üçün enerji təhlükəsizliyi baxımından mühüm tərəfdaş olaraq qalmaqda davam etdiyini təsdiqləyir. Enerji əməkdaşlığının nəqliyyat, elektrik enerjisi və logistika layihələri ilə genişlənməsi isə Azərbaycanın Avropa ilə münasibətlərini daha dərin strateji səviyyəyə qaldırır.

Bolqarıstanla münasibətlərdə mədəni və humanitar əməkdaşlığın vurğulanması Azərbaycanın son illərdə yumşaq güc siyasətini sistemli şəkildə qurduğunu göstərir. Mədəniyyətlərarası dialoq təşəbbüsləri və beynəlxalq forumlara evsahibliyi ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır.

### Çoxvektorlu strategiya

Azərbaycan Prezidenti Münxendə İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə də görüşdü. Bu görüş Azərbaycanın Yaxın Şərq istiqamətində diplomatik xəttinin aktiv şəkildə davam etdiyini göstərir. Həmin əlaqələr Azərbaycanın öz fəaliyyətini yalnız Cənubi Qafqazın aparıcı dövləti olaraq məhdudlaşdırmadığını, daha geniş regionlarda iqtisadi və siyasi tərəfdaşlıq şəbəkəsi qurmağa çalışdığını göstərir. Bu, xüsusilə nəqliyyat marşrutları, enerji əməkdaşlığı və ticarət imkanları baxımından Azərbaycanın regional rolunun genişlənməsinə xidmət edir.

Ukraynanın Prezidenti Volodimir Zelenski ilə görüş də balans siyasətinin və humanitar diplomatiyanın göstəricisi kimi diqqətçəkən idi. Bu görüş və müzakirələr Azərbaycanın beynəlxalq siyasətində balans prinsipinin davam etdiyini göstərir. Görüşdə enerji əməkdaşlığı perspektivlərinin müzakirəsi Azərbaycanın regional enerji aktoru kimi rolunun Şərqi Avropa istiqamətində də genişlənə biləcəyini nümayiş etdirir. Eyni zamanda Ukraynaya göstərilən humanitar dəstəyin vurğulanması ölkəmizin beynəlxalq siyasətdə yalnız geosiyasi deyil, həm də humanitar məsuliyyət prinsiplərinə əsaslandığını göstərir. Bu, Azərbaycanın beynəlxalq imicinə müsbət təsir edən mühüm elementdir. Belə yanaşma Bakıya müxtəlif siyasi bloklar arasında balanslı siyasət aparmaq imkanı verir və ölkənin tərəfdaş kimi qəbul olunmasını gücləndirir.

### Texnoloji diplomatiya

Azərbaycan Prezidenti Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Oracle" korporasiyasının və "Goldman Sachs" şirkətinin rəhbərliyi ilə də görüşlər keçirdi. "Oracle" rəhbərliyi ilə görüşü Azərbaycanın Münxen konfransındakı diplomatik xəttinin yalnız siyasi və təhlükəsizlik məsələləri ilə məhdudlaşmadığını, texnoloji transformasiyanın da xarici siyasətin əsas istiqamətlərindən birinə çevrilməsinə dəlalət edir. Bu görüş əslində Azərbaycanın yeni inkişaf modelinin əsas elementlərindən biri olan rəqəmsallaşma və süni intellekt siyasətinin beynəlxalq tərəfdaşlıq üzərində qurulduğunu vurğulayır. "Oracle" kimi qlobal texnologiya nəhəngi ilə əməkdaşlığın genişləndirilməsi ölkənin dövlət idarəçiliyində, iqtisadiyyatda və təhsil sistemində rəqəmsal infrastrukturu gücləndirmək niyyətini əsas tutur.

Xüsusilə ali təhsil müəssisələrində fəaliyyət göstərən "Oracle" akademiyaları bu əməkdaşlığın yalnız biznes və texnologiya səviyyəsində deyil, həm də insan kapitalının inkişafına yönəldiyini diqqətə çatdırır. Bu, Azərbaycanın uzunmüddətli perspektivdə texnoloji kompetensiyaya əsaslanan iqtisadi model qurmaq strategiyasının mühüm elementidir.

Eyni zamanda görüşdə ABŞ ilə strateji tərəfdaşlıq çərçivəsində süni intellekt sahəsinin prioritet kimi qeyd olunması Azərbaycanın qlobal texnoloji gündəlikdə özünə yer tutmaq cəhdini göstərir. Bu isə ölkənin enerji ixracatçısı imicindən kənara çıxaraq innovasiya və rəqəmsal iqtisadiyyat aktoru kimi formalaşmaq niyyətinin göstəricisi kimi qiymətləndirilə bilər.

"The Goldman Sachs Group Inc." şirkətinin rəhbərliyi ilə görüş Azərbaycanın beynəlxalq maliyyə sistemində mövqeyinin möhkəmləndirilməsi istiqamətində atılan mühüm addımdır.

2010-cu ildən bəri davam edən tərəfdaşlığın vurğulanması Azərbaycanın qlobal maliyyə institutları ilə uzunmüddətli əməkdaşlıq strategiyasına sadiq qaldığını, Dövlət Neft Fondu ilə əməkdaşlığın qeyd olunması isə ölkənin maliyyə idarəçiliyində beynəlxalq institutlarla işləmə modelini davam etdirdiyini göstərir.

Bu görüşün əsas siyasi-iqtisadi mənası ondan ibarətdir ki, Azərbaycan yalnız enerji ixrac edən ölkə kimi deyil, həm də qlobal kapital bazarları ilə inteqrasiya olunmuş maliyyə tərəfdaşı kimi çıxış etməyə çalışır. Belə əməkdaşlıq ölkəyə investisiya cəlbi imkanlarını artırmaqla yanaşı, maliyyə sektorunun beynəlxalq standartlara uyğun inkişafına da şərait yaradır.

Bu tip görüşlər həmçinin Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi siyasətinin mühüm komponenti kimi qiymətləndirilə bilər. Qlobal maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsi ölkənin qeyri-neft sektoruna investisiya axınını sürətləndirmək və beynəlxalq iqtisadi əlaqələrini gücləndirmək baxımından strateji əhəmiyyət daşıyır.

Konfrans çərçivəsində Azərbaycan Prezidenti yerli telekanalların suallarını cavablandırdı, gündəlikdəki bir çox aktual məsələyə aydınlıq gətirdi, həmçinin Fransanın "France 24" televiziyasına geniş müsahibə verərək Azərbaycan-Fransa münasibətlərindən irəli gələn məqamlarla bağlı ölkəmizin mövqeyini bölüşdü.

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakının siyasi nəticələri bir daha nümayiş etdirir ki, Azərbaycan xarici siyasətində çoxvektorlu strategiyanı davam etdirərək beynəlxalq sistemdə öz rolunu genişləndirir. Ölkəmiz regionda sülh gündəliyinin əsas təşəbbüskarlarından biridir. Avropa üçün enerji tərəfdaşından daha geniş təhlükəsizlik tərəfdaşına çevrilir. Yaxın Şərq və Şərqi Avropa istiqamətlərində diplomatik təsirini artırır. Humanitar və mədəni diplomatiya vasitəsilə beynəlxalq imicini gücləndirir.

Beləliklə, builki Münxen Təhlükəsizlik Konfransı Azərbaycanın daha geniş geosiyasi sistemdə aktiv və təsirli iştirakçıya çevrildiyini bir daha təsdiqlədi.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Azərbaycan-Serbiya münasibətləri strateji və uzunmüddətli əməkdaşlıq mərhələsinə daxil olur"

**"Azərbaycan Prezidenti İlham Əliyevin və Serbiya Prezidenti Aleksandar Vuçiçin mətbuata birgə bəyanatlarında səsləndirilən fikirlər Azərbaycan-Serbiya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçdiyini aydın şəkildə nümayiş etdirir".**

Bunu AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Ülviyyə Zülfüqar deyib.

Onun sözlərinə görə, rəsmi Bakı və Belqrad artıq münasibətləri yalnız ənənəvi ticarət və diplomatik əlaqələr çərçivəsində deyil, daha geniş, strateji və uzunmüddətli əməkdaşlıq modeli əsasında inkişaf etdirmək niyyətindədir. Bu modelin iqtisadiyyat, enerji və texnologiya kimi əsas istiqamətləri əhatə etməsi tərəflərin gələcəyə hesablanmış yanaşmasından xəbər verir.

Ülviyyə Zülfiqar qeyd edib ki, investisiya forumlarının təşkili təşəbbüsü və "EXPO-2027" çərçivəsində qarşılıqlı iştirak məsələsi iqtisadi münasibətlərin institusional əsasda dərinləşdirilməsinə xidmət edir. "EXPO-2027"nin Belqradda keçirilməsi fonunda Azərbaycanın fəal iştirakı ölkəmizin Cənub-Şərqi Avropada iqtisadi mövqelərini daha da gücləndirəcək və Azərbaycan biznesi üçün yeni imkanlar açacaq.



"Enerji sahəsində əməkdaşlıq Azərbaycan-Serbiya münasibətlərinin əsas strateji dayaqlarından biri kimi çıxış edir. Azərbaycanın zəngin enerji təcrübəsi və ixrac potensialı Serbiyanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynaya bilər. Bu kontekstdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu nəzərə alındıqda, Serbiya ilə əməkdaşlıq "Cənub qaz dəhlizi" xəttinin strateji əhəmiyyətini daha da genişləndirə bilər", - deyə siyasi şərhçi qeyd edib.

O vurğulayıb ki, birgə bəyanatlarda süni intellekt, məlumat mərkəzləri və gələcəyin enerji infrastrukturu kimi sahələrin xüsusi vurğulanması münasibətlərin artıq təkcə enerji və ticarət çərçivəsi ilə məhdudlaşmadığını göstərir. Rəqəmsal transformasiya və innovativ texnologiyalar üzərində qurulan əməkdaşlıq hər iki ölkənin iqtisadiyyatının dayanıqlığını artırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Ülviyyə Zülfiqar hesab edir ki, Azərbaycanın son illərdə rəqəmsal hökumət, "ağıllı şəhər" və "yaşıl enerji" sahələrində qazandığı təcrübə Serbiya üçün də maraqlı və praktik model ola bilər. Azərbaycan-Serbiya tərəfdaşlığı regional əməkdaşlıq formatlarına da yeni dinamika gətirir. Balkan ölkələri ilə Cənubi Qafqaz arasında iqtisadi və enerji bağlantılarının güclənməsi Avropanın şərq və cənub-şərq istiqamətlərində alternativ enerji və logistika marşrutlarının formalaşmasına şərait yaradar ki, bu da mövcud qlobal geosiyasi şəraitdə xüsusi aktuallıq kəsb edir.

Sonda siyasi şərhçi vurğulayıb ki, dövlət başçılarının birgə bəyanatlarında səsləndirilən təşəbbüslər Azərbaycan-Serbiya münasibətlərini daha geniş və kompleks strateji modelə istiqamətləndirir. Bu model isə enerji təhlükəsizliyi, investisiya əməkdaşlığı və rəqəmsal transformasiya kimi əsas elementləri birləşdirərək iki ölkə arasında tərəfdaşlığın uzunmüddətli və dayanıqlı əsaslar üzərində qurulduğunu göstərir.

# Azərbaycan Gimnastika Federasiyasının hesabat-seçki xarakterli ümumi yığıncağı olub

**Azərbaycan Gimnastika Federasiyasının (AGF) hesabat-seçki xarakterli 16-cı ümumi yığıncağı keçirilib.**






AGF-dən AZƏRTAC-a bildirilib ki, rəsmi açılışdan sonra federasiyanın vitse-prezidenti Altay Həsənov 2021-2025-ci illər ərzində federasiyanın fəaliyyəti, keçirilən yarışlar və əldə olunan nəticələr barədə videohesabatla çıxış edib. O bildirib ki, son beş ildə Azərbaycan gimnastikası dinamik inkişaf edib və gimnastlarımız beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil ediblər.

AGF-nin maliyyə direktoru Viktoriya Abuşova isə 2021-2025-ci illər üzrə maliyyə hesabatını təqdim edib. Ümumi yığıncaqda federasiyanın Nizamnaməsinə müvafiq dəyişikliklər edilib və yeni redaksiyada təsdiqlənib. Federasiyanın Nəzarət-Təftiş və İntizam Komissiyalarının strukturunda dəyişikliklər aparılıb, Atletlər və Apellyasiya Komissiyalarının formalaşdırılması Nizamnamədə öz əksini tapıb.

Daha sonra İcra Komitəsinə seçkilər keçirilib. Səsvermənin nəticələrinə əsasən, Mehriban xanım Əliyeva növbəti beş il müddətinə yenidən AGF-nin prezidenti (İcra Komitəsinin sədri) seçilib. Altay Həsənov federasiyanın vitse-prezidenti (İcra Komitəsinin sədr müavini), Rauf Əliyev, Rafiq Beybutov və Vəfa Bəkərova isə növbəti beş il müddətinə İcra Komitəsinin üzvləri kimi təsdiq ediliblər.

İclasda "İntizam Qaydaları", "Etika Qaydaları", habelə "Gimnastikada təhlükəsiz mühitin təminatı və iştirakçıların şəxsiyyətinin qorunması Qaydaları" müzakirə olunaraq qəbul edilib. Belə ki, Mahir Rəfiyev, Elşad Nərimanov və Ruslan Mirzəzadə Nəzarət-Təftiş Komissiyasının, Nazim Rəcəbov, Aytac Qasımova, Elmar Cəlilov, Namiq Əliyev və Jalə Əhmədova İntizam Komissiyasının, Xaqani Məmmədov, Elçin Usub və Rəşad Axundov isə Apellyasiya Komissiyasının üzvləri seçiliblər.

Sonda 2025-ci ildə mötəbər yarışlarda yüksək nəticələr əldə etmiş idmançılar xatirə medalları ilə təltif olunublar.

# Bakıda IV Aqrar Startaplar və İnnovasiya Forumu keçirilib







**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və ADA Universitetinin Kənd təsərrüfatı və qida elmləri fakültəsinin birgə təşkilatçılığı ilə IV Aqrar Startaplar və İnnovasiya Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, forum ADA Universitetinin nəzdində fəaliyyət göstərən İtaliya-Azərbaycan Universitetində baş tutub.

Forumda dövlət qurumlarının nümayəndələri, ali təhsil müəssisələrinin rəhbərləri, akselerasiya və inkubasiya mərkəzlərinin təmsilçiləri, investorlar, aqrar startapçılar, kənd təsərrüfatı sahəsində ixtisaslaşmış şirkətlər iştirak ediblər.

IV Aqrar Startaplar və İnnovasiya Forumunda aqrar startapçıların, akselerasiya və inkubasiya mərkəzlərinin, eləcə də özəl sektor nümayəndələrinin təqdim etdiyi innovativ həll və texnologiya nümunələri sərgilənib.

Sərgidə müxtəlif müsabiqə və yarışların qalibləri, "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində iştirak edən 90-dan çox startapçı 43 innovativ məhsulla təmsil olunub. Eyni zamanda 20 ali təhsil müəssisəsi, 20-dən artıq akselerasiya və inkubasiya mərkəzi, Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat institutları və aqrar sahədə fəaliyyət göstərən özəl şirkətlər məhsul və xidmətlərini təqdim ediblər.

Nümayiş olunan layihələr arasında süni intellekt əsaslı suvarma sistemləri, aqrorobot texnologiyaları, torpaq və məhsul monitorinqi həlləri, alternativ enerji və bioyanacaq layihələri, "ağıllı istixana" sistemləri və rəqəmsal aqrar platformalar yer alıb.

Forumun rəsmi açılış mərasimində çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev bildirib ki, ölkəmizdə kənd təsərrüfatına artan marağı nəzərə alaraq, bu sərginin xüsusi əhəmiyyəti var. "ADA Universitetində Kənd təsərrüfatı və qida elmləri fakültəsinin yaradılmasından iki ildən çox vaxt keçir. Bu müddət ərzində fakültənin inkişafında belə təşəbbüs və platformaların rolu əvəzsizdir. Sərgi çərçivəsində startap layihələrinin stendlərini izləyərkən tələbələrimizin öz işlərini böyük həvəslə və inamla təqdim etməsi gənclərin bu sahəyə olan sevgisinin və marağının bariz göstəricisidir", - deyə rektor əlavə edib.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında bildirib ki, müasir dövrdə qlobal iqtisadiyyat innovasiya əsaslı inkişaf modelinə keçir. Azərbaycan da dünya iqtisadi sisteminə inteqrasiya prosesində iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında innovativ və rəqəmsal yanaşmaların tətbiqini genişləndirir.

Kənd Təsərrüfatı Nazirliyinin startap ekosisteminin inkişafına xüsusi diqqət yetirdiyini deyən nazir gənclərin aqrar sahəyə marağının artırılması məqsədilə müsabiqələr, hakatonlar və innovativ layihələr həyata keçirildiyini bildirib. O əlavə edib ki, nazirlik tərəfindən aqrar startaplara göstərilən mövcud dəstək tədbirləri ilə yanaşı, aqrar startap ekosisteminin genişləndirilməsi və fermerlərin innovativ xidmətlərdən istifadəsinin təşviqi planlaşdırılır.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov çıxışında aqrar sahədə innovasiyaların tətbiqinin strateji əhəmiyyətinə toxunub, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinin, iqlim dəyişiklikləri fonunda resurslardan səmərəli istifadənin vacibliyinə, süni intellekt əsaslı həllərin tətbiq perspektivlərinə diqqət çəkib.

O bildirib ki, forumda iştirak edən startapçılar may ayında keçiriləcək "CaspianAgro 19" Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində öz innovativ həllərini təqdim edəcəklər.

Çıxışlardan sonra aqrar startaplar haqqında videoçarxlar nümayiş olunub və uğurlu startapçılar forum iştirakçılarına öz innovativ layihələrinin təqdimatını həyata keçiriblər.

Daha sonra akselerasiya və inkubasiya mərkəzlərində mentorluq dəstəyi alan və layihələrini təkmilləşdirən startapçılar sertifikatlarla təltif olunublar.

Forum çərçivəsində həmçinin "Aqrar startaplar ekosisteminin inkişafının perspektivləri" və "İnnovasiyaların formalaşdırılması və tətbiqində bilik və akademiyanın rolu" mövzularında panel müzakirələr keçirilib.

Müzakirələrdə universitet-sənaye əməkdaşlığının gücləndirilməsi, elmi tədqiqatların kommersiyalaşdırılması və investisiya mühitinin təkmilləşdirilməsi mövzuları ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, IV Aqrar Startaplar və İnnovasiya Forumu aqrar innovasiya ekosisteminin gücləndirilməsi, startapların bazara çıxış imkanlarının genişləndirilməsi, investorlarla əməkdaşlığın qurulması və elmi biliklərin praktik tətbiqinin təşviqi baxımından mühüm platforma rolunu oynayır.

# Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva "Qaranlıqdan sonra" adlı tədbirdə iştirak edib





**"Azərbaycan Uşaqları" İctimai Birliyinin təşkilatçılığı ilə "Qaranlıqdan sonra" adlı xüsusi tədbir keçirilib.**





AZƏRTAC xəbər verir ki, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva tədbirdə iştirak edib.

Tədbirin keçirilməsində əsas məqsəd birliyin sosial xidmət müəssisəsi olan Uşaq Sığınacağı - Reinteqrasiya Mərkəzində məskunlaşan uşaqların yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi, özünəinam hissinin gücləndirilməsi və onların cəmiyyətə reinteqrasiyasına dəstək göstərilməsi olub.

Proqram çərçivəsində istifadə olunmuş materiallardan hazırlanmış 21 ədəd əl işi nümayiş etdirilib. Yararsız hesab olunan sap və digər vəsaitlərə ikinci həyat verilməsi ekoloji məsuliyyət prinsipini və uşaqların yaradıcı təfəkkürünü əks etdirib.

Sonra reabilitasiya prosesi keçən uşaqlar tərəfindən Azərbaycan filmlərindən seçilmiş fraqmentlər səhnələşdirilib, rəqs kompozisiyaları təqdim olunub.

Bədii hissədə sığınacağın uşaqları ilə bərabər Xalq artistləri Flora Kərimova, Alim Qasımov, Afaq Bəşirqızı, Əməkdar artist Fərqanə Qasımova, eləcə də müğənnilər Samir Bağırov və Elnur Məmmədov musiqi nömrələri ilə çıxış ediblər.

Sonda "Azərbaycan Uşaqları" İctimai Birliyinin "Özgə uşağı olmur" himni səsləndirilib.

# İrəvan qazılığının tarixi ilə bağlı kitab hazırlanıb

**Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qərbi Azərbaycan İcması ilə birgə konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir Dövlət himninin səsləndirilməsi və "Qurani-Kərim"dən ayələrin tilavəti ilə başlayıb.

Çıxış edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Qərbi Azərbaycan İcmasının 2022-ci ildə təsis olunması dövlətimizin başçısının uzaqgörən siyasətinin təzahürüdür və soydaşlarımızın doğma yurdlarına qayıdışı dövlət siyasətinin mühüm istiqamətidir. O, Qafqaz Müsəlmanları İdarəsinin beynəlxalq platformalarda Qərbi Azərbaycanla bağlı həqiqətləri mütəmadi gündəmə gətirdiyini diqqətə çatdırıb.

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli İrəvanın və ümumilikdə Qərbi Azərbaycanın zəngin tarixi-mədəni irsindən bəhs edərək, bu ərazilərdə mövcud olmuş məscidlərin, qəbiristanlıqların, memarlıq abidələrinin sistemli şəkildə məhv edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, bu irsin qorunması və bərpası məsələsi təkcə milli deyil, beynəlxalq hüquq və insan haqları kontekstində də mühüm əhəmiyyət daşıyır. Tədbirin əhəmiyyətinə toxunan icma sədri belə görüşlərin ictimai həmrəyliyin möhkəmləndirilməsi, tarixi həqiqətlərin təbliği və qayıdış ideyasının daha geniş miqyasda təşviqi baxımından xüsusi rol oynadığını bildirib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, İrəvan qazısı Bəxtiyar Nəcəfov İrəvan qazılığının tarixi kökləri və fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, İrəvan qazılığı bölgədəki müsəlman icmasının dini-mənəvi həyatında xüsusi rol oynayıb. Arxiv sənədlərinə əsaslanan faktları diqqətə çatdıran qazı İrəvan mahalında çoxlu məscidin və dini təhsil ocağının mövcud olduğunu, deportasiyalar nəticəsində bu zəngin irsin və institusional dini idarəçiliyin fəaliyyətinin dayandırıldığını vurğulayıb.

Bəxtiyar Nəcəfov qeyd edib ki, hazırda İrəvan qazılığının tarixi ilə bağlı geniş tədqiqat işi aparılır və yaxın vaxtlarda bu mövzuya həsr olunmuş kitab ictimaiyyətə təqdim olunacaq. Əsər arxiv materialları və tarixi mənbələr əsasında sistemli şəkildə tərtib olunub və artıq çapa tam hazır vəziyyətə gətirilib. İrəvan qazılığının təşəkkülü, fəaliyyəti və tarixi irsi barədə elmi əsaslı məlumatlarla zəngin kitab tarixi həqiqətlərin qorunmasına xidmət edəcək.

Digər çıxış edənlər Qərbi Azərbaycan məsələsinin dövlətin strateji gündəliyində xüsusi yer tutduğunu, milli həmrəylik, tarixi ədalət və soydaşlarımızın doğma torpaqlarına qayıdışı baxımından strateji əhəmiyyət daşıdığını vurğulayıblar. Eyni zamanda tarixi həqiqətlərin qorunması, maarifləndirmənin gücləndirilməsi və icmanın təşkilatlanmasının vacibliyini qeyd edərək şəxsi xatirələrini, müşahidələrini və dəstək mesajlarını iştirakçılarla bölüşüblər.

# Azərbaycan və Gürcüstan konsulluq yardımı sahəsində əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəlib

**Fevralın 16-da Bakı şəhərində Azərbaycan Xarici İşlər Nazirliyi və Gürcüstanın Xarici İşlər Nazirliyi arasında növbəti konsulluq məsləhətləşmələri keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Gürcüstan nümayəndə heyətinə isə Gürcüstan Xarici İşlər Nazirliyinin Beynəlxalq hüquq, konsulluq və diaspor məsələləri direktoratlığının direktoru Qiorqi Tabatadze rəhbərlik edib.

Görüşdə Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev, Gürcüstanın ölkəmizdəki səfiri Zurab Pataradze, Azərbaycanın Baş Prokurorluğunun, Ədliyyə Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin rəsmiləri iştirak ediblər.

Konsulluq məsləhətləşmələri zamanı iki ölkə arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən sahə üzrə ikitərəfli sənədlərin imzalanması barədə fikir mübadiləsi aparılıb.

Tərəflər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması və onlara konsulluq yardımının göstərilməsi mövzusu üzrə müzakirələr keçirib, əməkdaşlığın intensivləşdirilməsinə dair razılığa gəliblər.

Məsləhətləşmələrdə həmçinin Azərbaycanla Gürcüstan arasında ədliyyə, miqrasiya, təhsil, sosial müdafiə və digər vacib sahələr üzrə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Danışıqların sonunda iki ölkənin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən görüşün protokolu imzalanıb.





"Böyük qayıdış"
proqramı sürətlə icra olunur





# Doğma yurdlarına qovuşanların sayı sürətlə artır

**"Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar. Əminəm ki, bundan sonra müharibə olmayacaq. Azərbaycan dövləti güclü dövlətdir". Prezident İlham Əliyevin bu fikirləri hər keçən gün təsdiqini tapır. Qarabağ və Şərqi Zəngəzurda müasir infrastrukturun yaradılması və həyatın bərpası istiqamətində genişmiqyaslı işlər həyata keçirilir, uzun illər dağıntılara məruz qalmış ərazilərdə sistemli və mərhələli layihələr icra olunur. Bu layihələr yalnız dağıdılmış şəhər və kəndlərin yenidən inşası deyil, həm də insanların həyatının, sosial münasibətlərinin və regional iqtisadiyyatın yenidən formalaşması deməkdir.**



2020-ci ildə qazanılan Zəfər regionda tamamilə yeni reallıqlar formalaşdırdı. Bu reallıqlar fonunda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işləri milli əhəmiyyət daşımaqla yanaşı, həm də qlobal məkan üçün yeni bir nümunə yaradır. Dövlətin gücü, xalqın birliyi və strateji planlaşdırma nəticəsində Qarabağ və Şərqi Zəngəzur sürətlə inkişaf edir, şəhər və kəndlər müasir standartlara uyğun olaraq yenidən qurulur. Bu gün artıq azad edilmiş ərazilər təkcə keçmiş münaqişənin simvolu deyil, Azərbaycanın gələcək inkişaf strategiyasının əsas dayaqlarından biri kimi çıxış edir.




Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma işləri sosial infrastrukturun inkişafını da əhatə edir. Şəhər və kəndlərdə məktəblər, xəstəxanalar, sosial xidmət mərkəzləri tikilir, elektrik, su və rabitə xətləri demək olar ki, sıfırdan qurulur. Bu isə sakinlərin gündəlik ehtiyaclarının ödənilməsini və komfortlu yaşayış şəraitinin təmin olunmasını mümkün edir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında həyata keçirilən layihələr bölgədə dayanıqlı inkişafın təməlini qoyur. Bölgədəki yenidənqurma işləri təkcə infrastrukturla məhdudlaşmır. Tarixi-mədəni irsin qorunması da bu prosesin əsas prioritetlərindən biridir. İşğal dövründə dağıdılmış məscidlər, türbələr, muzeylər və digər mədəniyyət obyektləri mərhələli şəkildə bərpa olunur. Ağdam məscidi, Şuşadakı tarixi məscidlər və digər tarixi abidələr bunun bariz nümunəsidir. Bu yanaşma bölgədə həm maddi, həm də mənəvi dəyərin bərpasını təmin edir, milli-mədəni irsin qorunmasına xidmət edir. Və bütün bu irimiqyaslı proseslərin maliyyə təminatı da dövlət tərəfindən həyata keçirilir. 2020-2026-cı illər ərzində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına 30,5 milyard manat vəsait ayrılıb.

Dünən daha üç yaşayış məskəni sakinlərini qarşılayıb. Xocavəndin Hadrut qəsəbəsinə 10 ailə - 47 nəfər, Qırmızı Bazar qəsəbəsinə 20 ailə - 91 nəfər, Xocalı şəhərinə 30 ailə - 149 nəfər köçürülüb. Xoşbəxtlikləri gözlərindən oxunan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna minnətdarlıqlarını bildiriblər. Bu insanlar üçün doğma yurda dönüş, sadəcə, ünvan dəyişikliyi deyil, 30 ildən artıq davam edən nisgilin, həsrətin sona çatması deməkdir.

Uzun illərdən sonra dədə-baba ocağına qovuşan insanların sayı da gündən-günə artır. Artıq 6827 ailə, 27410 keçmiş məcburi köçkün doğma yurdunda yaşayır, 8 şəhər, 3 qəsəbə və 26 kənddə məskunlaşma prosesi reallaşdırılıb. 2026-cı ilin sonu - Böyük qayıdışın birinci mərhələsi bitənədək isə bu rəqəm dəfələrlə çox olacaq, 140 min nəfər, yəni 34 min 500 ailə yurduna qovuşacaq.

Sürətlə davam edən bərpa və yenidənqurma işləri çərçivəsində önümüzdəki günlərdə, həftələrdə yurduna qovuşacaq keçmiş məcburi sakinlərin sayı artacaq. Bu ərazilərdən biri də Ağdam şəhəridir. Bir müddət əvvəl Ağdam şəhərinin 2-ci yaşayış kompleksinə sakinlərin qayıdışı təmin edilmişdi. Bununla da şəhər sakinlərinin sayı 103 ailə, 405 nəfərə çatmışdı. İndi isə 5-ci yaşayış kompleksi üzrə tikinti işlərinə başlanılıb. Bu kompleks ümumilikdə 12 məhəllədən ibarətdir. Məhəllələr üzrə 50 bina layihələndirilib. Bunlardan 40-ı yaşayış binası, 10-u isə qeyri-yaşayış binası olaraq nəzərdə tutulub. Mənzillərin ümumi sayı 1074 olmaqla, 1,2,3 və 4 otaqlıdır. Həmçinin yaxın vaxtlarda 3-cü yaşayış kompleksində də tikinti işlərinə başlanılması planlaşdırılır. 3-cü yaşayış kompleksi isə 13 məhəllədən ibarətdir.

Ağdam şəhərində bərpa edilmiş Ağdam Cümə məscidinin yardımçı tikililərinin və şəhərdə çoxfunksiyalı inzibati binanın da tikintisinə yaxın vaxtlarda başlanılacaq.

Azərbaycan uzun illərin həsrətinə son qoyaraq ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də dövlətçilik ənənələrini qoruyub saxlayır. İşğaldan azad olunmuş bölgələrdə bərpa və quruculuq işləri yalnız infrastrukturla məhdudlaşmır, eyni zamanda sosial rifah, təhsil, səhiyyə, mədəni irsin qorunması və davamlı məskunlaşma prinsiplərini də əhatə edir. "Böyük qayıdış" proqramı çərçivəsində qayıdan ailələr təhlükəsiz şəkildə öz doğma torpaqlarında həyatlarını qururlar. Bu proses dövlətin gücünü, xalqın birliyini və Azərbaycanın inkişaf yolunda inamla irəlilədiyini bütün dünyaya nümayiş etdirir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ağdam şəhərindəki 5-ci yaşayış kompleksində 1074 mənzil inşa olunur






**Ağdam şəhərində aparılan bərpa-quruculuq işləri çərçivəsində 5-ci yaşayış kompleksinin tikintisi davam etdirilir. Layihəyə uyğun olaraq, yaşayış kompleksində 50 binanın inşası nəzərdə tutulur.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Fidan Məmmədli AZƏRTAC-a bildirib ki, artıq 2-ci yaşayış kompleksinə sakinlərin köçü təmin olunub. Bu yaşayış kompleksində 103 ailə olmaqla, 403 ailə yaşayır. Ağdam şəhərindəki digər yaşayış kompleksində də işlər davam edir.

5-ci yaşayış kompleksində isə 50 binanın inşası nəzərdə tutulur. Onlardan 40-ı çoxmənzilli yaşayış, 10-u isə qeyri-yaşayış binalarıdır. Bu yaşayış kompleksi 12 məhəllədən ibarət olacaq. Ümumilikdə isə 1074 mənzilin inşası planlaşdırılır.

F.Məmmədli qeyd edib ki, yaxın vaxtlarda 3-cü yaşayış kompleksində də tikinti işlərinə başlanılması nəzərdə tutulur. 3-cü yaşayış kompleksi 13 məhəllədən ibarət olacaq.

Ağdam şəhərində digər yeniliklərdən də danışan Fidan Məmmədli deyib: "Ağdam Cümə məscidi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. Məscidin yardımçı tikililəri Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti tərəfindən inşa ediləcək və tikintiyə yaxın vaxtlarda başlanılacaq. Eyni zamanda Ağdam şəhərində çoxfunksiyalı inzibati binanın da tikintisinə yaxın vaxtlarda başlanması nəzərdə tutulur".

Sonra layihə rəhbəri Nəbi Mansurovla söhbət edirik. Məlum olur ki, məhəllədə yeraltı və yerüstü avtopark, velosiped saxlama yerləri də olacaq. Bütün bu amillər nəqliyyatın hərəkətinin tənzimlənməsinə öz töhfəsini verəcək.

135-ci məhəllə üzrə layihə rəhbəri Telman Paşşanov isə deyib: "135-ci məhəllədə 2 altımərtəbəli, 1 səkkizmərtəbəli binalar inşa olunur. Mənzillər 2, 3 və 4 otaqlıdır. Yeraltı avtodayanacaq və zirzəmiləri bir-birinə bağlayan yeraltı qalereya olacaq. Hazırda binaların yeraltı konstruksiya hissəsi tamamlanıb, 3-cü mərtəbələrin işləri yekunlaşır. Həmçinin yerüstü avtodayanacaq, kiçik stadion və binalararası yolların inşası nəzərdə tutulur. Konstruksiya işlərinin may ayında yekunlaşması planlaşdırılır. Hazırda konstruksiya işləri ilə yanaşı, hörgü və mühəndis-kommunikasiya işləri də davam edir".

# Hadrut və Qırmızı Bazarda daha 30 ailəyə, Xocalıda isə 18 ailəyə evlərinin açarları təqdim olunub






**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə keçmiş məcburi köçkünlərin qayıdış prosesi davam etdirilir.**



AZƏRTAC xəbər verir ki, dünən Xocavənd rayonunun Hadrut və Qırmızı Bazar qəsəbələrinə növbəti köç prosesi gerçəkləşib. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bu mərhələdə Xocavəndin Hadrut qəsəbəsinə 10 ailə - 47 nəfər, Qırmızı Bazar qəsəbəsinə 20 ailə - 91 nəfər köçürülüb.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd rayonunun Qırmızı Bazar və Hadrut qəsəbələrinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr öz yurdlarına qovuşublar. Həmin ailələrə evlərinin açarları təqdim olunub.

Yeni köçən ailələr qarşılandıqdan sonra ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə məlumatlandırılıblar. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat verməleri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Onlar vurğulayıblar ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.






Respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı fevralın 16-da Ağdamdan Xocalı şəhərinə yola salınıb. Fevralın 16-da Xocalı şəhərinə növbəti köç həyata keçirilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, bu gün 149 nəfərdən ibarət 30 ailə doğma yurduna dönüb. 55 nəfərdən ibarət 12 ailə çoxmənzilli yaşayış binasındakı mənzillərlə, 94 nəfərdən ibarət 18 ailə isə yeni bərpa edilmiş fərdi yaşayış evləri ilə təmin edilib.

Bu münasibətlə keçirilən mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Sakinlərə yeni mənzillərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, sakinlərin rahat və təhlükəsiz yaşayışı üçün bütün zəruri şərait yaradılıb. Onun sözlərinə görə, şəhərdə müasir kommunikasiya infrastrukturu qurulub, yaşayış binaları və fərdi evlər yüksək standartlara uyğun inşa olunub, sosial obyektlərin yaradılması istiqamətində işlər davam etdirilir.

Qeyd olunub ki, məskunlaşma prosesi-"Böyük qayıdış" proqramına uyğun şəkildə mərhələli qaydada icra olunur. Azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, dayanıqlı yaşayışın təmin edilməsi məqsədilə zəruri sosial, nəqliyyat və kommunikasiya infrastrukturu formalaşdırılır.

Mərasimdən sonra ailələr sevinc hissi ilə yeni evlərində yerləşiblər.

Xatırladaq ki, indiyədək Xocalı şəhərinə və Xocalının 7 kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı təmin olunub. İşğaldan azad edilmiş ərazilərdə məskunlaşma prosesi planlı şəkildə davam etdirilir.

● Qan yaddaşı

**Son iki əsr ərzində azərbaycanlılara qarşı ardıcıl şəkildə həyata keçirilən zorakılıq siyasəti xalqımızı dəfələrlə faciələrlə, qətliam və soyqırımları ilə üz-üzə qoyub. Erməni şovinistləri tərəfindən həyata keçirilən bu qanlı xətt Birinci Qarabağ müharibəsi dövründə də davam etdirildi, dinc əhaliyə qarşı bəşəri cinayətlər törədildi. 1992-ci il fevralın 26-da baş verən və əsrin faciəsi kimi tarixə düşən Xocalı soyqırımına qədər də erməni silahlı birləşmələri azərbaycanlılara qarşı kütləvi qətliamlar həyata keçirmişdilər. Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanıs Ayrım kəndinin, eləcə də keçmiş Dağlıq Qarabağ ərazisində azərbaycanlıların yaşadığı İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc sakinlərinin bir qismi əvvəlcədən hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdir. Erməni silahlı dəstələrinin Azərbaycan xalqına qarşı törətdikləri qanlı cinayətlərdən biri də 1992-ci il fevralın 17-də Qaradağlı kəndində baş vermişdir. Bu hadisə də müharibə dövründə mülki əhaliyə qarşı həyata keçirilən və insanlığa sığmayan vəhşiliyin növbəti nümunəsi idi.**



# Tariximizin faciəvi səhifələrindən biri

## Qaradağlı qətliamından 34 il ötür



### Hər bir ailə facia ilə üzləşib

1980-ci illərin sonlarından erməni şovinistləri keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddət hazırladıqları qanlı planlarını işə saldılar. 1988-ci il fevralın 13-də Xankəndinin mərkəzi meydanında ermənilərin fasiləsiz mitinqləri başladı. Fevralın 20-də isə onlar Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin sessiyasını çağırdılar və azərbaycanlı deputatların iştirakı olmadan qərar qəbul etdilər ki, DQMV Azərbaycanın tərkibindən çıxır və Ermənistana birləşdirilir. Bu qeyri-qanuni qərardan və ovaxtkı mərkəzi hakimiyyətdən dəstək alan ermənilər daha da azğınlaşaraq azərbaycanlılara qarşı açıq təzyiqlər göstərməyə, silahlı hücumlar təşkil etməyə başladılar. Məqsəd Dağlıq Qarabağdan azərbaycanlıları sıxışdırıb çıxarmaq idi. 1991-ci ildən etibarən vəziyyət o həddə çatdı ki, erməni silahlıları Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadığı kənd və qəsəbələri bir-bir işğal etməyə başladılar. Qoca, qadın, uşaq demədən mülki əhalini qətlə yetirdilər, girov götürdülər. O dövrdə ölkədə siyasi hakimiyyətin zəif olması, Milli Ordunun tam formalaşmaması səbəbindən Azərbaycan kəndləri, qəsəbələri və şəhərləri xarici güclərdən dəstək alan mütəşəkkil erməni silahlı birləşmələrinə qarşı tək-tək müqavimət göstərməyə məhkum idi. Bu qeyri-bərabər döyüşlərin nəticəsi ərazilərimizin işğalı və dinc əhalimizin qətliamı ilə müşayiət olunurdu. 1992-ci il fevralın 17-də isə erməni qaniçənləri Xocavənd rayonunun Qaradağlı kəndində yeni bir faciə törədərək insanlığa qarşı cinayətlərini davam etdirdilər.

### Kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib

Xocavənd rayonunun Qaradağlı kəndi hələ 1988-ci ildən erməni təhdidi ilə üz-üzə qalmışdı. Kənd sakinləri o zamandan qəhrəmanlıqla doğma yurdlarının müdafiəsinə qalxıb xeyli şəhid vermişdilər. 1990-cı il noyabrın 24-də 3 nəfər kənd sakini Xocavənd-Xankəndi yolunun 6 kilometrliyində erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. 1991-ci il yanvarın 9-da kəndə gələn UAZ markalı avtomobil ermənilər tərəfindən atəşə tutulub, bir nəfər öldürülmüş, 4 nəfər yaralanmışdır. Onlardan 2-si sonralar aldığı yaralardan dünyasını dəyişmişdir.

Məlumata görə, ermənilər 1991-ci il martın 8-də kəndin yaxınlığında 2 nəfəri vəhşicəsinə qətlə yetiriblər. Həmin il iyunun 28-də kəndin 3 kilometrliyindəki fermada 6 sakin - 3 kişi və 3 qadın diri-diri yandırılıb. 1991-ci il sentyabrın 8-də Ağdamdan Qaradağlıya gələn sərnişin avtobusu Xocavənd-Xankəndi yolunun 5-6 kilometrliyində erməni quldurları tərəfindən atəşə tutulub. Avtobusdakı 40 nəfərə yaxın sərnişindən 2 oğlan, 6 qadın həlak olub. 1992-ci il yanvarın 8-də kəndin yaxınlığında daha bir azərbaycanlı vəhşicəsinə qətlə yetirilib. 1992-ci il fevralın 14-də erməni quldurları xarici muzdluların, xüsusilə Xankəndidə yerləşən sovet ordusunun 366-cı alayının texnikasından və canlı qüvvəsindən istifadə etməklə əlaqəsi hər tərəfdən kəsilən, köməksiz qalan Qaradağlı kəndinə hücuma keçiblər. Kənddə olan 104 sakin və 14 əsgər sonuncu gülləyə qədər 4 gün düşmənlə mübarizə aparıb. Döyüşlərdə biri qadın olmaqla, 14 nəfər həlak olub. Silah-sursatı tükənən qaradağlılar sonda ermənilər tərəfindən əsir və girov götürülüblər. Kəndin Bəylik bağı adlanan yerində 23 sakin erməni cəlladları tərəfindən güllələnib, əksəriyyəti silos quyusunda yaralı halda diri-diri basdırılıb. Sakinlərin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülərək güllələnib. İki nəfər Zəki bulağında, 2 nəfər Cəmiyyət kəndində öldürülüb. Girovluqda olan 8 nəfər kənd sakininə ermənilər əzab və işgəncələr verərək onları amansızlıqla qətlə yetiriblər. Dörd nəfər müxtəlif dövrlərdə şəhid olub. Beş nəfərin taleyi bu günə qədər məlum deyil.

Beləliklə, Qaradağlı kəndi 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, dinc əhaliyə qarşı soyqırımı həyata keçirilib. İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Erməni cəlladlar öldürülənləri və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək torpaqlayıblar. Ümumilikdə əsir və girov götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə azad edilib. Girov götürülənlərdən 10 nəfəri qadın, 2 nəfəri məktəbli olub. Azad olunanların 5 nəfəri qadın olmaqla 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Əsir və girovluqda saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı cinayəti nəticəsində Qaradağlı kəndində iki ailənin hər birindən 4 nəfər qətlə yetirilib, 43 ailə öz başçısını itirib, 146 uşaq yetim qalıb. Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmlələri zamanı qətlə yetirilənlərdən 10-u qadın, 8-i məktəb yaşlı uşaq olub. Qaradağlı kəndində 91 nəfər - kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

### Qaradağlı qətliamı şahidlərin dili ilə

Ötən il mayın 1-də Bakı Hərbi Məhkəməsində Qaradağlı faciəsi ilə bağlı sənədlər tədqiq olunan zaman həmin hadisələrin canlı şahidləri - zərərçəkmiş şəxslər ifadə veriblər. Qaradağlı sakini Seyyur Nağıyev ifadəsində diqqətə çatdırıb ki, erməni hərbçilər 1992-ci ildə Qaradağlını işğal edənə qədər mütəmadi olaraq kəndə hücum edib, mülki insanları qətlə yetirib, evlərini yandırıb, mal-qaralarını talayıblar. O deyib ki, 1992-ci il fevralın 15-dən 17-dək Qaradağlıya bütün istiqamətlərdən hücum olub, kənd mühasirəyə alınıb. Hücum əməliyyatında muzdlular da iştirak ediblər.

O, Qaradağlının işğalı zamanı əzizlərinin, o cümlədən qardaşının, əmisinin və əmisinin üç oğlunun qətlə yetirildiyini deyib. Zərərçəkmiş şəxs deyib ki, kənd işğal olunanda onu da digər sakinlər kimi girov götürərək Xankəndiyə aparıblar: "Soyuq, şaxtalı havada girovlara dəhşətli işgəncələr verilirdi".

Zərərçəkmiş Qaradağlı sakini Vidadi Hüseynov hadisələrin 1988-ci ildən başladığını, mütəmadi olaraq azərbaycanlılara hücumların edildiyini diqqətə çatdırıb. Bildirib ki azərbaycanlılar vəhşicəsinə qətlə yetirilirdi: "Avtobuslara hücum edib mülki insanları atəşə tuturdular. Dinc sakinləri diri-diri yandırıb mal-qarasını talayırdılar. Azərbaycanlıları ağaca bağlayıb güllələyirdilər".

Zərərçəkmiş şəxs İlqar Hüseynov işğal zamanı girov götürüləndən sonra yük maşınları ilə aparıldıqlarını, "Bəylik bağı" adlanan yerdə 33 nəfərin güllələndiyini bildirib: "Həmin yerdə saxladılar, orada 33 nəfəri güllələdilər. Qalan insanları, o cümlədən məni Xankəndi istiqamətində apardılar".

Zərərçəkmiş Baxşeyiş Hüseynov deyib ki, 1992-ci ilin fevralında kənd işğal olunanda onu girov götürüblər: "Məni digər əsir və girovlarla bərabər Xankəndiyə apardılar. Orada bizə hər gün işgəncələr veriblər. Bədənimizi bizlə deşiblər". Zərərçəkmiş Şamxal Şirinov bildirib ki, kənd işğal olunanda onu da girov götürüblər. Girov götürülənlərin bir qismi güllələnib. O deyib ki, girov saxlandığı zaman ona dəhşətli işgəncələr verilib, dişlərini çəkib çıxarıblar, döyüb, bədəninə çoxsaylı xəsarətlər yetiriblər.

### Haqq-ədalət öz yerini tapdı

Azərbaycan parlaq Qarabağ zəfəri ilə öz ərazilərində suverenliyini tam bərpa etdi, üçrəngli bayrağını bütün zirvələrdə dalğalandırdı. Bu möhtəşəm Qələbə yalnız torpaqlarımızın azadlığı deyil, eyni zamanda XX və XXI əsrlərdə Vətənimizin müxtəlif bölgələrində soyqırımı və qətliamlarla üzləşmiş günahsız insanların haqqının bərpası idi. Şəhidlərimizin qanı yerdə qalmadı, onların ruhu şad edildi.

Bu gün çağdaş Azərbaycan vətəndaşları olaraq xalqımızın milli qürur mənbəyinə çevrilən həmin tarixi anların şahidi olmağın həm məsuliyyətini, həm də fəxrini yaşayırıq. İllərlə qəlbimizdə daşıdığımız ədalət arzusu gerçəyə çevrildi. İnanırdıq ki, bir gün bu haqsızlıqların cavabı veriləcək. Xalqımıza qarşı müharibə cinayətləri törədənlərin bəziləri Azərbaycan qanunları qarşısında bir-bir cavab verdilər və cəzalarını aldılar.

Bəli, xocalılılar, qaradağlılılar, meşəlililər, ballıqayalılar, ağdabanlılar, başlıbellilər... Bir zamanlar dəhşət və faciə yaşayan insanlar İlahi ədalətin təntənəsinə, onlara zülm edənlərin cəzasız qalmadığına şahidlik etdilər.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Şirvanda "Qərbi Azərbaycan Azərbaycanın əzəli torpağıdır!" mövzusunda tədbir keçirilib

**Şirvan şəhərindəki T.Bağırov adına 11 nömrəli tam orta ümumtəhsil məktəbində "Qərbi Azərbaycan Azərbaycanın əzəli torpağıdır!" mövzusunda açıq dərs keçirilib.**





Şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü professor Mahirə Hüseynova, Elm və Təhsil Nazirliyinin, Şirvan-Salyan Regional Təhsil İdarəsinin əməkdaşları, məktəbin müəllimləri, yuxarı sinif şagirdləri və digər qonaqların iştirak etdikləri tədbiri açan məktəbin direktoru vəzifəsini icra edən Yusif Haxverdiyev bildirib ki, Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərə əsaslanan fikirləri biz azərbaycanlılar üçün, xüsusilə gənclər üçün qürurvericidir. Ona görə də bütün Azərbaycan gəncliyi bu həqiqətləri düzgün öyrənməli və bu istiqamətdə üzərinə düşən vəzifəni, o cümlədən maarifləndirici təbliğat işlərini layiqincə yerinə yetirməlidir.

Sonra çıxış edən professor Mahirə Hüseynova Qərbi Azərbaycan həqiqətlərinin, tarixi faktların, xronoloji mənbələrin və xəritələrin geniş auditoriyalara çatdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qeyd edib ki, baş verən proseslər fonunda həm dövlət qurumlarının, həm ictimai təşkilatların, həm də təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür: "Artıq Qərbi Azərbaycan məsələsinin bizim xalqın, gənc nəslin milli kimliyinin ayrılmaz hissəsinə çevrilidiyini nəzərə alaraq, gənclər arasında bu istiqamətdə maarifləndirmə işləri daha da gücləndirilməlidir. Qərbi Azərbaycanla bağlı keçirilən dərslərdə bu diyarın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə tədbirlərinə geniş yer verilməlidir". Mahirə Hüseynova bu mövzunun azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsi olduğunu bildirərək, Qərbi Azərbaycan ərazilərinin Azərbaycan xalqının tarixi yaddaşında, mədəni kimliyində və mənəvi dünyasında tutduğu yerə diqqət çəkib.

Tədbirdə çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı, etnik təmizləmə və deportasiya siyasətindən bəhs edib. Qeyd edib ki, XX əsrdə mərhələlərlə davam etmiş ermənilərin azərbaycanlılara qarşı deportasiya siyasəti tarixi-mədəni irsimizin məhvinə yönəldilib, abidələrimiz dağıdılıb, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla əvəzlənib. Diqqətə çatdırıb ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Qərbi Azərbaycana qayıdışın da siyasi və hüquqi əsasını qoyub. Həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbir məktəbin həyətində ağacəkmə aksiyası ilə yekunlaşıb.

*Seyran CAVADOV, "Azərbaycan"*

# Ruben Vardanyanın məhkəməsi bu gün davam etdiriləcək





**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə açıq məhkəmə iclası fevralın 17-də davam etdiriləcək.**

Bu barədə AZƏRTAC-a Bakı Hərbi Məhkəməsindən məlumat verilib.

Qeyd edək ki, fevralın 10-da keçirilən məhkəmə prosesində məhkəmə baxışının başa çatdığı elan edilib, məhkəmə heyəti müşavirəyə gedib.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# "Sülh körpüsü" cəmiyyətlər arasında etimadın yaranmasına xidmət edir

**Azərbaycan və Ermənistan arasında sülh prosesi təkcə rəsmi müstəvidə deyil, həm də vətəndaş cəmiyyəti səviyyəsində davam etdirilir. Bu məqsədlə fevralın 13-14-də Ermənistanda "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətlərinin nümayəndələrinin iştirakı ilə ikitərəfli "dəyirmi masa" keçirilib.**



Vətəndaş cəmiyyətinin nümayəndələri 8 avqust 2025-ci il tarixində Vaşinqtonda keçirilmiş Sammitdə təsdiqlənən sülh gündəliyindən irəli gələn məsələləri müzakirə ediblər. Sülhün yaratdığı imkanlar, iki cəmiyyət arasında münasibətlərin inkişafına ictimai baxış, iqtisadi əməkdaşlıq perspektivləri, eləcə də qarşılıqlı anlaşma və etimadın möhkəmləndirilməsində vətəndaş cəmiyyətinin rolu müzakirə mövzusu olub. İnklüziv və davamlı dialoq platformasına sadiqlik bir daha təsdiqlənib. Etimadın möhkəmləndirilməsi, ictimai diplomatiya və cəmiyyət səviyyəsində yaxınlaşmanı dəstəkləyən praktik tövsiyələrin hazırlanmasına xüsusi diqqət yetirilib. İkinci gün iştirakçılar davamlı sülhün üstünlüklərini və cəmiyyətlərarası münasibətlərin qurulmasının mümkün sosial-iqtisadi faydalarını nəzərdən keçiriblər. Hər iki cəmiyyətdə ictimai gözləntilər və sülh prosesinin vətəndaşlar üçün real nəticələr verməsinin yolları müzakirə olunub.

Proqram çərçivəsində iştirakçılar Ermənistanın yüksək-vəzifəli rəsmiləri, o cümlədən Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və xarici işlər nazirinin müavini Vahan Kostanyan ilə görüşlər keçiriblər. Müzakirələr sülh gündəliyinin dəstəklənməsində vətəndaş cəmiyyətinin rolu və ictimai təşəbbüslərin rəsmi səyləri necə tamamlayacağı barədə fikir mübadiləsi üçün imkan yaradıb.

Xatırladaq ki, ötən il oktyabrın 22-də İrəvanda Ermənistan və Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə ikitərəfli "dəyirmi masa" keçirilmişdir. Daha sonra Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup 2025-ci ilin 21 noyabr tarixində Azərbaycan paytaxtına səfər etmişdilər.

Vətəndaş cəmiyyəti nümayəndələri arasında görüşlərin intensiv xarakter alması Azərbaycan və Ermənistan arasında "xalq diplomatiyası"nın rolunun artdığını göstərir. Bu cür təmaslar rəsmi sülh müqaviləsi imzalanmazdan əvvəl hər iki cəmiyyətdə barış mühiti yaratmaq və qarşılıqlı nifrət dilini azaltmaq üçün əhəmiyyətlidir.

Budəfəki görüşdə isə "Sülh körpüsü" təşəbbüsünün əsas iştirakçıları ilə yanaşı, hər iki tərəfdən daha geniş iştirakçı qrupları təmsil olunub.

Diqqətçəkən məqamlardan biri də odur ki, Azərbaycan nümayəndə heyəti bütün zəruri prosedurları tamamlayaraq Azərbaycanın Aşağı Əskipara kəndi və Ermənistanın Voskepar kəndi yaxınlığında delimitasiya və demarkasiya edilmiş quru sərhəd hissəsindən keçməklə ölkəyə daxil olub. Bu keçid iştirakçılar tərəfindən etimadın möhkəmləndirilməsi istiqamətində mühüm praktik addım və iki ölkə arasında normallaşma prosesinin mərhələli şəkildə irəliləməsinin aydın göstəricisi kimi qiymətləndirilib. Azərbaycan nümayəndə heyəti eyni delimitasiya olunmuş sərhəd hissəsindən geri qayıdıb, bu da etimadın möhkəmləndirilməsi istiqamətində növbəti praktik addım olub.

Bu cür təmaslar rəsmi sülh müqaviləsi imzalanmazdan əvvəl hər iki cəmiyyətdə barış mühiti yaratmaq üçün əhəmiyyətlidir. Tarixi təcrübə göstərir ki, xalqlar tərəfindən mənimsənilməyən sülh müqavilələri çox vaxt kövrək olur. Ona görə də bu bəşəri və humanitar prosesin hər iki cəmiyyət tərəfindən dəstəklənməsi olduqca vacibdir. Sülh müqaviləsi hüquqi çərçivədirsə, etimad həmin çərçivənin içini dolduran mənəvi və sosial enerjidir. Elə məsələlər var ki, qeyri-hökumət təşkilatları müstəvisində müzakirə olunaraq "yumşaldılır". Əlbəttə, 30 illik münaqişə şəraitinin və qanlı müharibələrin səbəb olduğu dərin yaralar, itkilər asanlıqla unudula bilməz. Vətəndaş cəmiyyəti burada bir növ sosial terapevt rolunu da oynayır. Əsas qayə nifrət dilini tədricən dialoqla əvəz etməkdir. QHT nümayəndələrinin, jurnalist və ekspertlərin təmasları da məhz bu məqsədə xidmət edir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# *Münxen Təhlükəsizlik Konfransı:* üçgünlük müzakirələrin yaddaqalan məqamları

**Dünyanın 120-dək ölkəsindən ümumilikdə minə yaxın nümayəndənin, o cümlədən 60 dövlət və hökumət başçısının iştirak etdiyi 62-ci Münxen Təhlükəsizlik Konfransı üçgünlük mühüm müzakirələrdən sonra işini başa çatdırdı.**




AZƏRTAC xəbər verir ki, konfrans çərçivəsində keçirilən müxtəlif tədbirlərdə dünya nizamını sarsıdan əsas təhdidlər, aktiv müharibə və böhranlara dair müzakirələr aparıldı, beynəlxalq münasibətlər sistemini tənzimləyən qaydaların ciddi təzyiq altında olduğu vurğulandı.

Konfransda rəsmi açılış nitqi ilə çıxış edən Almaniya Kansleri Fridrix Merts beynəlxalq nizamın artıq əvvəlki kimi güclü olmadığını qeyd etdi. O, əvvəlki kimi hüquq və qaydalara əsaslanan beynəlxalq nizamın artıq mövcud olmadığını, Rusiyanın Ukraynaya hücumu ilə açıq müharibə və münaqişələrin yeni mərhələsinin başladığını diqqətə çatdırdı. Gələcək beynəlxalq əməkdaşlıq üçün güclü qlobal tərəfdaşlıq şəbəkəsinin əhəmiyyətini xüsusi vurğulayan Kansler bildirdi: “Bu gün avropalılar kimi ilk vəzifəmiz bu reallığı qəbul etmək və yeni dövr üçün tədbirlər görməkdir”.

Ötənilki konfransda ABŞ-nin vitse-prezidenti Cey Di Vens Avropanı sərt tənqid etməsi fonunda bu il ABŞ təmsilçisinin çıxışı böyük maraqla gözlənilirdi. ABŞ nümayəndə heyətinin rəhbəri, Dövlət katibi Marko Rubio konfransın ikinci günündəki çıxışında Avropanı daha suveren olmağa və müdafiə qabiliyyətini artırmağa dair çağırış səsləndirdi. M.Rubio bildirdi ki, ABŞ zəif müttəfiqlər istəmir, çünki bu, hamını zəiflədir. Vaşinqtona özünü müdafiə edə bilən və gələcəyə inamla baxan bir Avropa lazımdır. O, müttəfiqləri “sınmış status-kvo”nu bərpa etmək cəhdlərindən əl çəkməyə və bunun əvəzinə onu birlikdə düzəltməyə çağırdı. Dövlət katibi ABŞ ilə Avropa arasındakı güclü əməkdaşlığı vurğulasa da, Avropanı nəzarətsiz kütləvi miqrasiyadan çəkinməyə çağıraraq, ətraf mühit siyasətini tənqid etdi.

Münxen Təhlükəsizlik Konfransında enerji təhlükəsizliyi də əsas müzakirə mövzuları arasında yer alırdı. Konfrans çərçivəsində təşkil olunan “Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi” mövzusunda panel müzakirələrində Azərbaycanın bu sahədə oynadığı mühüm roldan da ətraflı söhbət açıldı.

Konfransda diqqət mərkəzində saxlanılan ən mühüm mövzulardan biri də Ukraynadakı müharibə oldu. Tədbirdə Münxen Təhlükəsizlik Komitəsi tərəfindən 2026-cı il Evald fon Klayst mükafatı Ukrayna xalqını təmsil edən Prezident Volodimir Zelenskiyə təqdim olundu. Volodimir Zelenski çıxışında sərt qış şəraitində Rusiyanın davamlı hücumları nəticəsində Ukrayna xalqının ağır sınaqlar qarşısında qaldığını bildirdi. “Bizi qoruyan bizim birliyimizdir”, - deyən Ukrayna Prezidenti Avropanın sarsılmaz birliyinin vacibliyini vurğuladı.

Bu məsələ Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin də çıxışının əsas xəttini təşkil etdi. O, Aİ ölkələrini qarşılıqlı müdafiə öhdəliyini ciddi qəbul etməyə çağıraraq bildirdi ki, Aİ müqaviləsində yer alan qarşılıqlı yardım maddəsi (42-ci maddənin 7-ci bəndi) seçim yox, hüquqi öhdəlikdir: “Hamı bir nəfər üçün, bir nəfər hamı üçün” prinsipi yalnız etimad və real hərbi imkanlar olduğu halda məna kəsb edir”. Avropa Komissiyasının prezidenti, həmçinin Aİ-nin təhlükəsizlik sahəsində ABŞ-dən asılılığını azaltmaq üçün bu maddənin faktiki şəkildə işlək vəziyyətə gətirilməsinin vacibliyini xüsusi qeyd etdi.

Danimarkanın Baş naziri Mette Frederiksen isə ABŞ-nin Qrenlandiyaya nəzarəti ələ keçirmək planlarına toxunaraq, suverenliyin toxunulmazlığını xatırlatdı. “Biz təhdidlərlə üzləşirik. Qrenlandiya xalqı əvvəllər heç vaxt təhdid olunmayıb, buna görə də bu təzyiq qəbuledilməzdir”, - deyən Baş nazir bu məsələdə Avropadan, hətta Amerikadan da fəal dəstək aldığını qeyd edib.

Konfransın sonuncu – üçüncü günündə isə diqqət Avropaya, onun fəaliyyət göstərəbilmə qabiliyyətinə, rəqabətədavamlılığına və ortaq Avropa vizyonu ətrafında razılığa gəlməsinə yönəlmişdi. Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas çıxışında diqqəti məhz Rusiya təhlükəsinə və ABŞ tərəfindən Avropanın son vaxtlar mütəmadi qaydada tənqid edilməsinə yönəltdi. Rusiyanın artıq super güc olmadığını deyən K.Kallas qeyd etdi ki, on ildən artıq davam edən münaqişədən və Ukraynada dördillik müharibədən sonra Rusiya 1,2 milyon nəfər itirməsinə baxmayaraq, 2014-cü ildən bəri cəbhə xəttini demək olar ki, dəyişə bilməyib: “Bu gün Rusiya sındırılıb, iqtisadiyyatı dağılır, enerji bazarlarından təcrid olunub və öz əhalisi ölkəni tərk edir”. O, Rusiyanın törətdiklərinə görə cavab verməli olduğunu qeyd edərək deyib: “Rusiya harada dağıntı törədibsə, onun əvəzini ödəməlidir. Müharibə cinayətləri üçün heç bir amnistiya olmamalıdır”.

K.Kallas son vaxtlar Aİ-nin tənqid edilməsi cəhdlərinin artığıdını qeyd edərək Avropanın müdafiə, insan haqları və rifah sahəsində dünyada yüksək qiymətləndirildiyini vurğuladı, Aİ-nin Ukrayna ilə bağlı danışıqlar prosesində yer almamasının doğru olmadığını bildirdi.

Beləliklə, üç gün ərzində liderlərin apardıqları müzakirələr, səsləndirdikləri fikirlər hazırda uzunmüddətli ittifaqların möhkəmliyinin və davamlılığının ciddi təhdid altında qalması, beynəlxalq nizamın zəifləməsi, dünyada qeyri-sabitliyin və münaqişələrin daha da kəskinləşməsi bu nüfuzlu beynəlxalq platforma vasitəsilə bir daha diqqətə çatdırıldı. Münxen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinger də tədbirin yekunları ilə bağlı danışarkən konfransın uğurlu olduğunu, indi isə müvafiq fəaliyyət planlarının ən qısa zamanda hazırlanıb həyata keçirilməsinin vacibliyini qeyd etdi.

# Astana və Bakı Xəzərin ekosisteminin qorunması üzrə səyləri əlaqələndirir

**Artan iqlim problemləri və Xəzər dənizinin dayazlaşması prosesi qarşısında ətraf mühit əməkdaşlığı region üçün strateji əhəmiyyət kəsb edir. Qazaxıstan Respublikasının ekologiya və təbii sərvətlər naziri Yerlan Nısanbayev AZƏRTAC-a verdiyi müsahibədə ölkəsinin ekoloji prioritetləri və Azərbaycanla əməkdaşlığın inkişafı barədə danışıb.**



*- Qazaxıstan ilə Azərbaycan arasında ekoloji əməkdaşlığın hazırkı vəziyyətini və perspektivlərini necə qiymətləndirirsiniz?*

- Qazaxıstan ilə Azərbaycan arasında ekoloji əməkdaşlıq davamlı və sistemli şəkildə inkişaf edir. İki ölkənin müvafiq nazirlikləri arasında iqlim dəyişikliyi ilə mübarizədən tutmuş təbii sərvətlərin səmərəli istifadəsinə və biomüxtəlifliyin qorunmasına qədər ətraf mühit gündəliyinin əsas sahələrini əhatə edən möhkəm hüquqi çərçivə yaradılıb.

2024-cü il noyabrın 13-də COP29 çərçivəsində Qazaxıstan və Azərbaycan Ekologiya və Təbii Sərvətlər nazirlikləri arasında Anlaşma Memorandumunun imzalanması mühüm bir mərhələ oldu. Memorandum iqlim dəyişikliyinin azaldılması və uyğunlaşma, torpaq münbitliyinin bərpası, torpaq, meşə və mineral ehtiyatların idarə olunması, eləcə də birgə elmi tədqiqatlar, nadir və nəsli kəsilməkdə olan flora və fauna növlərinin qorunması sahəsində uzunmüddətli əməkdaşlığı inkişaf etdirməyi hədəfləyir.

Hidrometeorologiya ikitərəfli əməkdaşlıqda xüsusi yer tutur. Uzun illərdir ki, tərəflər müntəzəm olaraq hidrometeoroloji məlumatlar mübadiləsi aparır, iqlim icmallarını birgə hazırlayır və həm ikitərəfli, həm də MDB regional mexanizmləri çərçivəsində elmi-texniki əməkdaşlıq proqramları həyata keçirirlər.

Ümumilikdə, mövcud əməkdaşlığı effektiv və nəticəyönümlü kimi qiymətləndirmək olar. Artan iqlim və ətraf mühit problemləri nəzərə alınmaqla, Qazaxıstan və Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, birgə layihələrin genişləndirilməsi, regional və beynəlxalq səviyyələrdə səylərin əlaqələndirilməsinin gücləndirilməsi üçün yaxşı perspektivlər var.

*- Bu gün Xəzər dənizinin üzləşdiyi əsas ekoloji problemlər hansılardır və Qazaxıstan bunların həlli üçün nə kimi addımlar atır?*

- Xəzər dənizi və onun drenaj hövzəsi Xəzər regionu ölkələrinin iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir.

Qazaxıstanın Xəzəryanı ölkələrlə, o cümlədən Azərbaycanla əməkdaşlığı Xəzərin dəniz mühitinin qorunması haqqında Çərçivə Konvensiyası (bundan sonra Tehran Konvensiyası) çərçivəsində uğurla həyata keçirilir.

Tehran Konvensiyasının həyata keçirilməsi üçün Qazaxıstan ona əlavə edilən dörd Protokolu ratifikasiya edib və hazırda Xəzər dənizinin dəniz mühitinin vəziyyəti haqqında monitorinq, qiymətləndirmə və məlumat mübadiləsi haqqında Tehran Konvensiyasına əlavə olunan Protokol layihəsinin razılaşdırılması üzərində iş aparılır.

Hazırda təkcə Qazaxıstanın deyil, bütün Xəzəryanı ölkələrin üzləşdiyi əsas ekoloji problem son 30 ildə dəniz səviyyəsinin davam edən azalmasıdır.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bu məsələni çoxsaylı beynəlxalq forumlarda dəfələrlə qaldırıb və ötən il sentyabrın 8-də Qazaxıstan xalqına müraciətində Xəzər dənizinin su ehtiyatlarının qorunması üzrə Dövlətlərarası Proqramın hazırlanmasına başlamaq lazım olduğunu qeyd edib.

Bu baxımdan, artıq həmin məsələ ilə bağlı Xəzəryanı ölkələrin ətraf mühit qurumları, o cümlədən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə işlərə başlanılıb.

Bundan əlavə, bu ilin 22-24 aprel tarixlərində Astanada Regional Ətraf Mühit Zirvəsinin keçirilməsi planlaşdırılır. Dəniz səviyyəsinin aşağı düşməsi kontekstində Xəzər regionunun üzləşdiyi əsas problemləri müzakirə etmək, eləcə də ölkələrin onları həll etmək üçün görməli olduqları tədbirləri əlaqələndirmək üçün plenar iclasın keçirilməsi nəzərdə tutulur.

*- Qazaxıstan ilə Azərbaycan arasında Xəzər ekosisteminin qorunması və transsərhəd ətraf mühit monitorinqinin aparılması sahəsində koordinasiya nə dərəcədə vacibdir?*

- Qazaxıstan ilə Azərbaycan arasında koordinasiya çox vacibdir, çünki Xəzər dənizindəki ekoloji proseslər transsərhəd xarakteri daşıyır və koordinasiyalı fəaliyyət tələb edir.

Öz növbəsində "Kazhidromet" Azərbaycan Respublikasının Milli Hidrometeorologiya Xidməti ilə birlikdə 1992-ci ildən bəri Hidrometeorologiya Sahəsində Əməkdaşlıq haqqında Sazişə (Moskva, 8 fevral 1992), Elmi və Texniki Əməkdaşlıq haqqında Sazişə (Almatı, 24 may 1993) və digərlərinə uyğun olaraq ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində hidrometeoroloji məlumatlar mübadiləsi aparır və sıx əməkdaşlıq edir.

Hər il Qazaxıstan və Azərbaycan da daxil olmaqla MDB Dövlətlərarası Hidrometeorologiya Şurasının ölkələri MDB-yə üzv dövlətlərinin ərazilərində iqlimin vəziyyəti və dəyişməsi haqqında birgə İllik Hesabat hazırlayır.

Xəzər Dənizi Hidrometeorologiyası üzrə Koordinasiya Komitəsi (CASPCOM) çərçivəsində də əməkdaşlıq davam edir.

CASPCOM 1994-cü ildə Xəzəryanı dövlətlərin milli hidrometeorologiya xidmətləri tərəfindən Ümumdünya Meteorologiya Təşkilatının dəstəyi ilə yaradılıb.

Qazaxıstanın Xəzər dənizi sahili haqqında aşağıdakı məlumatlar hər il CASPCOM-a təqdim olunur:

1) Hidrometeoroloji məlumatlar (dəniz səviyyəsi, suyun temperaturu, səth axını və s.);
2) Xəzər dənizi səviyyəsi üzrə məlumat bülleteni üçün dəniz səviyyəsi məlumatları;
3) Xəzər bölgəsində (Qazaxıstan ərazisi) iqlimin vəziyyəti və dəyişməsi haqqında illik bülleten.

Bu sahədə iki ölkə arasında əməkdaşlıq qurulub.

*- Qazaxıstan iqlim gündəliyi və ”yaşıl iqtisadiyyata” keçid çərçivəsində hansı prioritetləri müəyyən edir?*

- Qazaxıstan iqlim gündəliyini uzunmüddətli sosial-iqtisadi inkişafın və iqtisadi modernləşmənin ayrılmaz hissəsi kimi görür. Ölkənin əsas prioritetləri emissiyaların azaldılması, iqlim risklərinə qarşı dayanıqlığın artırılması, regionlar və əhali üçün ədalətli keçidin təmin edilməsi ətrafında cəmləşib.

İlk növbədə mərkəzi prioritetlərdən biri istixana qazı tullantılarının azaldılması və aşağıkarbonlu inkişaf modelinə keçiddir. 2026-2035-ci illəri əhatə edən təsdiq edilmiş Milli Səviyyədə Müəyyənləşdirilmiş Töhfə (NDC 3.0), 1990-cı il səviyyələri ilə müqayisədə 2035-ci ilə qədər tullantıların 17 faiz azaldılmasını şərtsiz hədəf olaraq müəyyənləşdirir və beynəlxalq dəstək ilə 25 faizə qədər daha yüksək hədəfi təmin edir.

İkinci prioritet enerji sektorunun transformasiyasıdır. Qazaxıstan bərpaolunan və digər aşağıkarbonlu enerji mənbələrinin inkişafı, enerji səmərəliliyinin artırılması və infrastrukturun modernləşdirilməsi yolu ilə enerji qarışığının şaxələndirilməsinə diqqət yetirir. 2035-ci ilə qədər elektrik enerjisi istehsalında aşağıkarbonlu istehsalın payı ən azı 35 faizə çatmalıdır. Eyni zamanda rəqabət qabiliyyətinin və davamlı artımın təmin edilməsində mühüm amil kimi qəbul edilən iqtisadiyyatın enerji intensivliyinin azaldılmasına diqqət yetirilir.

İqlim dəyişikliyinə uyğunlaşma ayrıca strateji hədəf kimi diqqət mərkəzindədir. Qazaxıstan iqlim risklərinin artıq iqtisadiyyata və əhalinin həyat keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərdiyini qəbul edir. Bu baxımdan, kənd təsərrüfatı, su idarəçiliyi, enerji və infrastruktur da daxil olmaqla əsas sektorların və ərazilərin həssaslığının azaldılması üçün əsas vasitə kimi xidmət edəcək Milli İqlim Dəyişikliyinə Uyğunlaşma Planı hazırlanır.

İqlim siyasətinin bütün iqtisadi sektorlara inteqrasiyası da əsas prioritetdir. 2060-cı ilə qədər Karbon Neytrallığına Nail Olmaq Strategiyasının və müvafiq Yol Xəritəsinin həyata keçirilməsinin bir hissəsi olaraq, iqlim həlləri tədricən sənaye, nəqliyyat, kənd təsərrüfatı və regional siyasətlərə inteqrasiya olunur. Bu, ”yaşıl keçid”in müstəqil ekoloji problem kimi deyil, texnoloji modernləşmə və iqtisadi şaxələndirmə vasitəsi qismində qəbul edilməsinə imkan verir.

Qazaxıstan Respublikasının Su Məcəlləsi su sektorunun iqlim dəyişikliyinə uyğunlaşmasını tənzimləyən normaları, o cümlədən daşqınlara və quraqlığa adaptasiya tədbirlərini müəyyən edir. Qazaxıstan Respublikasının Su Məcəlləsinin 31-ci maddəsinə uyğun olaraq, su ehtiyatlarının qorunması və istifadəsi üçün hövzə planlarında iqlim dəyişikliyinə uyğunlaşma üzrə konkret tədbirlər müəyyən ediləcək. Bu hövzə planları 2026-cı ildə Su Ehtiyatları üzrə İnformasiya və Analitik Mərkəzi tərəfindən hazırlanır.

Beləliklə, Qazaxıstanın iqlim gündəliyində olan prioritetlər iddialı emissiya azaldılmasını, iqlim risklərinə uyğunlaşmanı, iqtisadi modernləşməni və ölkənin uzunmüddətli davamlı və ədalətli inkişafını təmin etməyi birləşdirən hərtərəfli və strateji yanaşmanı ehtiva edir.

*- Sizin zənninizcə, təcrübə və texnologiyalar mübadiləsi də daxil olmaqla Qazaxıstan ilə Azərbaycan arasında ekologiya sahəsində praktik əməkdaşlığı hansı sahələrdə genişləndirmək mümkündür?*

- Əməkdaşlıq üçün perspektivli sahələrə neft dağılmalarının qarşısının alınması və cavab tədbirləri üçün peyk monitorinq sisteminin hazırlanması, rəqəmsal və innovativ ekoloji texnologiyaların tətbiqi, su ehtiyatlarının idarə olunması, biomüxtəlifliyin qorunması sahəsində təcrübə mübadiləsi, həmçinin birgə elmi və təhsil təşəbbüslərinin həyata keçirilməsi daxildir.

Bundan əlavə, bu il Aktauda Qazaxıstan Xəzər Dənizi Tədqiqat İnstitutunda Qazaxıstan və Azərbaycan da daxil olmaqla, Xəzəryanı dövlətlər arasında elmi əməkdaşlığı genişləndirəcək iki tədbir planlaşdırılır.

Bu tədbirlərdən birincisi "Xəzər dənizinin dəniz mühitinin monitorinqi: məlumatların ölçülməsi, emalı və ötürülməsinin müasir vasitələri" mövzusunda təlim seminarının təşkili və keçirilməsi ilə bağlıdır.

İkinci tədbir isə "Birgə elmi tədqiqatlar: Xəzər dənizinin mövcud problemlərinin həllinin açarı" adlı Tehran Konvensiyasının qüvvəyə minməsinin 20-ci ildönümünü qeyd etmək üçün keçiriləcək görüşdür.

Tədbirlərin bu ilin iyun-avqust aylarında Aktauda bütün Xəzəryanı dövlətlərdən mütəxəssislər və alimlərin iştirakı ilə keçirilməsi planlaşdırılır.

*- Qazaxıstan-Azərbaycan ekoloji tərəfdaşlığı bütün Xəzər regionu üçün davamlı ekoloji gündəliyin formalaşmasında hansı rolu oynaya bilər?*

- Qazaxıstan-Azərbaycan ekoloji tərəfdaşlığı Xəzəryanı dövlətlərin səylərinin birləşdirilməsində mühüm elementə və effektiv regional əməkdaşlığın nümunəsinə çevrilə bilər. İki ölkə arasında birgə təşəbbüslər əlaqələndirilmiş yanaşmaların inkişafına, etimadın qurulmasına və gələcək nəsillər üçün Xəzər dənizinin qorunmasına yönəlmiş uzunmüddətli davamlı ekoloji gündəliyin formalaşmasına töhfə verəcək.

# Çillələr yerini çərşənbələrə verir

**İlin qış fəslinin bölgülərinə çillə deyilir. Əski təsəvvürlərdə bu dövr həm soyuq, həm də çətinlik, ağırlıq dövrü kimi başa düşülür. Adamlar dərd-bəladan, xəstəliklərdən xilas olmaq üçün xüsusi ayinlər icra edirlər, elə bu da "çillə kəsmək" adlanır.**



Folklorşünas alimlərimizin araşdırmalarına görə, Novruza hazırlıq yeni təqvimlə dekabrın 21-22-də başlayır və üç mərhələdə bayram davam etdirilir. Birinci mərhələ Böyük çillə ilə Kiçik çillə arası (21/22 dekabr-1 fevral), ikinci mərhələ Kiçik çillənin davam etdiyi müddət (1-20 fevral), üçüncü mərhələ isə dördhəftəlik İlaxır çərşənbələri əhatə edən Boz aydır.

Novruza doxsan gün qalmış, yəni qışın - Böyük çillənin girməsi ilə bağlı xalq arasında çillə şənlikləri keçirilir. Böyük çillə 40 günü əhatə edir. Onun ilk gecəsi "şəbi-yelda" adlanır. Qış fəslinin ən uzun sürən Böyük çilləsi öz qarına-tufanına, soyuq və dondurucu şaxtasına görə el arasında "qaraqış" da adlanır. Amma adamlar heç bu "qaraqış"dan da çəkinməyib öz işlərini görüblər. Ömrünü, gününü torpağa bağlayan əkinçi onu arata qoyur, arxları, kanalları təmizləyir. O, torpağı qırxdan çıxaran bu Böyük çillədə bağ-bağatı, bostan-tərəvəz sahələrini suvarır. El arasında "çillə suyu" adlanan bu suvarma torpağın nəmliyinə kömək edir, şoranlaşmanın qarşısını alır, onu dondurmaqla ziyanvericiləri qırır.

Böyük çillənin başlanğıc günü ilin ən uzun gecəsi olduğundan ona "çillə gecəsi" də deyirmişlər. Həmin axşam adamlar qışdan qorxmadıqlarını nümayiş etdirmək üçün tonqallar yandırır, rəqslər edir, əyləncəli oyunlar, tamaşalar göstərirdilər.

Ulularımız deyiblər ki, Böyük çillədə torpaq qırxın çıxarır, Kiçik çillədə isə torpaq səhər yuxusundadır. Çillələr barədə el-oba arasında gəzən maraqlı deyimlər də var. Deyilənə görə, "Qış" adlı kişinin "Böyük çillə", "Kiçik çillə", "Boz ay" adlı üç oğlu var imiş. "Qış" əvvəlcə ilkini - Böyük çilləni qırxgünlük səfərə göndərir ki, gedib el-obaları gəzsin, görsün nə var, nə yox, adamlar necə yaşayırlar, necə işləyirlər. Böyük çillə ağ qar yapıncısını çiyinlərinə salıb yola çıxır. Axır ki, aralıq ayının, yəni dekabrın 20-də gəlib el-obaya yetişir. Adamlar səhər yuxudan oyanıb çölə baxanda görürlər ki, hər yan ağappaq qara bürünüb. O saat başa düşürlər ki, Böyük çillə gəlib çıxıb.

Çuvalların, küpələrin, xarallların ağzı açılır, təndirlər yandırılır, kürsülər qurulur, buğda götürülüb səməni göyərdilir. Etnoqraf alimlər qeyd edirlər ki, qışın əsas atributlarından biri qardır. Qar bərəkət, gələn ilin bolluğu və məhsulu deməkdir. Payız əkinlərinin qalın qar ilə örtülməsi onun şaxtadan qorunması, yazda bol su ilə təmin edilməsi deməkdir.

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çillə.*
*Taxıllara yorğan ol,*
*Bağçalara bar çillə.*

Qar örtüyünün insanlar üçün müsbət xüsusiyyətli olması "Qar olmasa, bar olmaz", "Qar ili, var ili" kimi atalar sözlərində də öz əksini tapıb. Qış fəslində gecə və gündüz havanın necə keçməsi kimi əlamətlər ilin ümumi vəziyyəti haqqında fikir söyləməyə də imkan verir.

Böyük çillə girəndə və çıxanda ulularımız məclis qurar, şirniyyat, isti xörəklər bişirər, əhvallarını xoş saxlayardılar. Adamlar bu üsulla təbiətə təsir etmək, qışa bağlı olanları mülayimləşdirmək istəmişlər.

Böyük çillənin ən məşhur ayini səməni göyərtmək və ondan halva bişirməkdir. Bu "Səməni bayramı" çoxsaylı mərasim ayinlərindən biridir. Baharı çağırmaq, bununla da təbiəti yaşıl görmək, əkdiyi taxılın göyərməsi arzusunun simvolunu yaratmaq təşəbbüsündən irəli gələn səməni göyərtməyin tarixi əcdadlarımızın ilkin əmək, təsərrüfat həyatı ilə bağlıdır. Yaşayışını, dolanışığını, təsərrüfat ilinin - baharın, yazın başlamasında görən əcdadlarımız taxılı ev şəraitində göyərtməklə yazın tez gəlməsini, torpağın oyanmasını, məhsulun cücərib böyüməsi arzusunu ifadə etmişlər.

Estetik düşüncədə çillə şəxsləndirilir, onun boy-buxunu, gücü və ümumilikdə daxili aləmi, xisləti barədə söz açılır. Mərasim nəğmələrində Böyük çillə xoşqılıqlıdır, insana o qədər də ziyan vurmur. Çillə nəğmələrindən birində deyilir:

*Böyük çillə, boyu bir belə...*
*Gəldi elə, gülə-gülə.*
*Ağ gülünü də göstərdi,*
*Ağ dilini də göstərdi.*
*Nə nənəmi dağlatdı,*
*Nə bir uşağı ağlatdı.*
*Nə ağrı verdi elə,*
*Nə ağır söz aldı dilə.*
*Ötdü belə-belə,*
*Getdi gülə-gülə.*

Ulularımız qışı qarşılamaq mərasiminə "Kovsəc", yolasalma mərasiminə isə "Çilləkəsdi" və ya "Çilləçıxartma" deyirmişlər.

40 gün bitən kimi Kiçik çillə elə-obaya göndərilir. Fevral ayının əvvəlindən başlayaraq iyirmi gün davam edən Kiçik çillə qışın oğlan çağı sayılır. Bu çillə soyuqluğu, boran-tufanı, şaxta-sazağı ilə seçilir. Kiçik çillənin "Xıdır Nəbi" adlanan birinci ongünlüyü isə, ümumiyyətlə, qış fəslinin ən sərt, çovğunlu, dondurucu vaxtı sayılır.

Kiçik çillədə qış çox hirsli gəlir. Bir əlində qılınc kimi şaxta, bir əlində çovğun, boran, div nərəli külək.

Kiçik çillənin də özünəməxsus təbiəti onunla bağlı nəğmələrdə əks olunmuşdur. Həmin nəğmələrdə ulu əcdadlarımızın erkən təsəvvürləri, yaratdığı mifoloji obrazlar, deyim və ifadələr, bəzənsə daha dolğun, mifik süjetlər, yaxud onların müəyyən motiv və obrazları verilmişdir:

*Kiçik çillə, boyu bir belə,*
*Hikkəsi ir belə...*
*Gəlişi oldu haynan,*
*Gedişi oldu vaynan.*
*Əlində qırmanc,*
*Eli-günü yandırdı.*
*Necə günahsız doqqaz bağladı,*
*Necə alaqapı sındırdı.*
*Kəsdi necə evin yağmasın,*
*Pendirin, çörəyin, ağmasın.*
*Axırda zara gəldi el,*
*Oturub şər üstündə*
*Zarın-zarın ağladı.*
*Bu kiçicik çillənin*
*Bu piscik çillənin*
*Əl-qolunu bağladı.*

Çillə bayramını xalqımız xüsusi qeyd edər, bu günə əvvəlcədən hazırlıq görərdi. Bayram günü demək olar ki, bütün evlərdə "Çillə qarpızı" kəsilərdi. Bu, ən gözəl pay hesab edilərdi. "Çillə qarpızı"na bolluq, bərəkət rəmzi kimi baxılır. "Çillə qarpızı" evin ağsaqqalı tərəfindən kəsilib dilimlənir, bütün ailə üzvlərinə paylanır, ağız ləzzəti ilə yeyilərdi. Belə bir inam mövcuddur ki, "Çillə qarpızı" yeyən adam demək olar ki, ilboyu xəstələnmir. Ona görə də xəstələr üçün "Çillə qarpızı" ən böyük töhfə hesab edilir. Nişanlı qızlara da pay aparılır. Bu el söyləmələrində, nəğmələrdə də öz əksini tapır:

*Bu qarpız, çillə qarpız*
*Düşübdü dilə qarpız.*
*Yığılıb xurcunlara,*
*Gedir yargilə qarpız.*

Çillə nəğmələrində ulu əcdadın erkən təsəvvürləri, yaratdığı mifoloji obrazlar, deyim və ifadələr, bəzənsə daha dolğun mifik süjetlər, yaxud onların müəyyən motiv və obrazları nəzərə çarpır. Bu nəğmələrdə, əslində, bir arzu - qışın qurtarması, insanların çətinlikləri başa vurub yaza çıxmaq istəkləri ifadə edilir.

Kiçik çillə 20 günlük gəzintisini başa vurduqdan sonra "Qış" adlı kişinin üçüncü oğlu Boz ay dördhəftəlik səfərə çıxır. Bundan sonra isə Novruz gəlir. Su təmizlənir, təbiət canlanır, torpağı isidən Od gurlaşır, Külək Yer üzünə çıxaraq əvvəlcə təmizlənir, sonra isə müxtəlif libaslarda özünü göstərir. Torpağın oyanmasını isə ulu əcdadlarımız ən şən, şux mərasimlər, ayinlərlə qarşılamışlar. Xalq arasında belə bir inam olmuşdur ki, dörd ünsürdən sonuncusunun oyanması ilə Su, Atəş, Yel və Torpaq daha böyük güc alır, ərzin donunu dəyişir, adamları qıtlıqdan, çətinlik və məhrumiyyətdən qurtarmaqda özündə daha böyük qüvvə tapır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Hava proqnozu açıqlanıb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 17-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**

Gecə və axşam bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-8, gündüz 15-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 753 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 19-23, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti olacağı gözlənilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6, gündüz 13-18 dərəcə isti olacağı proqnozlaşdırılır.



Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7, gündüz 13-18 dərəcə isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin axşam dağlıq ərazilərdə yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7, gündüz 13-18 dərəcə isti təşkil edəcək.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9, gündüz 17-22 dərəcə isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi dağlıq ərazilərdə yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8, gündüz 16-21, dağlarda gecə 2-7, gündüz 10-15 dərəcə isti olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 19-23 dərəcə isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-10, gündüz 16-21, dağlarda gecə 7-10, gündüz 12-17 dərəcə isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 18.02.2026-cı il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.


# İordaniya mediasında Azərbaycanın qonaqpərvərlik ənənələri barədə məqalələr dərc olunub

**Azərbaycanda səfərdə olmuş iordaniyalı jurnalist Nidal Zubeydi öz təəssüratlarını "Jordan Daily" qəzetində yayımlanan məqalələrində oxucularla bölüşüb.**




Məqalələrində o, xalqımızın qonaqpərvərlik ənənələri, Azərbaycanın şəhərsalma təcrübəsi və "Sea Breeze" layihəsi barədə ətraflı məlumat verir.

AZƏRTAC xəbər verir ki, N.Zubeydi "Azərbaycanda kiçik anlar və böyük təəssüratlar" adlı məqaləsində ölkəmizdəki kiçik anların insanlarda necə böyük təəssüratlar yaratdığını vurğulayır. Yazıda Azərbaycana səfər edən turistlərin yaddaşlarında qalan unudulmaz təcrübələrindən bəhs edilir. Hər bir yerdə turistlər üçün təəccüblü anlar mövcuddur. Bu, sadəcə, təbii gözəlliklərdən deyil, həm də səmimi və qonaqpərvər Azərbaycan insanından qaynaqlanır. Azərbaycanın qonaqpərvərlik ənənələri iordaniyalı jurnalist tərəfindən xüsusi olaraq qeyd olunur.

Məqalədə həmçinin Bakı şəhərinin müasirliyi və tarixi zənginlikləri ilə turistləri necə valeh etdiyi qeyd olunur. Fəvvarələr meydanı, İçərişəhər və Bibiheybət məscidi kimi tarixi abidələr turistlərə unudulmaz anlar yaşadır. Azərbaycan mətbəxinin zənginliyi də məqalədə diqqət mərkəzindədir. Məqalə müəllifi plov, dolma və kabab kimi yeməklərin, Azərbaycan mətbəxinin nə qədər unikal və cazibədar olduğunu vurğulayır.

N.Zubeydi "Sea Breeze" layihəsi ilə bağlı yazdığı məqaləsində isə Xəzər dənizinin sahilində həyata keçirilən bu böyük şəhərsalma nümunəsinin beynəlxalq turizm üçün necə əlverişli və cəlbedici olduğunu qeyd edir. "Sea Breeze" layihəsi ekoloji tarazlığı qorumaqla yanaşı, həm də regionun iqtisadi inkişafına mühüm töhfə verir. Layihə çərçivəsində inşa edilən müasir hotellər, istirahət kompleksləri və digər turizm obyektləri Xəzər sahilini ilin bütün fəsillərində turistlər üçün cazibədar bir məkana çevirir.

Məqalədə həmçinin bu layihənin Azərbaycanın turizm potensialını əhəmiyyətli dərəcədə artırdığı qeyd edilir. Xəzər sahilində yerləşən lüks hotel və istirahət kompleksləri turistlərə həm yayda, həm də qışda müasir şəraitdə istirahət etmə imkanı təqdim edir. "Sea Breeze" layihəsi həm də sosial və iqtisadi inkişafı dəstəkləyir.

Qeyd edilir ki, bu layihə çərçivəsində yaradılan yeni iş yerləri və turizm sektorundakı irəliləyişlər yerli əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur.

# Təbii fəlakət bir aydır Fransa və İspaniyanı çənginə alıb

**Fransa və İspaniya artıq bir aydır ki, fırtına və daşqınların əsiridir. Bütöv kəndlər su altında qalıb, dəmir yolu və ictimai nəqliyyat xidmətləri pozulub.**

Bazar ertəsi Fransanın cənub-qərbində rekord həddə yağış yağdıqdan sonra Jironda və Lot-et-Qaronna departamentlərində qırmızı həyəcan siqnalı elan edilib. Daha 21 departamentdə narıncı həyəcan siqnalı elan olunub və Pireney dağlarında yüksək uçqun təhlükəsi xəbərdarlığı verilib.

"Vigicrues" daşqın monitorinq xidmətinin məlumatına görə, ən çox zərərçəkən



departamentlərdə çayların səviyyəsi çox yüksəkdir və ətraf ərazilər tamamilə su altındadır. Yağış suyu artıq torpağa sızmır və birbaşa su hövzələrinə axır.

"Nils" qasırğasından bir neçə gün sonra - ötən həftəsonu İspaniyaya güclü yağış və güclü külək gətirən Oriana fırtınası baş verib. Fırtına dəmir yolu və ictimai nəqliyyata ciddi ziyan vurub. Valensiya icmasının bir hissəsi olan Kastelyon əyalətində qasırğanın güclü küləkləri bölgəni bürüdüyü üçün qırmızı həyəcan siqnalı verilib.

Fransa və İspaniyada baş verən fırtınalar nəticəsində 3 nəfər həlak olub, onlarca insan yaralanıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə atası

**ÇƏPƏRXAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nəsimi Rayon İcra Hakimiyyətinin rəhbərliyi və kollektivi Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə atası

**ÇƏPƏRXAN QULUYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə atası

**ÇƏPƏRXAN QULUYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Deflimpiya Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İndira Hacıyevaya anası

**ALİYƏ ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3317**
Sifariş **234**

Qiyməti 60 qəpik